**İradə Əlili**
**İrade Alili**

# VƏ BİR GÜN
# *VE BİR GÜN*

***” küləklərə qoşulub gedəcəyəm”***
***” rüzgârlara karışıp gideceğim”***

**Bakı-2021**
**Bakü-2021**

İradə Əlili. “Və Bir Gün.”

Bakı, “Ləman nəşriyyat poliqrafiya MMC”,
2021

© “Ləman nəşriyyat poliqrafiya MMC”, 2021

# *KÖVRƏK DUYĞULAR*

*(Ön söz əvəzi)*

Qarşımda hələ kitab olmamış vərəqlər var. Bu vərəqlərdə bir ürəyin hərarəti – sevinci, kədəri, həsrəti, nisgili əks olunub. Mənsur şeirlərdir bunlar. Qafiyələnməmiş poetik nümunələr... Ən çox xoşuma gələnlərin adlarını deyim: "Sən olmasaydın", "Külək", "Anama bənzəyən bir ana gördüm", "Sən gələn yollara"...

Əslində yazıçı İradə Əlilinin qələmindən çıxan bu mənsur şeirlərin hamısı ürəyəyatandır, ədəbiyyat aləmində tanınan bir söz adamının ürək sözləridir.

Müəllifin "Qarabağın Tutusu", "Döyüşçü qadının səngər xatirələri", "Vətənin igid döyüşçüləri", "Mənim sevgi dünyam", "Dünya sevənlərindir" və başqa kitabları oxucular tərəfindən rəğbətlə qarşılanmış, bu əsərlərin təqdimat mərasimləri təkcə respublikamızda deyil, onun hüdudlarından kənarda da, xüsusən Türkiyədə də keçirilmiş, bu haqda mətbuat səhifələrində maraqlı ya-

zılar işıq üzü görmüşdür. Yeri gəlmişkən deyim ki, İradə Əlilinin "Mənim sevgi dünyam" kitabı 2015-ci ildə Türkiyədə çap olunmuş və bu toplunun təqdimat mərasimi də qardaş ölkədə keçirilmişdir.

Yaxşı xatirimdədir. Bakıda Yunus Əmrə İnstitutununda İ. Əlilinin növbəti kitabının təqdimat mərasimində iştirak edirdim. İradə xanımın yeni kitabına şeirləri və bədii nəsr parçaları daxil edilmişdi. Mərasimə respublikanın tanınmış qələm sahibləri, ziyalıları gəlmişdilər. Yığıncaqda Türkiyənin Azərbaycandakı səfiri də iştirak edirdi. Bu məclisdə mənə də söz verdilər. Qələm dostumu yeni kitabı münasibətilə təbrik etdim və bir məqamı xüsusilə vurğuladım ki, İradə Əlili ədəbiyyatın müxtəlif janrlarına müraciət etsə də, onun yaradıcılığında mənsur şeirlər xüsusi yer tutur. Bununla əlaqədar bir neçə misal da gətirib dedim ki, mən İradə Əlilinin ayrıca mənsur şeirlər kitabını da görmək istərdim. Budur, bu oxucu istəyim yerinə yetdi.

İradə Əlilinin mənsur şeirlərində bəyəndiyim nədir? Hər şeydən əvvəl Vətənə, Anaya, insanlara olan böyük sevginin saf duyğularla tərənnümü və bu hisslərin tərcümanı olan bədii dil, üslub və ifadə tərzi...

Nümunələrə müraciət edək:

"Gözlərimdə qal və orada gizlən. Sənə sevdalı olan gözlərimi səndən başqa duyan olmasın". ("Sən olmasaydın")

"Tənha bitən ağac və bu ağacın bir budağında baharın izi qalan tənha yarpaq. Tənha külək, qıyma o tənha yarpağa, qoy payız nəfəsində baharını yaşasın". ("Külək")

"Anama bənzəyən bir ana gördüm. Lap yaxınımda idi, bir addımlığımda... Qəhər boğazımda düyünləndi. Yağmağa hər an hazır olan bulud kimi tutuldum". ("Anama bənzəyən bir ana gördüm")

"Hördüm hicranımı sən gedən yolların dönüşünə. Hördüm saçlarıma titrək həsrətini. Düyün etdim ürəyimə kabusa dönmüş bu sevgini... Sənə vida edə bilməyən əllərimin kölgəsi o yollara uzandı... " ("Sən gələn yollara")

Mən qələm dostuma yaradıcılıq yollarında böyük uğurlar arzulayıram. İnanıram ki, İradə Əlilinin mənsur şeirlər kitabı oxucular tərəfindən maraqla qarşılanacaq və müəllifin kövrək duyğuları ürəklərə yol tapacaqdır.

***Aqşin Babayev***
***Filologiya elmləri doktoru, professor***

“*küləklərə qoşulub gedəcəyəm*”

## *DÖNMƏK OLARMI!*

Keçən ömrə səpələnmiş xatirələri səbrlə ruhuma köklədikcə, yığdıqca dünya ağırlığında kədər çökür gözlərimə. Nədən, niyə sualları illərin sınağından yorğun düşmüş, andan-ana tərəddüdlə dolan və hər zaman nigarançılıq çəkmiş ürəyimi sınağa çəkir. O ötən illərə, xatirələrin yaddaşı olan o çağlara qayıtmaq, bir daha dönmək olarmı? Kaşki, dönmək olardı... Təəssüf və Kaşki sözünü kaşki həyatımın xatirələr vərəqində silə biləydim... Silə biləydim!!!

## *OVUTSUN GÜLÜM*

Özün çox-çox uzaqlardasan nazlı sonam, ömrümgünüm, heç olmasa xəyalın yaxın olsun. Həzin, kövrək hüzn dolu notlara köklənmiş duyğularımdasan, gülüm. Heç olmasa həsrətin məni ovutsun... Həsrətim məni ovutsun, ovutsun gülüm!

## *VƏTƏN VƏ HƏSRƏT...*

Göygöl rayonunun Toğana kəndinə gedən yolun kənarında bir dəmir tablo diqqətimi çəkdi. KƏLBƏCƏR- 80 km. Bizi müşayiət edən dostlardan so-

ruşdum: “Kəlbəcər bura çox yaxındırmı? Bu yol hara gedir?”. “Yaxındır”, – dedilər. “Bu kəndin axırıncı cığırı təmas nöqtəsidir və bu yolun sonu Kəlbəcərə gedir çıxır”. Ruhum bir anlıq elə bil məni tərk etdi. Narahat, həsrət dolu baxışlarım Murovdağa tərəf tuşlandı. Elə dərindən ah çəkdim ki… Vətən torpağının yaxınlığında ola-ola o torpaqlara getmək iqtidarında olmayasan.Vətən torpağında dəmir məftillər – “Dayan! Dur! Buradan o yana, əziz torpağına gedə bilməzsən” – deyə yolunu kəsəcəklər. Heç zaman görmədiyim, gəzmədiyim Vətənimin bu yaralı hissəsini görmək istəyi keçdi ürəyimdən. Ancaq, xəyalən Qarabağ torpağını gəzib dolaşmışdım. O yerlərdə qonaq olmuş, dünyasını dəyişən anamın danışdığı xatirələr canlanmışdı fikirlərimdə: “Gözəl təbiət, istiqanlı insanlar, ecazkar məkan, uca dağlar, sıldırım qayalar, şəfalı İstisu, gözəl bulaqlar, səsi insanın ruhunu oxşayan çaylar – bir sözlə, gözəl Vətən torpağı”. Quştək qanad çalıb, bir addım belə uça bilməyəcəyim torpağıma mehman olmaq istədim... Gözlərim dolmuşdu, özümü ağlamaqdan zorla saxlayırdım. Bu andaca, diqqətimi, yağı tapdağında olan, ürəyinə həsrət damğası vurulmuş, bağrı yaralı Kəlbəcər istiqamətindən gələn Kürəkçay çəkdi və sanki Kürəkçayı kədərinə layla çala-çala, ağlaya-ağlaya axırdı və axdıqca torpaq həsrətini anladırdı. O yanda, o biri tərəfdə acı

çəkən qərib Vətən torpağının ağısını deyə-deyə axıb gedirdi. Kürəkçayın kədərinə qoşulub, qovuşub göz yaşlarımı saxlaya bilməyib, hönkürüb, ağlaya-ağlaya "Tanrım, sən özün Vətənimi azad et!" deyə yanan ürəyimlə haray çəkdim.

Tanrım, Vətənimi qoru!

## *DOSTUM*

Bu səhər şəfəqindən nur tökülür. Sevincim damla-damla selə dönür. Gözlərimdən axan sevinc dolu damlalar yuyur gözlərimdəki neçə illərin yığılıb qalmış ağrısını, acısını. Boylanıram sənli günlərimin anlarına, dəqiqələrinə. Səni çoxdan gözləyirdim dost, çoxdan. Ömrümün bu çağına gəlişinlə bahar gətirdin. Dostum xoş gəldin ömrümə, səfa gətirdin. Nəcib ümidim oldun, çağlayan təsəlli bulağım oldun, ən dəhşətli anlarda məni ovunduran həqiqətim oldun, həqiqətim... Nigarançılıqdan tükənən cəsarətimə təsəllim, güman yerim, ümid işığım oldun. Əzabkeşim oldun dostum, əzabkeşim... Pak duyğulum, şərafətim, bahar ədalım, xoş sədalım dostum xoş gəldin ömrümə, səfa gətirdin.

## *KÜLƏK*

Sənə bənzədirəm duyğularımındakı təlatümü, titrəyişi. Sənə bənzədirəm ürəyimlə deyil, dəlisov şıltaq düşüncəmlə verdiyim son qərarımla onlu günlərimə bir daha qayıtmamağı, necə ki, bir anlıq göz qırpımındaca hər şeyi bitirib yerlə-yeksan edəcəyin kimi. Necə ki, bir göz qırpımında günəşin üzünü buludlarla örtüb gizlətdiyin kimi. Əsirsən - coşusran ürəyini buludlara boşaldırsan, qovursan onları, qovursan, yenə də hirsin soyumur. Hirsini dənizə, torpağa, ağaclara tökürsən, yenə də sakitləşmirsən. Dəlisov külək səndəmi tənhasan, səndəmi?! Sənindəmi sinən ümman, gözələrin göl oldu! Sənindəmi!... Tənha külək, tənha ürək... Tənha bitən ağac və bu ağacın budağında payızın izi qalan saralmış tənha yarpaq. Tənha külək qıyma o tənha yarpağa qoy payız nəfəsində baharını yaşasın…

## *SOYUQ ÜRƏKLƏR...*

Soyuq ürəklər - payızda çıxan günəşin soyuq hərarətinə bənzəyər. Heç zaman istiliyi duyulmaz, hərarəti bilinməz sadəcə mövcud olar, görünər, sadəcə işığı gələr... Və o zaman gözlərə də, düşüncələrə də sükunət dolu qaranlıq çökər... Soyuq ürəklər, yaşaya bilirsinizmi?!...

## *DOST BİLDİKLƏRİM*

Çiskinli bir havadır. Gecədən xeyli keçib.Artıq yollardan maşınların təkərlərinin səsi belə kəsilib.Yavaş-yavaş sükunətin fərqinə varıram. Narahat anlarla düşüncələrimin girdabında boğula – boğula qalıram. Birdən-birə hər bir şey bozlaşır, adiləşir.Yeknəsək olur.“Nədən?!”, “Niyə?!” sualları dinclik vermir. Yorur məni. Bəlkə, bəlkə də mən özüməm sualların cavabı deyə əllərimi sıxılan ürəyimin başına qoyaraq gözlərimi yumub Tanrıma dua edə-edə “Allahım haqqımızda hər bir işin, olacağın xeyirlisini et! Məni heç kimsənin qəlbini qırmağa izn vermə, səbr əta elə” dedim. Və harada olduğumu, nə etdiyimi, nə düşündüyümü unutdum. Mürgülü halımla fikirlərimin məni hara götürdüyünü anlaya bilmədim. Bu səksəkəli halım ilə donub hərəkətsiz vəziyyətdə nə qədər qaldığımı hiss etmədim. Birdən yanaqlarımı qarsan bir alov məni bu sakitlikdən qopardı. Gözlərimdən axan sinəmə süzülən göz yaşlarımın istiliyi məni bu narahat xəyallardan ayırdı və bu axşamın ağırlığı sanki üzərimə çökdü. Mənə elə gəldi ki, ruhum artıq mənlə deyil, hər bir şeyin sonudur və mən bu sonluqda dünyamı duya bilmirəm. Özümü tənha hiss etdim.

Beləcə sakitlik hökm sürməyə davam edir. Mətbəxdə balaca masanın üzərində qum saatına baxa-

baxa düşüncələrə daldım”. - Bax beləcə ömür-gün gedir, səninlə bərabər addımlayan illərin də, ayların da və etibarına güvəndiyin dostların da.” Çox həyacanlandım deyəsən özüm-özümə söylənirəm və öz səsimi özüm duyub diskinib ayılıram. Başımda küt ağrıların olduğunu, ürəyimin sürətlə döyündüyünü hiss edirəm. Daha bu mövzuya qayıtamaycağam deyə ürəyimdə çək-çevir edərək saatın hərəkət edən əqrəbinə diqqət edirəm. Saat dörd. Yuxum ərşə çəkilib. Sanki gecə olduğunu unutmuşdum. İnsan inamını itirən zaman o itkini qəbul etmək necə də ağır imiş, İlahi!

Şəhər gecə yuxusuna dalmışdı. Mənə elə gəlirdi ki, bir tək mən oyağam gözümdə, könlümdə özü ilə yuva salmış axşamlayan kədərimlə, pərişanlığımla. Son gücümü toplayıb özüm-özümü danlamağa başladım:- Bu qədər üzmə özünü, ürəyini yemə bəsdir daha. Hər şey yolunda olacaq, anlayacaqlar sonda. Bəlkə sənin də özündə hiss edə bilmədiyin, görmədiyin səhvlərin, atdığın yalnış addımların olmuşdur. Bir az sakitləş!!! Hər bir şey yolunda olacaq. Bir az səbr et...

Bu dəm nəfəsimin daraldığını hiss edib, evin eyvanına çıxdım. Hər zamankı kimi ulduzları bərq vuran, sayrışan səmanı seyr etməyə başladım. Amma hər zamankı kimi yox. Bu zaman tam fərqli, gözümdən ələnən fəryadımla, təəssüfümlə. Mənə

elə gəldi ki, onlarla söhbət edirəm, dərdləşirəm. İçimdə məni didib-parçalayan, acılı-ağrılı ürəyimin göynəyini onlarla bölüşürəm. Bəlkə, bəlkə də mən?! Bəlkə yanlışlıq məndə?! Bəlkə də səhv mənəm?! Suallarım nə bitirdi, nə də tükənirdi. Özümdə özümü axtarırdım.

Yorulduğumu, halsızlığımı hiss edib eyvanda balaca kətilə əyləşdim. Baxışlarım özümdən ixtiyarsız qarşı tərəfdəki binanın işığı yanan evlərə tərəf dikildi. Asta –asta saymağa başladım bir, iki, üç. Düşündüm yatmayıblar... Yəqin narahat düşüncələri onları da bu gecə vaxtında yuxusuz qoyub. Demək ki mən tək deyiləm, gecələr insanlarla dərd bölüşürlər... Bir xeyli müddət keçdi. Evlərdən birinin işiğı söndü. Bir azacıq zaman da keçdi, ikinci evin işığı söndü. Ürəyimdə sevindim, yəqın hər bir şey qaydasına düşdü. Başımdakı məni sıxan fikirlərimi bir tərəfə qoyub, həsrətlə üçüncü evin işığının sönməsini gözləyirdim. Üçüncü evin işığı sönmədi ki, sönmədi. Ah, yəqin o zavalılarda mənim kimi düşüncələrinin girdabında çabalayırlar - deyə fikirləşdim. Bu dəm ürəyimdən nələr dolanıb, nələr keçdi. Göynəyən ürəyimin döyüntüsü qulaqlarımda əks səda verirdi. Gözlərim yol çəkdi. Özüm özümə astadan söylənməyə başladım və sanki pərişanlığımı, günahsızlığımı kiməsə anlatmağa çalışırdım: - Axı, mən neyləmişəm, niyə belə! Niyə !Niyə dost

bildiklərim, inandıqlarım, ürəyimin bir parçasında sonsuza qədər yeri olanlarım sonda nə dost, nə tanış, nə düşmən kimi qalır niyə!? Biixtiyar niyə kəlməsini bağıraraq elə ucadan dedim ki, öz səsimə özüm ayıldım sanki yuxuda idim. Qərar tuta bilməyib otağa, ordan da mətbəxə keçərkən gözüm radioya sataşdı. Bəlkə bir həzin musiqi dinləyim ruhum dinlənsin, sakitləşim deyə düşündüm. Elə də etdim. Amma həzin musiqi məni sıxan düşüncələrimin məngənəsindən qopara bilmədi.

Düşüncələrim tüğyan edir, məni sakit buraxmırdılar. Özümü ələ ala bilmirdim. Musiqi məni yaman kövrəltmişdi. Bu dəfə ucadan ağlaya-ağalaya "Axı, niyə dost dediklərim etibarsız oldu? Niyə Allahım?!.. Niyə dünya malını dost ürəyindən ucada tutdular, kiçik gördülər. Niyə!?

Gözlərimin yaşı leysan kimi əllərimə tökülürdü, o əllərə ki, ehtibarsız dostların soyuq əllərini sıxıb dostum demişdir. O əllərə ki, tanrı dərgahına açılaraq dostuna dualar etmişdir. O əllərə ki, dostun göz yaşını silmişdir, o əllərə ki, dosta bağlı qapılar açmışdı. O əllərə...

Özüm eşidəcəyim bir səslə astadan söyləndimsəhv özündədir, günah ürəyinindir, ruhunundur, səninindir çünki dost dediyin bir insanın ancaq yaxşı tərəflərini görürsən və gördüyün bu mənzərədə səhvləri aydın seçə bilmirsən. Lakin, yenə də fikir-

ləşdim qoy olsun. Axı, bu dünyanın elə bütün müdriklərinin dediyi kimi dünya sınaq dünyasıdır. Və beləcə hər kəsin öz yolu, öz misiyası... Kim bilir?

Pəncərənin qarşısına keçib uzaqlara çox uzaqlara zilləndi baxışlarım. Düşüncələrim məni acılı - şirinli xatirələrimə qaçırdı. Orada olanlar, nələr, daha nələr film kimi şüurumda canlandı.Bu dəm rəhmətlik anamın sözləri qulaqlarımda əks səda verdi: ”Qızım səhvi olanı bağışlamağı bacar, amma təkrar zərbə almamaq üçün sənə ehtibarsızlıq edəni bir daha yaxınına buraxma”. Mənə elə gəldiki anam mənim yanımdadır. O iztirabımı görüb bu sözləri demək üçün özü gəlib mənə. Axı o mənim həyatımın, varlığımın ən böyük müdriki idi. Düşüncələrimdən ayrıldım. Sanki yuxuda idim. Dan yeri yava-yavaş açılırdı. Gözüm qarşıdakı binada işığı gələn evi axtardı. Elə həmin andaca o pəncərədə görünən işıq söndü... Beləcə bütün zülmətlərə son qoyan böyük Nur-Günəş aləmi nura boyadı. Yaşamağa dəyər.

## *NÖQTƏLƏR...*

Nöqtələr çox zaman qərar verə bilməyəcəyin düşüncələrin cizgisidir. Bir, iki, üç... Və düşüncələrinə yazırsan, yadına yazırsan bu nöqtələri. Nöqtələrdən çəkilmiş ağlı-qaralı bir tablo yaranır gözlərinin önündə. İllərdən yığılmış bu qərarsızlığını sözlə

ifadə edə bilmirsən!!! Bəlkə də ifadə edəcək sözü tapmaq sənə çətin olur, bəlkə də tapa bilmirsən, bəlkə də bilərsən, amma yazmaq istəmirsən... Və, bu nöqtələr sənə pianonun ağ və qara dillərini xatırladır. Toxunsan layla dolu bir həzin nəğməyə çevriləcək... İntizar dolu həzin nəğməyə...

## *GÜLÜŞLƏRİMDƏ GİZLƏNDİM*

İçimi yandıran qüssə ilə bəzən göz yaşlarımda, bəzən gülüşlərimdə gizləndim. Amma səndən gizlənə bilmədim. Hara getdimsə, harda oldumsa gözlərini gördüm. Kölgəni hiss etdim. Bilirsənmi, sənin yoxluğunu mənə ilk xatırladan göz yaşlarım oldu. O göz yaşları ki gözlərimdən bir başa qəlbimə yol aldı dolanbac çığırlar ilə. Alnımın qırışında oxunan və oxunmayan izlər, gözlərimin giləsindən boylanan qürur dolu iradəm, ürəyimin başını göynədən kövrək həsrət, leysan göz yaşlarına dönüb buzlaşadılar, daşlaşdılar... Gözlərdən axan yaş qəlbə axır deyirlər, amma çox zaman o göz yaşları göz bulağından qəlb evinə gedənə kimi quruyar... Bunu unutma...

## *BİR MƏN YOX İDİM*

O, mənə yalançı gözləri ilə, sevirmiş kimi göstərdi özünü. Və ilğım kimi görünüb, duman kimi çəkildi. Amma mən ona və bizim sevdamızı duyanlara özümü unutmuş kimi göstərməyi bacarmadım və bəlkə də onu etməyə pərişanlıqdan, həyadan doğan hisslərimin seli mane oldu. Gözlərim ürəyimin səsini və sözünü baxışlarından eşitdirirdi. Qırıq ümidlərimlə yüklənmiş incik baxışlarımla uzaqdan-uzağa onun gözlərinin qərar tutduğu məkanı oğrun-oğrun izlədim.

O məkanda bir mən yox idim... Bir mən!!!

## *YARIDA QALDI*

Qaranlıq otaq, divarların kölgəsi, bir qələmim bir də yarası qaysaq bağlamayan ürəyim.Bir anlıq nə yazacağımı unutdum. Düşüncələrin girdabında çək-çevir edirdi fikirlərim. Nədən başlayım, hisslərimi necə ağ vərəqlərə təslim edim, necə! Sanki unutmuşdum varlığımı. Necə nəfəs aldığımı da hiss etmirdim. Bir ürəyimin çox sürətlə döyündüyünü, tələsdiyini hiss edirdim. Ancaq yazmaq istəyirdim içimi yandıran pərişanlığımdan və daha nələrdən, nələrdən... Gözlərim yazı masamın üzərində bir parça kağıza, tələsik yazdığım yarımçıq qalmış bir yazıma sataşdı və nəzərlə-

rim o, yazıya dikildi.Və fikirlərim tezliklə cümlələrə çevrildi. Hər bir şey yarımçıq oldu, yenə yarıda qaldı, bütöv olan bir ürəyim,.. bir adım oldu. Bənövşə ömrünə bənzətdim ömrümü, boynu bükük bənövşə ömürünə... Xoşbəxtliyə gedən yollarda azıb qaldım deməkki... Demə o yolların yolçusu olmaq Tanrı hədiyyəsi imiş. Bəlkə bu hədiyyəyə gec qaldım və, ya da heç nəsibim olmadı... Bir sükunət məni alıb dünyadan aparır.Qaranlıq otaq, divarların kölgəsi, bir də yarası qaysaq bağlamayan, titrək ürəyim və mən.

## *SƏHVLƏRİMLƏ SEV*

Səhvlərimlə sev məni.Sən gözlərində gizlətdiyin istiliyi, mənsə ürəyimdə gizlətdiyim alovu sevdamızın ömrünə pay edək. Bu sevda, həyatımızın sonunadək bələdçimiz olsun. Bu istilik, bu alov ömrümüzə bahar nəfəsi gətirsin, ruhumuza səpələnsin. Səhvlərimlə sev məni. Qovuşan yollarımız mələklərin könlündən keçsin. Sevdamızı mələklər qorusun. Səhvlərimlə sev... Sev məni!

## *YORĞUN DÜŞMÜŞ*

Yorğun düşmüş gecələrin zil qarasına bənzəyən gözlərimdən damla-damla son sahili olan yanaqlarıma axan göz yaşlarım bir-birini qova-qova, incik-

incik gileyləndilər. O zaman o an qayıtmaz. Duyğularını bu acı həqiqətə, olanlara, olacağa inandır və alışdır. Gözləmə, gözlərində axşamlayan, gözlərinə köçən o, ömürlük intizar payın gəlməyəcək... Gözləmə...

## *SƏNDƏN BAŞQA*

Sarıldım sənlı xəyallara. Nələr dolandı inildəyən ürəyimdən, nələr keçdi olub keçənlərə sirdaş olmuş düşüncələrimdən bir-bir... Könlümdə, ürəyimdə bir görüş yeri göynədi. Bir görüş yeri... !Bu dəm Bahar dumanına, çəninə bənzər bir pərdə çəkildi gözlərimin önünə və o bozluqda kölgən göründü gözlərimə və yavaş-yavaş. O dumanlıqda yaş gilələnmiş gözlərimdən rəsmin asta-asta itdi və rəngsizliyə qovuşdu. Gözlərimin nigaran solğun, sönük baxışları sən gedən yollara süründü... O yolları keçdik biz, bir daha keçə bilmərik... Ah.! O zamanı, o anı qaytarmaq olmaz. Bunu sən də bilirsən!. Qayıtmaz o illər, dolanmaz o aylar... Sən adlı, özün boyda bir həsrət oldun içimdə. Sevdansız kimsəsiz oldum, qərib oldum qəribliyə qovuşdum. Gözlərimə köçdün ömürlük, amma sənsiz oldum. Nə deyimki, məni sənin gözündən kim saldı? Bəlkədə ayrılıq yağan gözlərində mən adlı bir sevdan olmamışam, mən yüklü həsrətin olmamışam. Nə deyim ki...

Həsrətinə, həsrətimə gileylənirəm. Ancaq ürəyimin duyacağı boğunuq bir səslə özümün eşidə biləcəyim, özümü yandıra biləcək bir kəlməni, özüm - özümdəki sənə deyirəm - “Ay etibarsızım, səndən başqa kimim var idi, kimim var...”

## GƏRƏK BU SEVGİNİ

Gərək bu sevgini heç başlamayaydıq. Gözümdən könlümə bir həsrət ələndi. Gör necə bir həsrət! Necə bir həsrət! Göynədi ürəyim, alışdı ürəyim, gör nəyim qaldı hisslərimdə, gör nəyim... Çatmadı sənə ünüm, harayım, hayım. Mənə elə gəldi ki. sənsizlikdə tənha olanda üstümə qar, yağış yağır, buz ələnir. Üşüdüm sənsizliyin atəşindən, çox üşüdüm... Bir ömürlük intizar payım oldun. Nigaran dolu baxışlarımı çəkə bilmədim sən gedən yollardan. Ürəyimin məzəmmətindən həya etdi gizlin – gizlin, incik-incik o yollara qədər hey süründü, süründü baxışlarım. Könlüm rübabıaxı, ömrüm boyunca mən səni gözləmişdim? Tək səni! Gözlərində alov gəzmişdim... Bilirsənmi? Sənli yuxularım da məndən küsüb qaçıb. Onlar da məni sənin kimi özünə alışdırmaq, öyrətmək istəmədilər. Gərək bu sevgini heç başlamayaydıq! Könlünü, duyğularını coşduran tufanı gözlərində görə bilmədim, görə bilmədim. Bəlkə də mən görə bilmədim. Bəlkədə mən yuban-

mışam bu sevgiyə, bəlkə də sən tələsmisən bu sevgidə! Bəlkədə... Bilmirəm...

## *BU GECƏ HİCRANDAN DANIŞMAYACAĞAM*

Özümsüz olduğum gecələrdə, həsrətimin hökm sürdüyü, hökm etdiyi gecələrdə hicrandan danışmayacağam... Dərdlərimə daşınmayacağam... Dərd çəkən ürəkdən dərd qaçaq olmadığı gecədə hicrandan danışmayacağam... Hicranıma gedən yollara yan almayacağam. Taleyimdən həyat yollarına yağmur yağan bu gecədə, özüm- öz içimdə gizləndiyim, saxlandığım bu gecəmdə hicranıma xəyalımdan-xəyalıma qaçan yol alan duyğulardan danışmayacağam... Nə qədər ah çəksəm də qəlbim, acılarına, dərdlərinə sirrini verməyəcək, boşalmayacaq... Könlüm nə bu sevdadan, nə də bu sövdadan keçə bilməyəcək. Bəlkələrlə dolu gümanlar asılacaq sinəmdən bu gecə. Düşüncələrimin qəm talasında qəlbim çək – çevir edəcək hicranımla, danlayacaq onu məzəmmət edəcək, aman edəcək, coşacaq, susacaq bu gecə... Yavaşca titrəyən göy otlar kimi titrəyəcək ürəyim, titrəyəcək bu gecə... Sirrini bilə bilmədim bu gecənin... Sakitliyi qucaqlayan bu gecədə hicrandan heç danışmayacağam...

## *ƏMİN İDİM*

Əminliyim məni illər, aylar ayrıcında yaddaşımın ağuşunda təmkinsiz buraxsada, yalqızlığın görünməyən tərəfini görmək və onun təsvirinin rənglər ahəngi ilə ağ kətana bənzər ömür yollarına necə çəkildiyini hiss etdirirdi… Bilirdim və əmin idim - yalqızlığın bir nəfəs, can qədər yaxın olduğunu… Bilirdim! Əminidim ki, məni evimdə yalnız, yarımçıq qalan yazılarım, ağ vərəqlər və hənirtimə ehtiyacı olan dörd divar gözləyirdi. Biliridm, xəyallara` sarılan yalqızlığım da məni həsrətlə, səbrisliklə, gözləri yol çəkə-çəkə gözləyirdi. Bilirdim illərin ayların yükünü daşıyan xatirələrin mənə qucaq açacağı saatları, dəqiqələrı gözləyirdı yorulub heydən düşənə kimi gözləyirdi. Əmin idim məni tək buraxmayacaq, dözüm dolu özüm gözləyirdi evimdə, özüm gözləyirdi…!

## *POZULMADI*

Taleyimdən ömür bağıma yağmur yağdığı zaman, özüm -öz içimdə gizləndiyim an yandırdı ürəyimi həsrət dolu nigaranlıqlar. Bu nigaranlıqlar göz yaşına dönüb yanaqlarımda həsrət sözünü yazdı və bu yazı heç pozulmadı.

## *KEÇƏN ÖMRÜN ƏLİNDƏN TUTDUM*

Dəniz kənarı, sahil bağı, sakitlik... Diqqətimi, bayaqdan seyr etdiyim dənizdə, bir-birini qovan ləpələr sehrləyib sanki. Gözlərimi çəkə bilmirəm bu mənzərədən, könül oxşayan bu, əsrarəngiz tablodan. Çox bənzərlik gördüm həyatımın təlatümlü illəri, ayları, günləri ilə sahilə çırpılıb mirvarı kimi dağılan ləpələr arasında. Baxdım ötən ömrümün xəyal qovluğuna, xatirələrimə, düşüncələrimə nələri isə axtardım, nələri isə tapdım nələri isə də sildim. Dərdləşdim içimdəki arzularımla, həsrətimlə

olanlarla, olub keçmişlərlə, xəyallarımla. Ötən illəri aradım. Bir anlıq gülümsədim keçən həyatımın uşaqlıq illərinə, bir az da kədərləndim, heyf, uzaqda qaldı, deyə o, günlər! Uca dağların zirvəsindən ruzigarlar nə aldısa, mənim də ömürün illərindən otuzunu, apardı... Yel qayadan nə alar misalı. Demək, ömrün rəngli fəsillərində yaşamaq taleyimə yazılıbmış. Bu yazını oxumaq necə də xoşdur, amma çox ağrılı. Axı, bu yazı ilə birlikdə bu ömür yolunu bərabər keçmişik. Enişi-yoxuşu, çək – çevirlə, özüdə dostcasına!... "Küsməmişəm bu yazının, bu dünyamın bol dərdindən, ahu – zar etməmişəm, sabah şəfəqlərinin rənginə boyamışam hər zaman könlümü…" Ümidimə bağlanmışam, fərəhə bol demişəm. Xoş gəldin demişəm Tanrıdan ömrü-

mə əmanət gələn, pənahım olan illərimə… Dəniz kənarı, sahil, sakitlik …Keçən ömrün əllindən tuturam, düşünürəm, bir yaş da belə ömrümün tablosuna çəkildi. Bir yaş da….

## *YADIMA DÜŞÜRSƏN*

Ən çox səmanın gözlərinin doluxsunub ağlamağa hazır olduğu zaman yadıma düşürsən. Süzən damlalar asta – asta yerə düşdükcə, xatirələr biribirinin ardınca düşüncələrimdə sıralandıqca yadıma düşürsən, düşürsən yadıma... Bu yağmurlu havada, könlüm sinəmdə qərar tutmur, xəyallarda uçur, ruhum canımı sıxır və içimdəki dillənəsi lal suallar nə dinir, nə tükənir... Özüm-özümlə dolanıram cavabsız sualların içində, və, sonda yoruluram... Yağmurlu günlərin birində “Bu mənəm, sənin üçün gəlmişəm, səni heç kimsəyə vermərəm” demişdin. O yağmurlu gündə də gözlərimizdən axan bir damla yaşla kirpiklərimiz yuyundu və bu vüsal yaşıyla sevdamız paklandı, ülviləşdi... Və, illər keçdi, belə yağmurlu günlərin birində də “Nə olar, danlama məni, sus, ürəyimi eşidə bilmirəm bəlkə də bu sevgi ömrümüzə çox gecikib” - söyləmişdin. Göyüzü dolumsunub həzin-həzin yağış yağır. Buludlar göydə öz kədərinə ağlayır, yerdə mən öz taleyimə... Özüm də yağışa dönürəm, yağış yağanda. Sönük-

lük verir, hüzn verir mənə xatirə dolu hər damla. Yanaqlarımı döyəcləyən hər damla göz yaşımın yanaqlarımda açdığı cığıra qarışıb ürəyimə yol alır. Və, görən hər kəs yanaqlarımdan süzülən yağmur selini yağış damlaları bilir... Qoy elə də bilsinlər! Bu göz yaşları o yağışlı gündə axan bir damla göz yaşından çox fərqlidir. Biri vüsal dolu göz yaşları, o birisi isə hicranı üşüdən...! Yağışlar mənə nisgili sevdiridi, mənsə sən yüklü həsrəti sevdim, səni sevdim, arzuladım hər zaman. Sənsəməni tərk etməmişdin ki...

## *BU GECƏ ANAM QONAQ GƏLMİŞDİ!*

Bu gecə yuxuma anam qonaq gəlmişdi. Eyni ilə neçə illər oncə, gerçəkdə olduğu kimi gəlmişdi mənə, yanıma gəlmişdi. Gəlmişdi yuxuma anam səhərin-sabahın toranlığında. Elə bil heç yuxu deyildi, həyat idi, gerçək idi... Əyninə hər zaman sevdiyi füruzə rəngli paltarı, başında isə qara bənzər ağ ipək saçlarını örtüyü sürməyi rəngli ləyçəyi. Hər zamanki kimi saçlarını alnından arxaya edib, görünməz edirdi. Bənizi Bahar günəşı kimi nurlu idi, gözlərində sevgi axırdı. Amma susurdu, danışmırdı, sevdiyim dizlərinə qoyduğum saçlarıma sakit – sakit tumar çəkirdi, gözləri danışırdı, ... ancaq gözləri. Danışmaq istəyirdim anamla olanlardan, ola-

caqlardan, taleyimin fəsillərə bölünməsindən, haçalanmış arzulardan, uğurumdan, sevincimdən, paylaşdığım və barışdığım hər şeydən, hər şeydən. Susan dodaqlarında, baxıbbaxıb unutdum özümü, sonsuz xəyala daldım. Könlüm yarpaq kimi əsdi. Yuxudan oyanmaq qorxusu həyacana saldı məni... Ömrümün sonuna kimi qalmaq istəyirdim bu yuxumda. Oyanmaq istəmirdim! Mən də anama bir söz söyləmək istəyirdim, içimdə qışqırırdım, haray qoparırdım amma səsimi ona duyura bilmirdim ki, bilmirdim... Səsim anama çatmırdı... Nəhayət, anamın sevgi ilə gülümsəyən dodaqlarına baxıb gücümü toplayıb çox astadan, yavaşcadan söylədim: Ana, sənsiz çox darıxmışam, lap çox darıxmışam!!! Mənə elə gəldi ki, anam da mənə həmin o andaca "balam sənsiz çox darıxmışam" söylədi. Bu dəm yastığıma süzülən, bahar selinə dönən göz yaşları məni bu şirin röyamdan oyatdı...

Saxlaya bilmədim əziz qonağı.

## *ƏGƏR SƏN OLMASAYDIN*

Neyləyərdim əgər sən olmasaydın?! Bir həzin nəğmə kimi həyatıma gəldin, ömrümə gəldin, nə yaxşı ki, gəldin... nə yaxşıki, sən gəldin! Qəlbə sığışmayan dəli həsrətin hökm etdiyi özümsüz anlarımda, nə yaxşı ki, vardın, nə yaxşı ki, gəldin. Ürə-

yimdən keçənləri, gözlərimə baxıb ruhunu oxşayan həvəsinlə oxuyursan – "Kaş ki, bir çiçək olardın, meh olub ləçəklərinə hey sığal çəkərdim, hey oxşayardım səni. Kaş ki, yarpaqlarının pıçıltısı ilə sənə həzin layla çalan çinar olardım. Gerçəyimsən, yalanımsan, sevinc dolu taleyimsən, ümidlərimə doğan günəşimsən, həyatdan umacağım olan səadətimsən, sən hər şeyimsən, inan. Gözlərimdə qal və, orada gizlən, sənə sevdalı olan gözlərimi səndən başqa duyan olmasın". Bilirsənmi sənin üçün nə qədər qəribsədiyimi?. Neyləyərdim əgər sən olmasaydın? Neyləyərdim sən olmasaydın?

## *BELƏYMİŞ GÜLÜM*

Taleyin qisməti beləymiş gülüm. İxtiyar gəncliyimin payız səhifəsi, bir mehə bənd çiçəklərin ləçəyi kimi, hər zaman xatirələrə səpələnməyə hazırmış gülüm. Qəlbimdə od-ocaq qalasamda sənli dünyamda qış mövsümü, sazaq, şaxta, ayazmış gülüm. Könlümü coşduran dünəndən ötüb bu günlərə gələn yadıma, düşüncələrimə köçürtdüyüm kövrək duyğularım daha nələrim, daha nələrim ömrüm – günüm. Bu azmış gülüm. Gözlərimdən axan bir damla, arxasınca min damlanı səslədi, çağırdı, gülüm. Bu, bir qara sevdaya yazı imiş gülüm. Silinməyən yazı. Taleyin qisməti beləymiş... beləymiş gülüm.

## *TİTRƏDİ*

Kirpiklərimin nəmi, gözlərimin qarasına ağırlıq etdi. Yanaqlarımı yağış damlalarını xatırladan, döyəcləyən göz yaşlarım üşüdü, buza döndərdi odlu üzümü. Kövrək könlümün divarlarına yeni çatlar saldı... Könlümün kövrək könlü üşüdü... Yatmış xatirələrin oyaq yaddaşı, kükrədi, dəniz kimi çağladı, tufan qopartdı bu sabah... Titrədi nəm dolu kirpiklərim vaxtsız gələn ayrılıqlara. Titrədi...

## *BİR ANA İSTƏMİŞDİN...*

*("Ümid" uşaq evində balaca Zəhraya həsr edirəm)*

Bir qızım olmasını istəmişdim, ...sənin kimi, mələk üzlü. Bir çiçəyim olmasını istəmişdim, sən ətirdə. Körpələri qəlbi sınıq, könlü pərişan görmək iştəməmişdim. Çox istəmişdim sənin kimi, sənə bənzər bir qızım olmasını. Amma şıltaq, qayğısız olmasını iştəmişdim, Sevəcəkdim onu, çox sevəcəkdim. Səhər axşam saçlarına sığal çəkəcəkdim. Qoxlayacaqdım saçlarını, ətrini nəfəsimə çəkəcəkdim. Bağrıma basacaqdım qızınmaq üçün... onu çox sevəcəkdim. Gül nəfəsinə oduna qızınacaqdım, balaca ağ əllərinin hərarətində ürəyimi isidəcəkdim. Qara üzüm giləsinə bənzər gözlərində özümü, uzaqlarda, çox uzaqlarda qalan, xatirəyə dönən uşağlığımı seyr edə-

cəkdim. Sevəcəkdim onu, çox sevəcəkdim. Gözləri nəmli özgə gözlərdən, özgə əllərdən, özgə ürəklərdən sevgi uman balaca mələyim, sən də mənim kimi bir ana istəmişdin, bir ana!!!

## BU HƏMİN MƏKAN, BU HƏMİN YER

Bu həmin yer, bu həmin məkan.Bu dərdləşdiyimiz, baş-başa qaldığımız həmin ağacın kölgəsi.Dəyişik olan, zaman və bir də fəsil. O vaxt bahar idi, indi isə payız... Unutdum, birdə sənin nəfəsin var idi o zaman. Bu həmin yer... bu həmin məkan. Fikirlərimdə dağıntı, nigarançılıq... Bilirsənmi, gözlərimə köçmüsən ömürlük, hara baxıramsa səni görürəm. Yalnız səni! Səsin qulaqlarımda, əllərinin hərarəti, isitiliyi ürəyimdə.Baharın hər gəlişi səni mənə daha çox xatırladır.Səni anıram.Gizli–gizli içimdə sənsizliyimlə üşüyürəm, narahat hisslərimlə yanıram. Bu həmin yer... Həmin məkan! Sinəm odlu səhra oldu, gözlərim dərya.Yetişməyən harayım-hayım oldun.Axı niyə həsrətin kövrəyi, könül əzən xatirələr mənim tale payıma düşüb. Axı niyə! Düşüncələrimin girdabında, ürəyimdə sənə heç zaman yetişməyəcək məktub yazarkən, saçlarıma bir toxunuş hiss edirəm, elə bilirəm ki, saçlarıma sığal çəkən sənin soyuq əllərindir.Və həmin andaca məni uzaqlara aparan düçüncələrimdən ayrılıram.Ətrafı-

ma baxıram, bir kimsə yox, yenə də tənhalığımla qol-boyun oluram.Uzaq düşmüş xatirələrlə kövrəlirəm. Saçlarıma düşən gümüşü telləri görürəm. Zəif mehə bənd olan, budağından ayrılmaq istəməyən saralmış yarpaqların enişindən yaranan mehin saçlarıma sığal çəkməsi bu həmin məkanda, həmin bu yerdə məni uzaqlara, çox uzaqlara, ruhumun səbrimlə baş-başa qaldığı məkana aparır. Sənsiz keçən illərim yarpaq-yarpaq, ömrümdən düşür və, o anlarsız zaman, necə də tez ötüşür!Ah! İllər necə ötüşür. Onu sən də bilməyəcəksən və bundan xəbəri olmayacaq heç bir kəsin! Bu həmin yer, bu həmin məkan. Dəyişik olan zaman, fəsil və birdə sənin payız nəfəsin!

## *HƏR BİR İNSANIN İHTİYACI VARDIR*

Hayatında bir kadını olmalı her erkeğin.Bazen saçlarını okşayacağı, bazen dizine yatacağı, bazen de elinden kahve içeceği.Gözlerini gözlerinden ayırmayacağı, el-ele gezeceği gözlerinin bakışlarında rahatını bulacağı, düşüncelerinde beraber gönül dünyasına baş vuracağı bir kadını-arkadaşı olmalı.Yağmurlu günlerde bile birlikte islanacagı, kederine, acısına, hoş günlerine ortak olub, paylaşacak, könül koyacaq bir kadını-dostu olmalı.Bir kadını olmalı her erkeğin. Kesf edecegi zirve, siginacagi

liman... Velhasıl bir kadını olmalı her erkeğin.Anlayabileceği ve anlatabileceği. Her bir kadının da, omuzlarında acısını unutacaq, zor anlarını hafifletecek, dünya kadarsevgi ve sadakat, güvenc verecek, her gün güzel hatıralara imza atacaq, anlayabileceği ve anlatabileceği bir adam gibi adamı – dostu, arkadaşı olmalı. Velhasıl her bir insanın ihtiyacı vardır aslında sevgisini paylaşacaq birine-hayat arkadaşına... Ve her bir insanın bir dostu bir vefalısi sabredeni olmalı...

## *KOR YAĞIŞLAR*

Ürəyimə kor yağışlar yağsada, amma onlar gözümdən kirpiklərimə gedən yola iz sala bilmədilər. Qərarsızlığı kor yağışlara bənzədirəm...

Onu deyim ki, ömrü çox qısa olur bu kor yağışların... Dolmuş buludlardan qoparaq, yerə doğru can atsalarda heç torpağa çatmamış zərrəciklərə dönərək səpələnib, buxarlanırlar. Yağmur olub torpağın üzərində öz cığırlarını aça bilimirlər.Torpağa çatmaq arzusu kor yağışlar üçün üçün hər zaman bir həsrəti ünvanı olub. Qərarsılıqda belədir düşüncələrin girdabında suallarla üz-üzə qalaraq fikirlərin tam yarıda qalır... Kor yağışlar heç sizin yağmanızı arzulamadım çünki, siz yağmur deyilsiniz... deyilsiniz...

## *DOSTUM*

Bu səhər şəfəqindən nur tökülür.Sevincim damladamla selə dönür. Gözlərimdən axan sevinc dolu damlalar yuyur gözlərimdəki neçə illərin yığılıb qalmış ağrısını, acısını. Boylanıram sənli günlərimin anlarına, dəqiqələrinə. Səni çoxdan gözləyirdim dost, çoxdan. Ömrümün bu çağına gəlişinlə bahar gətirdin.Dostum xoş gəldin ömrümə, səfa gətirdin. Nəcib ümidim oldun, çağlayan təsəlli bulağım oldun, ən dəhşətli anlarda məni ovunduran həqiqətim oldun, həqiqətim... Nigarançılıqdan tükənən cəsarətimə təsəllim, güman yerim, ümid işığım oldun. Əzabkeşim oldun dostum, əzabkeşim... Pak duyğulum, şərafətim, bahar ədalım, xoş sədalım dostum xoş gəldin ömrümə, səfa gətirdin.

## *BİLİRSƏNMİ*

Səni sevirəm, eşidirsənmi, çox-çox sevirəm. Bunu sənə deməyə heç də çəkinmirəm – səni sevirəm, lap çox. Nə yaxşı ki, varsan. Nə yaxşı ki, səni tanıdım. Nə yaxşı ki, dünyaya gəlmisən, mənim üçün gəlmisən! Sevdalı könlüm bir səni duydu, bir səni seçdi. Bir bilsən bu könüldən nələr keçdi ömür tablosuna min cür naxış vuranım, səhər şəfəqlərindən

tökülən nurum, işığım, çiçəklərin ləçəklərinə qonan bahar şehim. Səni sevirəm!Uşaqlaşıram, kövrəlirəm, dünyanın ən bəxtəvər sevdalısı oluram adını dilimə gətirdiyim an. Səni sevirəm, bilirsənmi?! Sənə demək istədiklərimi bir kağız parçasına yazıb, sənin yazı masanın üzərinə qoymaq istəyi keçib ürəyimdən. Çiçəkdən də zərif olan duyğularımı istəmişəm sətirlərə, sətirləri isə varaqlara utancaq hisslərlə təslim edib və sənin gözlərinin giləsinə-yaddaşına köçürüm. Ürəyim həsrətimin kilidli qapısıdır, son dayanacağıdır, son sözüdür, son ərkidir, son inadıdır. Yetər ki, ürəyini dinlə, o qapıya doğru addım at, və o zaman səni sevən bir ürəyin çırpıntılarını duyacaqsan, hərarətini hiss edəcəksən. O zaman...

## *ANAMA BƏNZƏYƏN BİR ANA GÖRDÜM!!!*

Bir ana gördüm bu gün.Onun baxışları məni uzaqlara, lap uzaqlara apardı…Baxışlar məni xəyal dünyamın son duracağına götürdü…O baxışlar mərhəmlik, məlhəm dolu birümman idi.Nurlu simasında bir doğmalıq, bir yaxınlıq hiss etdim. Çaşqınlıq içində hiss etdim özümü. Sanki neçə illər idiki, mən onu tanıyırdım…Gözlərimin yaddaşına, xatirəsinə hopdu bu baxışlar. Baxdım! Doyuncahə-

riscəsinə baxdım, hətta istəmədim kirpiklərimi qapadam!!! Həyacan bürüdü məni…Anama bənzəyən bir ana gördüm, lap yaxınımda idi, bir addımlığımda… Anama bənzəyən bir ana gördüm…Qəhər boğazımda düyünləndi, yağmağa hər an hazır olan dolmuş bulud kimi bir şirin sözə bənd olub ağlamağa hazır idi gözlərim. Bir ana gördüm… Gözləri anamın gözlərini, nurlu çöhrəsi anamın çöhrəsini xatırlatdı.Xəfifcə təbəssümü gözlərinə işıq salırdı, eyniylə anamınkı kimi.Çiçək ətirli saçlarının ağ-qarasından yaşanan həyatının ağrı-acısı duyulurdu. Ala gözlərinin dərinliyində sevinc dolu hüzn hiss olunurdu. Utancaq baxışları nurani simasına daha çox gözəllik verirdi- mənim anam kimi. Təmkinlə danışırdı, səbirlə davranırdı… İllərin necə onu yorğun-arğınburaxdığını alnındakı qırışlardan hiss etmək olurdu. Amma gülümsər çöhrəsinə bu heçdə kölgə salmırdı-anamın çöhrəsi kimi… Bir ana gördüm bu gün… Sanki bir yuxu idi bu görüş, sanki qərib bir adadan bir möcüzələr aləminə düşmüşdüm…İstədim anama bənzəyən ananın əllərindən tutum, gözlərindən öpüm. Çox istədim bunu, çox…Yaxınlaşıb bağrıma basıb qucaqlamaq istədim…Amma cürət edə bilmədim. Kim bilir, bəlkə o ana da mənə bənzəyən bir övladını itirmişdir…

## SƏNDƏN ÖYRƏNDİM

Bilirsənmi sənə bir şey söyləmək istəyi var içimdə, bir sey…Qəlbimin xatirəsində illərdən-illlərə pənah gətirən, illərdən illəri alıb yaddaşıma hopduran duyğularımdan söz açmaq istəyirəm, sadəcə söz açmaq…. Mənə öyrətdiklərini, səndən öyrəndiklərimi yaddaşıma hərf-hərf yazdığımdan, damla-damla hopdurduğumdan, daha nələrdən, nələrdən… Nəfəsim tükənənə qədər sevməyi, bir dəli sevdanın işığında yandıqca yanmağı öyrəndim səndən…Öyrəndim səndən mehriban ürəyimin həzin pıçıltısının, xəyallarımın səssiz-səmirsiz varlığında inkasına. Səndən öyrəndim kövrək duyğularımın şıltaq, incə hisslərə dönüb ruhuma qonaq olmasını. Səndən öyrəndim acıları keçmişə buraxıb ürəkdən gülməyi, ürəkdən sevinməyi, sevgi dolu zərrəciklər olub yaşanan bir ömrə səpələnməyi... Məni mən qədər sevməyi və bir də bir sevda dolu səbri səndən öyrəndim, yalnız səndən!

## YARALANDIM GİZLİNCƏ

Sözlərindən dərdləndim gizlincə. Qəlbim buz baxışlarından yaralandı gizlincə... İçim sızladı, ürəyim yandı, yandı... Elə bil ki, səhər dumanı günəşin ilk şəfəqlərindən dağıldığı və asta-asta çəkildiyi kimi

sən də yavaş-yavaş həyatımdan uzaqlaşamağa qərar verdin. Fikirlərim kələf kimi dolaşdı... Keçdiyimiz, gəzdiyimiz o yerlərdə ətrini duydum. Boynu bükük, köksü dağlı bənövşəyə döndüm görüş yerimizdə. Ürəyim sənsizlikdən qubar bağladı peşman-peşman, gizlin-gizlin. Yaralandım gizlincə! Könlümün gizlin pıçıltılarına qəlbim haray saldı, gözlərim səni aradı, axtardı, ürəyim səni istədi gizlin-gizlin... Səndən küsdüm, səni bağışladım səndən gizlin-gizlin... Sakit hıcqırtılarım yaralı köksümü alovlandırsada gəlməyəcəyini, mənə dönməyəcəyini bilə-bilə gözlədim səni, səndən gizlin-gizlin! Bir onu analdım ki, həyat səhifəmə yazılmış ömürlükkədərimsən, istəsəmdə, istəməsəmdə silinməyəcəksən və silinməzsən!

## *SƏNDƏN SƏNƏ!*

Özüm də hiss etmədən, bilmədən nə zaman könlümü bağladım saçlarının min telinə, səni lap yaxınımda hiss etdim, lap yaxınımda. Boynunu qucaqlayıb içimdən süzülən atəşimlə, odumla, hərarətimlə səni isitmək istədim... Qəlb hıcqırtılarımın zümzüməsini özüm təkcə duydum... Tək özüm! Axan göz yaşlarımda boğuldum ümidlərimlə. Səndən sənəşikayət etmək istədim. Səndən-sənədanışmaq istədim. Səndən-sənə! Bir addım atmaq istədim sənə gedən yolların başlanğıcına bir addım… Bu yolun

sonunu düşünmədən, daşınmadan. Bu yolun sonu bilinməsədə bu yolların dönüşü olmasa da addım atmaq istədim… Xatirəyə dönmək istədim xəyallarında. Lay-lay çaldım kədərimə. Kədərimi tək özüm duydum… Tək özüm! Səndən-sənə şikayət etmək istədim! Səndən sənə danışmaq istədim...

## *AXI, SƏN MƏNİM BAHARIMSAN!*

Qışın son günləri baharı gətirdiyi üçün onu çox sevirəm. Qışın sazağını, soyuğunu, qarını çox sevirəm. Uğuldayan küləkləri ilə, dolan qara buludları ilə, ağlayan yağışları ilə. Çünki bu yağmurların, soyuqların arxasınca gözəl bir yaz gəlir gülü ilə, çiçəyi ilə. Baharı gözləyirəm səbirsizliklə… Axı sən mənim baharımsan! Baharı sənin ipək saçlarının xoş ətrinə bənzədirəm. Günəşim sandığım o ceyran gözlərinə bənzədirəm baharı. Səni Baharım bilirəm. İçimdə kiçik bir dünyam var. Onun sakini sənsən.Səni istəyirəm… Düşündükcə səni içimdə duyğularım qanadlanır. Hey pərvaz etmək istəyir, hey uçmaq istəyir sənin yanına, sən olduğun yerə, nəfəs aldığın o məkana. Sənsə… Fəsillər kimi dəyişirsən, deməyə sözün olmur. Susursan daşa dönürsən. Yol ayırıcında qalan, yolunu itirmiş nabələd insan kimi!!! Görüb sezmirsən bu pərişan halımı. Bəlkə də görmək istəmirsən. Bəlkə də qorxursan sevməkdən. Bəlkə də könlümü almaq üçün addım atmaq qorxu-

su var içində. Bəlkə də çəkinirsən, bəlkə də qorxursan mənə alışmaqdan. Bəlkə də… Bəlkə də…

Mənsə canda ürək kimi təkliyimi hiss edirəm, xısınxısın ağlayıb məni dildən-dilə salan bu sevginin ağırlığını, onun yükünün çiyinlərimi çökdürdüyünü hər an, hər saat duyuram… Duyuram! Amma yenə də səni baharımı gözləyən kimi gözləyirəm.

## *ƏLİNİN SIĞALINA MÖHTACAM, ANA*

Ağlayıram içimdə, için-için yanıram. Gözümün peşman dolu nigaran damlaları, közə dönmüş ürəyimi yandırır. Uğuruma uğursuzluq düçar edənim məni yaman inlətdi. Yaman inlədim ana, qəriblikdə, yaman inlədim!

Dərdlərimin ağır yükünü, çiyinlərimdə tək özüm daşıyıram, tək özüm: sənsizlikdə ana, tənhalıqda! Sonda arzularımın, ümidlərimin sonu olduğunu mənə anlatdı, məni sevən uğursuzum mənim. Gözləmədiklərim uğuruma çıxdı, olacaqlara susuram. Dayaq ol mənə, gözümün nuru, işığı ana! Pərişan saçlarım əlinin sığalına möhtacdır ana, möhtac!

Ağlayan, ağlamaqdan doymayan, pərtliyini hər kəsdən, özümdən də, səndən də gizlədən narahat gözlərim sənin məlhəm baxışının mehrinə möhtacdır ana, möhtac!

Həyatdan küsgün olanda, hisslərimdə aldananda,

sənin nəvazişinə möhtacam ana, tək sənin nəvazişinə möhtacam!

Təkliyimdən qəhərlənəndə, kövrələndə, tənhalığa çəkilib doyunca ağlamaq istəyəndə, fikirlərimdən yorğun düşəndə isti qucağına, doğma sinənə sığınmaq üçün sənə möhtacam ana, möhtac!

İki sevən ürək görəndə, bir körpə qığıltısına qulaq kəsiləndə, xatirələr çalarlarında halıma yananım, gərəyi olanım göz yaşlarına, oxuduğun həzin laylana möhtacam ana, möhtac!

## *MƏNİM SEVGİ DÜNYAM*

Könlüm dolu olan gecələrdə düşüncələrin girdabına yol alıram. Sevən könlümü, qovrulan ürəyimi min duyğu ilə həzinləşdirirəm. Özüm-özümə məsləhət edirəm, özüm-özümdən küsürəm, hərdən sevinirəm, hərdən kədərin ağuşuna atılıram, hərdən də…Hərdən də dünyanın ən xoşbəxt insanı oluram, ən xoşbəxt sevəni oluram, seviləni oluram. Bacarmıram özümlə…Fikirlərim baş alıb gedir toranlıq düşən meşədə yolunu, izini itirmiş nabələd səyyah kimi. Niyə beləyəm axı?! Niyə?! Bihudə yanırammı, əbəs yerəmi inanıram bu sevgiyə?! Hədsiz xəyala dalıram. Gözlərimin önünə gözəl bənizin, baxışlarını oğurladığım zaman dəriniklərində özümü gördüyüm gözlərin gəlir. Gülüşlərini xatırlayıram.

Xatırladığım an mən də xəfifcə gülümsəyirəm, göyərçin əllərinçün darıxıram... Əllərini ovcumun içində hiss edib hərarətini duyuram. Həzin çayın nəğməsinə bənzər səsin üçün darıxıram. Ayrı qaldığımız zamanlarda yoxluğun üçün darıxıram. Çəkə bilmirəm sənsiz o anları, o dəqiqələri. Məndən tez-tez küsməyin yadıma düşür, xatırlayıram. Yorulmuram küsməyindən... Küsdüyündən sonra nazını çox sevirəm…Barışmağın da bir aləmdir əzizim, o xasiyyətini də çox sevirəm…Duyğusallığını da məni heyran edir.

Saatlarla kükrəyən dənizin ləpələrini seyr edirsən, heç gözlərinidə qırpmırsan. Fikirlərinlə uzaqlara baş alıb gedirsən. Bax bu halını çox sevirəm! Sevirəm səni, mehribanım, ayüzlüm. Sevirəm! Qəlbimin bir köşəsində özünə yer etmiş bu sevdamı hər kəsdən qoruyuram, gizlədirəm…Qəlb evimin yeganə qonağı, başımın tacı, könlümün sultanı, həvəsim, vəfalım, çılğın hissim, ürkək baxışlım, ilham qaynağım, sevgi dünyamın əzəli, sevirəm səni! Mənə oğrun-oğrun baxan baxışlarında dünyamı görürəm. Hisslərimdən düşüncələrimə gedən yollar içimdən keçib gedir. Unuduram... Unutdurursan keçmişdə məni əzən, qalaq-qalaq yığılmış nağıl həqiqətlərini… Yanmışdım, kül olmuşdum. Bir daha sevməyəcəyimə ürəyim öz sözünü demişdi... vermişdır. Yalan sevgidən ürəyim də, mən də çox yo-

rulmuşdum… Çox yorulmuşduq!. . Sən demə külümün altında közüm qalıbmış, bir həzin mehə bənd közüm, bir titrəyişə bənd közüm!Sevgilim, ürəyimdən keçəni gözümdən oxu! Muradımda kamımsan, sən vüsal dəmisən, əsən ruzigarımsan, coşan dəryamsan-dənizimsən, yağmurumsan, hər fəsildən nübarımsan, vəfalı dostumsan, günəşin nuru ilə min bir rəngə bürünən səhər şəfəqimsən, mehribanımayüzlüm mənim! Sən özün boyda sevda dolu sevgi dünyamsan, xoş gəldin həyatıma mənim sevgi dünyam. Sevirəm səni!

## *GÖZLƏRİM YOL ÇƏKDİ!!!*

Gözlərim yol çəkdi... Yol çəkdi gözlərim... Çox-çox uzaqlara. Çox-çox uzaqlara dikildi gözlərimin baxışları. O dikildiyi yerə qədər, ora kimi... Ora qaçmaq heyim bitənə kimi, nəfəsim kəsilənə qədər qaçmaq istədim... Gözlərim yol çəkdi... Yol çəkdi gözlərim... Həsrətimdən ürəyimə. Yol çəkdi gözlərim... Uca zirvələri günü-gündən əriyən, ətəklərində çiçəkləri solan, qəribçilikdə ömür payı yaşayan, qovuşmaq həsrəti ilə titrəyən dağlara, yarpaqları həsrət simfoniyası ilə əsən meşələrin küskün ağaclarına. Yol çəkdi gözlərim öz-özünə, kədərinə həzin lay-lay çalaraq axan bulaqlara, nisgilli gözlər kimi hər zaman ağlamağa bənd olan buludlara,

bağrı yaralı torpaqlara... Qarabağıma! Könülsüz-könülsüz əsən, özünə yer, məkan tapmayan küləklərə.

Kədərin bitib sevincin başalayacağı günə gözlərim yol çəkdi... Bu yol çox uzaqda deyil!

## *GÖZ YAŞLARI*

İnsanlarda göz yaşı eyni olsa da, o ayrı-ayrı ürəklərdə hisslərin, duyğuların üsyanıdır, həyacanıdır. O göz yaşları ürəyə yol alıb axdıqca duyğuların süzgəcindən keçər və axan göz yaşları sükunət dolu sarsıntıları, sıxıntıları geridə qoyaraq ardınca gələn xoş ovqata köklənər. Göz yaşları axdıqca keçmişinə, ötən illərə, səyahətə aparar səni və acılı-şirinli xatirələrini yada salarsan. İztirabın, sevincin illərinin fəsillərində necə iz saldığını kənardan, lap uzaqdan seyr edərsən. Damlalar axar bir, iki, üç... Və damlalar dayanmaz, gözü aşılan bulağın suyu kimi...

Sakitləşərsən bu an... Dərdlərinin bitən dayanacağına kimi yol yoldaşın olar sənlə o göz yaşlar. Çevrəndə təklənəndə sənlə baş-başa qalar, təklənməyə qoymaz səni. Ürəyinlə ağlının mübahisəsində, dava-dalaşında səni yalqız buraxmaz, sədaqətli olar sənə. Bəzən sevinc yüklü göz yaşları, bəzən də

ümidsizlik,həsrət, iztirab, itki, dəyərsizlik, etinasızlıq, məkr, yalana etiraz dolu göz yaşları bənizinin qonağı olar. Fəqət büllura bənzər bir ürək bulağının çağlamasına hisslər səbəb olur...

## *XATİRƏLƏR*

"Xatirələrdə olan keçmişin gerçəklikləri insanı dəhşətə sürükləyirsə, yeknəsək düşüncələrə aparırsa artıq o xatirə deyil, iztirabdır!" Xatirələr insan ömrünün yaşanmış günləridir. O günlərə çox uzaqlardan baxmış olsaq da, yaddaşımızda keçmişin müxtəlif boyalarla çəkilmiş peyzajını görürük... İllər kecdikcə xatirələr ömrə qalaq -qalaq yüklənmiş bir yazılmamış, oxunmamış həyat hekayəsidir. Və bu ömrün yaşanmış, keçib-getmiş illərini xatırlamaq istəyinə hər zaman mənən ehtiyac olur. özünü xatirələr burulğanında itirirsən... Uzaqlaşırsan bir anlıq gerçək həyatdan və o bir an içində xatırlayırsan o illəri, düşünərək saf-çürük edirsən, çox-çox uzaqda qalmış keçmiş xatirələrdə həqiqəti bilsən də sadacə peşman olmadan təəssüf hissi keçirirsən...

## *BU GÜN BİR YAZI YAZMAQ İSTƏDİM...*

Bu gün bir yazı yazmaq istədim! Düşüncələrin girdabında bir balaca xatirə parçasını incələdim...

Qəlb evinə oğrun-oğrun, ürkək-ürkək nəzər saldım. Addım atdım o düşüncələrə uzanan yollara... Düşüncələrimi səhifəsi solmuş gülün yarpağına bənzər bir kitabı oxumuş kimi bir-bir, varaq-varaq çevirdim, varaqladım. Yeknəsəqlikdən uzaqlaşmaq istədim... Gözlərimdə ürəyimə gedən yolların nağılına qarışdım... kipriklərimin kölgəsi yanaqlarıma, əllərimin kölgəsi sis duman dolu yollara düşdü. Bu zaman sonu bitməyən, bilinməyən bir nağılı xatırladım... Bir nağılı... Bu gün bir yazı yazmaq istədim...

## *SƏNİ SEVMƏK…*

Səni sevmək şirin bir kəlmə kimi dillənmək deməkdir. Səni sevmək susmuş könül duyğularını dilə gətirmək, bir məsum çöhrəyə gülüş bağışlamaq deməkdir. Kədərdən sevinci, səndən səni almaq mən olmaq deməkdir. Bir dünya, bir nur dolu aləm deməkdir səni sevmək…Canıma incə nəfəs, ruhuma həvəs deməkdir. Sükunətin boz anlarında ətalətli duyğulardan uzaqlaşıb tənhalığa əlvida deməkdir səni sevmək... Yalnızlığın soyuq qucağından səni oğurlayıb bir sevdalı könül yolçuluğunda ilk və son dayanacaq deməkdir səni sevmək... Səngələn yollara uzanan titrək əllərimin çağırışıdır səni sevmək… Sənin mənində mən olmaq deməkdir səni sevmək... Səni sevmək!

## *BİR ÇİÇƏK İSTƏMİŞDİM...*

Bir çiçək istəmişdim o gün. Yalnız bir çiçək. Bəzən coşan, bəzən kövrək olan könlüm bir çiçək istəmişdi... Məni ovunduracaq, bir anlıq da olsa, bir günlük də olsa dərdlərimi könlümdə susduracaq bir çiçək istəmişdım, bir çiçək gözləmişdim... Bəlkə o çiçək, həmin o mən gözlədiyim çiçək də mənim əllərimin hərarətini istəmişdi, o da gözləmişdi onu gözələyən bir titrək əllərdə nə zaman qonaq olacağını, o əlləri sevindirəcəyini.Onu gözləyən o titrək əlləri isitmək üçün, ovundurmaq üçün bəlkə onun da gözləri yolda qalmış, o da həsrət çəkmiş, bəlkə o, özüdə tənhalıqda qalaraq onu gözləyən zərif əlləri düşünmüşdü və ağlamışdı... Bəlkə o da bu titrək əllərin həsrətindən acı çəkmişdı, qəhərlənmişdi. Ləçəkləri solmuş, yarpaqları saralmışdı... Ömrünün payızı vaxtsız gəlmişdi...

Bir çiçək istəmişdim, yalnız bir çiçək...

## *QAYIDACAQ*

İnsan ona əziz olanı itirdikdən sonra, yerinin boş olduğunu hiss etdiyi zaman anlayır onun dəyərini, qiymətini. Və o zaman özünü itirmiş olur... O zaman hər şeyə gec qalmış olur... O itkinin acısı onu

əzir, onu sıxır, hər bir şey gözündə bir rəngə boyanır. Yalnız bir rəngə! Hər bir şey ağ, dümağ rəngində... Zamanı saxlamaq istəyir... Geriyə, o zamanı saxladığı anlara dönmək istəyir. Çabalayır... Çabalayır... Cəhd edir... İçində nəysə bir narahatlıq duyur. Özü qurduğu kiçik dünyasında, gizli aləmində o itkinin boşluğunu hiss edir. Qətrə-qətrə, damla-damla göz bulağından o acını unutmağa çalışır. Ehtiyac duyur təskinliyə, onu ovunduracaq, söylənəcək bir kəlməyə... Yalnız bir kəlməyə "Qayıdacaq!"

## *ÖZÜ DƏ!!!*

Unuduldum deyən bir insan, özü unutmaq istədiyini unuda bilmir və günlərlə, dəqiqələrlə onu unudan həyat və xəyal əkizinə alışır, bağlanır. Ona tərəf can atır... Amma bağlanmağını hiss etmədən. Bu bu alışqanlığı duymadan... hər gün daha da çox... Bir azda bağlanır... Bir az da... Unuduldum deyən bir bir insan, özü də unuda bilmir... Özü də...

## *HƏR GÜN BİR ADDIM!*

Hər gün bir adddım uzaqlaşırsan. Hər gün bir addım yadlaşırsan. Hər gün… Bəlkədə bunu hiss etmirsən… Bəlkə hər şeyi əvvəl gördüyün kimi, olduğu kimi qoyub geriyə dönmək istəyirsən. Arxaya

da baxmadan. Ürəyini də dinləmədən. Hər bir şeyi… Amma mən hər gün bir nəfəs qədər yaxın olmanı istəmişdim!...Fəqət hər gün bir addım xatirələrə yaxınlaşırsan. Bir addım …Hər gün bir addım… Hər gün addım-addım uzaqlaşırsan, yadlaşırsan...

## *SEVGİMİ İTİRMƏKDƏN*

Sevgimi itirməkdən ehtiyat edirəm, qəlb evimin narahat anlarına səpələnirəm.Səpələnirəm ki, çəkdiyim narahatçılıqlar sevgimin qoruyucusu olsun. Səpələnirəm ömrümün illərinə, anlarına bir zərrəcik kimi... O zərəciklərdə sən varsan. Sən...

Yürüdüm arxanca göy qara buludlarla dolub ağlayanda. Mən də ağladım onunla bərabər... Amma yoruldum, dayandım gücüm yetmədi. Hələ sənə deyilməyən çox-çox sözlərim qaldı...

Gücüm artıq yox ümid bəsləməyə... Məni hiss etməməyin dəli küləklərin uğultusu olaraq batırır qulaqlarımı... Sevgimi itirməkdən ehtiyat edirəm... çox, lap çox...

## *GÖZÜ YOLDA QALAN VAR*

Gözü yolda qalan var… tələs həsrətinə, yoxsa xəyallara qovuşacaq… Bir gözü yolda qalan var

ümidi ol, tələs yoxsa gümanlarla külək olib göylərə sovrulacaq… Bir gözü yolda qalan var…

## *AY ANA*

Yenə də sənsizləşmişəm. Yenə də tənha qalmışam... Yenə də hər zamanki kimi Baharın gəlişi ilə sənin də gəlişini gözləmişəm. Yenədə qəhərlənmişəm... Bu gün yaman eynimə dolmusan ana! Sənsiz yenədə gözlərim ağlamağa bəhanə gəzər, bəhanə axtarar mənim gül üzlü anam!!!

## *QƏLBİMƏ YATMIR*

Nə yazsamda qəlbimə yatmır... Elə bil qəlbim mənə yaddan da yad olub biganədir... Nə sözümü dinləyir, nə dünyama gəlir, nə duyĝularıma can verir sadəcə mənlə sakit-sakit addımlayır... Xısın-xısın bir onu xatirladır mənə nə yazsanda qəlbinə yatmır...

## *ONA DEMƏYİN*

Ona deməyin, deməyin ona yol çəkən gözlərimin nigaran baxışları onun həsrətinə dikildi. Ürəyimdə çağırdım onu, gözlədim gizlincə. Ona demə-

yin... Ümüdsiz əllərimin kölgəsi ta o gedən yollara qədər süründü ona yetişmədi, bir sal daş kimi qoynumda bükülərək köksümə bir dünya yükü oldu. Ona deməyin... Deməyin ona!

## *QAYIT GƏL*

Baxırıq yollara, yollar bitmir ki, bitmir! Qayıt gəl gülüm yolçəkən gözləri də, yolları da yormayaq. Yormayaq, qayıt gəl gülüm, qayıt gəl sevgimizin xatirinə..

## *SƏNİN DAHA ÇOX…*

Əllərini titrəyən yanaqlarıma son kəs qoy, qoy göz yaşlarım əllərinə toxunsun ovuclarına dolsun.Dolsun ürəyinə məlhəm olsun. Ovuclarına sığan damlalarda bu sevgi ünvanlı xəyallarımıza əlvida deyək və bu əlvida səni qərarsızlqdan alsın aparsın, ruhun azad olsun.. Və bu əlvidaya sənin daha çox ehtiyacın vardır, sənin daha çox.....

## *BU SƏHƏR*

Bu səhər bir ətir duydum, bu səhər bir həsrət yordu məni, bu səhər gözlərimi yollar yordu, za-

man yordu. O ətir dünyanın ən gözəl ətri anamın saçlarının, əllərinin, nəfəsinin ətri... O həsrətsə.....

## *ÜRƏYİNLƏ AL*

Ürəyinlə ürəyimin dəli könülünü al. Yoxsa bu şıltaq hisslərim, gözlərinə qonan sevdam, kövrək həsrətim ürəyindən küsüb, inciyib gedər...

## *BİR GÜN*

Inadın və bənövşə kirpiklərin xəyallarımın yollarınii bağlamasın, gələcəyəm yuxuna mütləq bir gun qonaq gələcəyəm... Bir gün sənidə yuxularıma inadınla qonaq gətirəcəyəm... Və bir gün sən sevda yükünün nə qədər ağır olduğunu biləcəksən... Və bir gün sən bir damla göz yaşının gözlərinə, yanaqlarına necə ağırlıq etdiyini bütün ruhunla hiss edəcəksən... Və bir gün sən yuxularına ümid edəcəksən axtaracaqsan məni, darıxacaqsan mənimçün. Və o bir gün artıq sənin üçün gec olacaq...

## *AY ÜZÜ DÖNÜYÜM...*

Bu sevdanın son ümidini həsrətin içinə qatdım, düşüncələrimdə min sual cövlan etsədə belə, bölük bölük olsada könlüm, min ağrı-əzabla keçəcək öm-

rü göz önünə alsamda belə başına dolandım bu sevdamın…Tirtir titrədim bu sevdam üçün, ürəyimdən silə bilmədim.Olmayacaq ümidlərlə bu sevdamla çarəsiz qaldım bilirsən, ay üzü dönüyüm. Sənin gözlərinin bir baxışla verəcəyi salamını gözlədim, məni küsdürmüş olan o gözlərinin sadəcə salamını gözlədim... Gözlərim bir salamını gözlədi...

## *ÖVLADIM*

Övladım bu gün neçə vaxtdır ki ürəyimin bir köşəsində boğça kimi bükübsaxladığım sənə söyləmək istədiyim sözlərim vardır. Yaxına gəl! Çox tərəddüd etdim bunları sənə söyləyimmi, söyləməyimmi... Amma ürəyimin əmri belə oldu: söyləməlisən, axı oda yaşlanacaq, oda qocalacaq onun da yolu sən keçdiyin yollar olacaq!

Övladım yaşlandığım qədər keçib getmiş illərin, günlərin şahidi oldum. Yorğun, şən, ağrılı-acılı, sevincli illərin və günlərin xatirəsi gözümün yaddaşındadır hər zaman... Bu illərlə, bu günlərlə cavanlığım, gəncliyim bərabər addımladı... İllərim, günlərim qocaldı, mən də qocaldım. İllərimlə bərabər özüm də yaşlandım... İndi isə bu ahıl yaşımda sənə ehtiyacım çoxdur övladım, çoxdur!...Səndən sevgi mərhəmət adlı bir umacağım var. Gözəl sözlər söylə ürəyim sevinsin, mənə daha cox zaman ayır, ha-

lımı soruş zəyifləyən gözlərimə işıq dolsun, könlüm sevinsin.Titrəyən əllərimdən bərk tut qüvvə gəlsin əllərimə ruhum isinsin, məni qucaqlayıb sinənə sıx ki taqətdən düşmüş ayaqlarıma güc gəlsin. Mənə tez-tez səni sevirəm de yaşam həvəsimə inam gəlsin... Sevgindən, mərhəmətindən ziyada bir şey istəmirəm övladım, çiyinlərimə əlini qoyub saçıma sığal çək sənə gərəkli olduğumu anlat mənə və mən də... Və məndə həyata gərəkli olduğumu anlayım...

## *SƏN ELƏ BİR GÜNDƏ GƏRƏYİM OLDUN*

Həyat yormuşdu məni. Qaçmaq istəyirdim hər şeydən. Bu dünyadan qopub öz kiçiçik dünyamda qalmaq istəyirdim. Nə edim, ürəyimlə bacarmadım, sənin qəlbinin harayı kövrəltdi məni. Harayını duyğularımın səsində axtardım! O duyğularımı imtahan etdim, hisslərimi sınağa çəkdim. Ürəyimdəki əndişəli səsinə qulaq vedim, əzabların ənginliklərində dolaşan gözlərimlə könül evimi nəzərdən keçirtdim, yoxladım, axtardım hey axtardım... Və sənin əksinin nəvazişin izindən başqa, bir də orada şıltaq sevda gördüm, şıltaq sevda... Sən elə bir gündə gərəyim oldun ki, ürəyimin payız çağlarında qış duyğulu fikirlər tüğyan edirdi, ümidlərim qırılıb, arzularım tükənmişdir, könül evim yıxılmışdır. Ya-

naqlarıma, saçlarıma sığal çəkən nəfsinin ətri, istiliyi məni özümə qaytardı, səni isə, mənə bağışladı. Özünə çağrışın, səsləməyin azdığım qatı nifrət dumanlığından aydınlığa çıxartdı məni! Şıltaq, dəlisov dalğalara bənzər məhəbbətinlə həyatıma bahar gətirmısən! Baharına qurban, sevgilim. Sən özündə bilmədən həyat həqiqətim oldun!

Bir bilsən səni nə qədər çox sevirəm!. Hərdən düşünürəm ki, səni bu qədər sevdiyimi duysan bəlkədə qısqanarsan özün- özünü… Gözümün arzusu, istəyi bir səninlə sevindi, səninlə güldü. Sən elə bir gündə gərəyim oldun ki...

Dalğalar dənizə, qürub çağı günəşə yaraşıq verdiyi kimi sənin bahar nəfəsli məhəbbətin mənim ömrümə yaraşığdır. .

## *SƏNDƏN BAŞQA KİMİM VAR MƏNİM*

Sarıldım sənlı xəyallara. Nələr dolandı inildəyən ürəyimdən, nələr keçdi olub keçənlərə sirdaş olmuş düşüncələrimdən bir-bir... Könlümdə, ürəyimdə bir görüş yeri göynədi. Bir görüş yeri... !Bu dəm Bahar dumanına, çəninə bənzər bir pərdə çəkildi gözlərimin önünə və o bozluqda kölgən göründü gözlərimə və yavaş-yavaş. O dumalıqda yaş gilələnmiş gözlərimdən rəsmin asta-asta itdi və rəngsizliyə qovuşdu. Gözlərimin nigaran, solğun, sönük baxışları

sən gedən yollara süründü... O yolları kecdik biz, bir daha keçə bilmərik... Ah! O zamanı, o anı qaytarmaq olmaz. Bunu sən də bilirsən!. Qayıtmaz o illər, dolanmaz o aylar... Sən adlı, özün boyda bir həsrət oldun içimdə. Sevdansız kimsəsiz oldum, qərib oldum qəribliyə qovuşdum. Gözlərimə köçdün ömürlük, amma sənsiz oldum. Nə deyimki, məni sənin gözündən kim saldı? Bəlkədə ayrılıq yağan gözlərində mən adlı bir sevdan olmamışam, mən yüklü həsrətin olmamışam. Nə deyim ki...Həsrətinə, həsrətimə gileylənirəm. Ancaq ürəyimin duyacağı boğunuq bir səslə özümün eşidə biləcəyim, özümün yana bilcəyim bir kəlməni, özüm -özümdəki sənə deyirəm – “Ay etibarsızım səndən başqa kimim var mənim”...

## *AYRILIQ*

İllər əllərini saçlarımıza elə çəkdi ki, dönüb geriyə baxdığımızda gecə zülmətinə bənzər saçlarımızın bəyazlar icində olduğunu gördük. Lal yaddaşa, dinməz xatırlanmayan xatirəyə dönməyə tələsdik. Amma, ürəyimizi dinləməyə qürurumuzun bir kabus olduğunu, bir sədd olduğunu ikimiz də bilirdik.

Amma biri-birimizə bir addımı, o bircəcik addımı atmaq istəmədik yada o addımı atmaq qorxusu oldu icimizdə. Öfkəmiz, eqomuz duyğularımızdan

o qədər bőyűk oldu ki... illərin keşməkeşində, kəsişməsində biri -birimizi ayrılıqla cəzalandırdıq. Ayrılıqla... Qürurumuzun qalib gəldiyi ayrılıqla...

## *HƏLƏ GEC DEYİL...*

Suallar girdabında qovrulan ürəyim söyləyə bilər bütün olanlardan sonra həyatımı necə yaşayacağam və necə olacağam! Axı niyə xoşbəxt olmayaq! Buna haqqımız yoxmu !? Olan oldu, keçən keçdi... Hər şeyi yenidən başlamağa hələ gec deyil, inan ki gec deyil! Bilirsənmi bir bahanə axtarıram səninlə barışmağa, bahanə axtarıaram hər şeyi yenidən başlamağa... hər şeyi... Bir bəhanə axtarıram xoşbəxt günlərimi geri qaytarmağa. Bir kiçicik bəhanə!... Məni bağışla səni çox incitdiyim, çox dərd verib yorduĝum üçün... Bağışla! Söylədiyim bu sözləri mənə deməsəndə, bilirəm ürəyindəki küsüb incik düşdüyünü mənə təkrar-təkrar söyləyirsən! Bilirəm... Bu ayrlığa, bu həsrətə hər ikimiz günahkarıq hər ikimiz ! Ola bilməz ki həyatımızda bərabər paylaşdığımız bu böyük sevgimiz ürəyimizdən birdən-birə silinsin, yoxa çıxsın. Ola bilməz, mən buna inanmıram, bilirəm sən də buna inanmırsan. Hər şeyi yenidən başlamağa hələ gec deyil. Deyil...

## *YALAN DANIŞMA*

Mənə yalan danışma dünənimdən ötübsən bu günümə yalanınla gəlmisən mənə yalan danışma. Yalanların göynədir ürəyimi eh, sən bunu bilməzsen... göynəyə öyrəşmişəm... Göz yaşlarım boşalıb gedir... Düşücələrim baş alıb gedir amma bilmirəm haraya hansi səmtə. Qısılıb xatirələrimin yaddasında sənin doĝru olduĝunu özu-özümdə təsdiq etməyə çalışıram... Niyə! Heç özümdə bilmirəm. Ürəyində keçən xatirələrdən ocaq qalasanda onun istisini yalanlarınla özün duyacaqsan. Dünya aĝırlıĝında bir kədər olub, çökdün gözlərimə. Mənə yalan danışma!

## *MÖHTƏŞƏM ƏSƏRİM "ANA"*

Baharı çox sevərdin. Novruz bayramına daha çox sevgi və dəyər verərdin. Kiçik yaşlarından ata-ananı itirsəndə onların sevgisindən uzaq düşsəndə heç zaman ətrafında olan insanlara incik olmazdın. Sevərdin onları, sevərdin insanlığı. Övladlarını özünə ata, ana bilərdin. Həyatda varım övladlarımdır, deyərdin. Bir onu da deyərdinki, mələk üzlü anam-Allah mənə övlad acısı göstəməsin. Övladlarımın çiyinlərində son mənzilə gedim... Ata, ana həsrətini, yaşamadığın uşaqlığın üçün üzüntünü

ürəyindəcə boğardın, saxlayardın, göstəməzdin bizə... Tək olanda xiffətini Tanrıya dualarında paylaşardın. Anam mənim! Könlümün möhtəşəm əsəri!

## *SENCE UNUTA BİLİRMİYİM*

Unutdum dedim ya sana ama yalan söyledim. Sence unuta bilirmiyim... Her gün bu gün unutdum dedim ya kendi-kendime ve sordum kalbimden, köksümde çırpınan yüreyimden, seni arayan gözlerimden unutdummu ecaba! Ama unutdum seni dediyim halde daha çok hatırlıyorum seni daha çok birtanem benim... Seni sevmiş olan o gözler seni unuturmu. . Sensiz heç br şeyin anlamı yok duyursanmı beni, anlamı yok... Kalp yaşarken hep acı çekiyor ne sevdası bitmiyor, ne acısı, nedeki efkarı. Unutmaq içinmi sevdik biri-birimzi canım... Bilmem ki! Belkide unuturum, ama benden neler götürücek, neleri alacaq bu unutmaq isteyi seni unutana kadar, neleri götürecek bilmem ki!!!

## *SƏN GƏLƏN YOLARA*

Hördüm hicranımı sən gedən yolların dönüşünə. Hördüm saçlarıma titrək həsrətini.Düyün etdim ürəyimə kabusa dönmüş bu sevgini.Gələcəksən de-

yə o yollardan gözlərimi belə cəkə bilmədim.Gələcəksən deyə baxışlarım heydən düşənə kimi o yollara qədər süründü, hey süründü.Sənə vida edə bilməyən əllərimin kölgəsi o yollara kimi uzandı, yandı ürəyimin başı yandı. Neynim başıbəlalı könlümə anlada bilmədim ki, gozləməsin, əbəs yerə gözləməsin... Hördüm hicranımı sən gələn yollara...

## *SEVMEMİSİN*

Bilyormusun, okadar yakınsın bana ama bir okadarda uzaksın... İçimde yüreyimin bir köşesinde sana dair hep güzel şeyler var beni bırakıp gitmiş olmana rağmen... Gelmeyeceksin gelmezsin şunu bilyorum, ama ben seni bekliyorum yazın baharın gelişi gibi.Yorgunum yollara bakmadan, yilları saymaqdan, anıları hatırlamakdan.Anlıyorum ki artıq benim degilsin. Kalbim bana o sana sırtını çevirmiş getmiş diyor dönüpde gelemez, dönemez diyor...

Burakıb getdiyindən bir kere de olsa hiç arayip sormadın da... Şunu böyle kabul etdim sen beni başdan hiç sevmemişin demekki, sevememişsin!

## *UNUTMAQ*

Unutmaq üçün ömrün yetərmi? Bir mücadilə et, gör, bacararsanmı, ona gücün yetərmi! Ürəyinə, gözlərinə sözün keçərmi! Bu hissin kövrək bir adı var – ayrılan yollar, ayrılan tale, ayrılan sevda…

## *BİLİRSƏNMİ!*

Bilirsənmi nə üçün məhz bu an çaşqınlığımda kirpiyimi qırpmadım, gözümü qapatmadım, bilirsənmi nə üçün? Bunu bilməyini istərdim.Gözlərimi qapatsaydım göz bulağında yığılmış sən adlı hicran damlası pərişan yanaqlarıma axacaqdır və sənə ürəksizim o zaman o damlada əlvida deyəcəkdim. Bax, onun üçün sən adlı bir damlanı geriyə, qəlb evinə qaytarmaq üçün qapatmadım gözlərimi, bağlamadım kipriklərimi… Bir kəs, son kəs bağışlayım deyə…

Bəlkə, sonda hər şey gözəl olacaq deyə, bəlkə…

## *MƏNƏ YUXULARINDAN DANIŞ*

Nə ayrılıqdan, qüssədən, nə səni incidən nisgildən, nə qəlbinin iniltisindən, nə yol çəkən gözündən, nə həyatın sənə verdiyi, sonradan səndən aldıqlarından, nədə bahar ömrünə vaxtsız gələn payızından danış, alış mənsizliyə, alış. Çiyinlərində illərin ağırlığını daşıyan boynubüküyüm, nə olar mənə ancaq yuxularından danış, yuxularından danış…

## *SƏNİ UNUTMAQ İSTƏMƏMİŞDİM*

Nə etdimsə, neynədimsə səni unuda bilmədim, əslində səni unutmaq da istəməmişdim və bunu bilməyini də istəmişdim.Ötənlərdə qalan xatirələrimlə yaşamışdım.Bax, bu halım məni daha çox incidirdi, daha çox ağrıdırdı. Amma sən bəlkədə bu halımdan xəbərsiz idin. Bəlkədə görürdün, bəlkədə görməməzlik edirdin. Bəlkədə başqa birisinin qəlbində yaşayırsan onu yaşadırsan… Bilmirəm ki, nə düşünüm, nə deyim! Rahatlığını, gümanını illərdə itirmiş ürəyimdə sənə kinmi bəsləyim, yoxsamı sualların girdabında çaşqınlıqla üz-üzə qalıb gələcəkmi deyim, gözləyimmi?… Bilmirəm ki, bilmirəm… Qasırğa qopmuş təlatümlü dənizdə yolunu itirmiş

yelkənsiz iki qayıq kimiyik. Yollarımız daha qovuşmaz, qovuşmaz əzizim.Əlvida deməyin zamanı gəldi artıq. Əlvida!

## *HEÇ BEZMƏDİM Kİ...*

Heç bezmədim ki, sənsizlikdən, sənsiz keçən hicranımdan, heç bezmədim ki, saatın əqrəblərinə baxmaqdan, günün qaralıb gecə olmasından, fəsillərin sənsiz dəyişməsindən, sənsiz açılan yeni günümdən, günəşin qürubundan heç bezmədimi ki. Sənsiz keçən günlərimi sənli keçən günlərimə boyadım, rənglədim dünyanın ən xoşbəxt sevəni oldum, ən xöşbəxt!...

## *ÖYRƏNƏCƏYƏM*

Kədərimi unutmadım deyə sevincimə heç qollarımı açmadım... Pərişan saçlarım kimi könlüm də pərışan. Nə deyim, nə danışım sənə. Səni necə məzəmmət edim! Bilmirəm... Heç ürəyin sızlamadan ayrılığın cəzasını taleimə, yükünü gözlərimə yük etdin. Bunada sinə gərəcəyəm. Daha üzülməyəcəyəm. Sənsiz yaşamağa öyrənəcəyəm, vallah öyrənəcəyəm.

## *ƏLLƏRİNİN İSTİSİ YOX*

Dəyər dəyərlə ölçülür onu anlamaq zorundayam nə qədər seni sevmiş olsam da belə... Təəssüf etmədim, inan. Sadəcə geriyə dönüb baxma daha səni bağrına basacaq o əllərin istisi yox, çağrışı yox...

Biganəliyinin soyuğunda dondu buza döndü o əllər... Təəssüf etmədim ki, sadəcə yolun açıq olsun dedim, yolun açıq olsun...

## *TƏNHA ANA...*

Bu gün bir Ana ilə görüşdüm.Bu gün ötüb keçən illərin yorduğu ağzı dualı bir qərib baxışlı, nisgil dolu çöhrəli bir anayla görüşdüm.Sanki qonaq kimi idi öz evində.Narahat idi, təşvişli idi.Gözləri dolsada sevinc var idi ovqatında çünki qonağı gəlmişdi. Özündən asılı olmayaq tez-tez Tanrım mənədə qonaq gələrmiş deyib, əllərini ürəyinin başına sıxaraq gözlərini gözlərimə dikmişdi. O gözlər çox söz deyirdi... Çaşqınlıq içində idi, gələn qonağını ürəyi istədiyi kimi qarşılaya bilmirdi. Ayaqları yer tutsaydı oturuduğu masadan özü ayağa qalxa bilsəydi gələn qonağını sevə-sevə qarşılayardı. Amma…! Ürəyini almaq üçün yaxınlaşdım əllərindən tutub ana dedim bu sözü gözləyirmiş kimi məni sinəsinə sıxıb gözlərimdən bərk-bərk öpdü, saçlarıma asta-asta sığal

çəkdi. Bu ana nəvazişi idi... Anamı xatırladım bu dəm, doluxsundum kaşki anam sağ olaydı, onu qollarımda saxlayardım heç yorulmazdım dedim ürəyimdə və sinəsinə sıxıldım bir anlık rahatlık tapdım. Başımı qaldırıb, yanaqlarını oxşamaq istədim bu an gözündən yaşının leysan kimi töküldüyünü gördüm... Analar biri-birinə bənzərmiş, sevgiləri, qayğılari kədərləri ilə...

Kovrək ürəkli gözü qapıda qalan, ağzı dualı bir ana ilə görüşdüm bu gün. Tənha ana..!

## *QƏMİNİ SİL*

Gözündən qəmini sil... göz yaşlarınla sil... rahatlan, ürəyini sıxan duyĝuların rahatlansın... Bu neçə illər gözünə çökən qəmini görürdüm amma səbəbini heç vəclə anlaya bilmirdim... sən də anlatmırdın!!! Ű̋rəyinin dörd divarının kölgəsinə həbs etmişdin kədərini könũl qübarını. Gözündən qəmini sil əzizim. Həyat insana cox zaman çəkə bilmədiyi yükü hədiyyə edir... Və bu yüklə də yaşamalıyıq, cünki ömrün verdiyi həyat payını ağrı- acısıyla yaşamaq qismətimiz imiş... Gözündən qəmini sil sən mübarizsən, atacağın hər bir addımı Tanrım işıqlı etsin.

Səni çox sevən əziz adamından.

## *YETİŞMƏYƏN MƏKTUBUM*

Çisginli, dumanlı, ayazlı bir qış axşamı sənə bir məktub yazdım. O məktubda sənə olan nə inciklíyimdən, nə küsgünlüyümdən, nədə pərişanlığıdan bir kəlmə belə yazmadım. O məktubla isinmişdi üşüyən gözlərimin bulağında nigaran olan, nigaran qalan bir damlam. Yazmışdım sənə, təşəkkür edirəm əzizim sevgin üçün, sevda dolu baxışların üçün, kövrək duyğularımçün. Təşəkkür edirəm dünyamı sevginlə sevdiyim üçün, mehriban təbəssümün, gözəl anlarım üçün, mənə gözəl baxmış gözlərinçün... Təşəkkür edirəm sevməyi mənə öyrətdiyin üçün... Məni sevdiyin üçün təşəkkür edirəm.Çisginli, dumanlı, ayazlı bir qış axşamı sənə bir məktub yazdım.Sənə yetişməyəcək o məktubda sənə olan nə incikliyimdən nə küsgünlüyümdən, nədə pərişanlığıdan bir kəlmə belə yazmadım. Sənə yetişməyəcək o məktubu sən heç bir zaman oxumayacaqsan və səni bağışlamış olduğumadan xəbərin belə olmayacaq əzizim olmayacaq!!!

## *İNDİ GÖRDÜM GÖZLƏRİNİN SÖZÜNÜ*

Bu gün yenədə xatirələrim cövlan etdi. Niyə, nədən belə oldu…! Niyə axı suallar məni rahat buraxmır… Hər zaman ürəyim keçmişlərə yükləndiyin-

də, könülsüz özümə təskinlik verdiyimdə, çiyinlərimi sən adlı bir həsrət yükü çökdürdüyündə gözlərim dolabın resmlərin olan səmtinə yönələrdi. Dikilərdi baxışlarım o səmtə və sonda yorulardı…Və beləcə üzüntümü göz yaşalarıma təslim edərək könülsüz ürəyimə təskinlik verərdim! Rəsmlərini uzaqdan –uzağa gözlərimin xatirəsindən keçirdərdim. Amma bu gün dolabın bir küncündə ötən illərin əmanəti olan qalaq-qalaq rəsmlərini götürdüm və dizlərimin üzərinə qoydum, fikrə daldım… Bir daha yerinə qaytarmayacağıma israrlı idim. Özü tərk etmişsə rəsmləri nədən mənə təskinlik versin axı! Əvəz etməyəcək, etməyəcək axı, deyə ürəyimdə çək-çevir etdim. Dizlərim üstündə olan göz yaşlarımdan islanmış rəsmlərini bir göz qırpımında qəzəblə param –parça etdim, sanki bu rəsmlər idi günahkar, bu rəsmlər idi yalançı… Açığımı, kinimi bu kağız parçalarından çıxırdım. Yenə də sakitləşə bilimirdim… Parçalanmış pəsmlərinin topası bir zaman başını qoyduğun dizlərimə bir dünya yük oldu.Bu yükün ağırlığında kiçildim, kiçildim sonda rəngsiz, adsız kölgənə çevrildim.Birdən, parçalanmış rəsmlərinin içərisində gözlərini gördüm.Yalan, məkr, xəyanət dolu gözlər. İndi gördüm gözlərinin sözünü, indi…

## *YAĞIŞIN SƏSİ*

Yağışın, damlalarının torpağa, ağaclara, yollara düşmədən yağmadan öncə səsini eşitmisənmi!... Yarpaqlara qədər gələn damla yolunun həyacanını hiss etmisənmi. Bax, o anı, o səsi bilirsən nəyə bənzədirəm ürəyin xiffətinin gözlərə qədər keçən yoluna.Dolub boşalan qəhərlənən ürək sonda çarəsiz qalaraq, öz təskinliyini gözlərə təslim edir. Bax o qəhərin gözlərə qədər keçdiyi yola bənzədirəm yağışın damlaların torpağa, ağaclara, yollara yağmadan, düşmədən oncəki səsini...

## *ÜRƏYİN BİLMƏDİ KİMİ İTİRDİ*

Burax əllərimi qoy çıxım gedim, xəzəldən tikilmiş qəm, payız malikanəmə... Burax əllərimi... Burax, qoy çıxım gedim... Soyuq əllərinə, o buz ovcuna isinə bilmirəm... Bilmirəm, nə edim!... Nə əvvəlki sən sənsən, nədəki küsmüş incik düşən ürəyi sınan o duyğular...

Amma, amma sənin ürəyin bilmədi kimi itirdi...

## *HƏSRƏTİN RƏNGİ*

Yağışlı dumanlı havanı kədər boğçasına bənzədirəm. Yağış yağdıqca, duman çökdükcə o kədər bir yandan azalır, bir yandan da dolur... Yağışa göylərdən gələn dərdlərin göz yaşıdır deyərdim mən... Çox zaman deyirlər ki, həsrətin rəngi olmur. Amma... Dumansa ağlaya bilməyən dolmuş gözlərdə həsrətin rəngidir...

## *SƏNƏ QAL DEYƏ BİLMƏRƏM Kİ...*

Başına dolandığım, gözləri könlümə dolan, bu qədər dərd çəkilərmi! Gedirsən, get !Sənə qal deyə bilmərəm ki. Ama son ricam gedirsən, xatirələrini də daşıya bilməyəcəyin yalnızlığına, yaşaya bilməyəcəyin mənsizliyinə özünlə apar. Sənin çox gərəyin olacaq...

## *KÖVRƏK KÖNLÜ ÜŞÜDÜ*

Kirpiklərimin nəmi, gözlərimin qarasına ağırlıq etdi.Yanaqlarımı döyəcləyən yağış damlalarını xatırladan, göz yaşlarım üşüdü, buza döndərdi odlu üzümü. Kövrək könlümün divarlarına yeni çatlar saldı... Könlümün kövrək könlü üşüdü... Özüm-

özümün yaralarımı bağladım bu sabah. Yatmış xatirələrin oyaq yaddaşı, kükrədi, dəniz kimi çağladı, tufan qopardıb tüğyan etdi bu sabah... Titrədi nəm dolu kirpiklərim vaxtsız gələn ayrılıqlara. Titrədi...

## *GÖZLƏRİM YOL ÇƏKDİ BU GÜN*

Gözlərim yol çəkdi bu gün, çox... Görəsən oradamı soyuqdur? Görəsən orada da yağan qar şaxtaya küləyə diqqət etmədən küçələrə sevə-sevə izini salır? Görəsən o da bu an bu dəqiqəmi məni xatırlayır, məni düşünür gözləri yol çəkir? Bu gün uzaqları yaxın etdim əzizim, mənim ömür gün yoldaşım. Şəkillərin ilə söhbət etdim. Hər şey yaxşıdır yetərki sən nigaran qalma, darıxma dedim. Hər zamanki kimi səndə sözümü kəsmədən dinləyirdin məni sakitcə. Birlikdə olduğumuzda da çox danışmazdın, susardın, astadan eləcə deyərdin-Sarı gəlinim, danış nələr olmuş?.Məndə bu sözə bəndmişəm kimi başlardım nəfəsimi dərmədən belə olanlardan, keçənlərdən birbəbir danışmağa sənə. Ah! Gözlərim yaman yol çəkdi bu gün... çox.Amma xəyallardan bir səs məni ayıltdı, məktubun gəldi.Yazmışdın bu Bahar, həsrətimizin sonu olacaq darıxma. Bu gün burda çox qar yağmış və qara baxdıqca gözlərim yaman yol çəkdi əzizim, tabım yox sənli həsrətə taleyin əmri belə imiş Ulu Tanrıma əmanət edi-

rəm səni yazmışdın...

## *NƏ TEZ DƏYİŞDİN …*

Nə tez dəyişdin, nə tez... O tanıdığım adam, saf uşaq ruhlu o adam artıq sən deyilsən. Nə tez dəyişdin?... Dəyişdin məni xəyanətinlə, məni də dəyişdirdin... Sən adlı duyğum, sən adlı həyacanım küsüb həmişəlik tərk etdi məni. Yerinisə, özüm adlı qürurum, özüm adlı iradəm tutdu, özüm adlı...

## *GÖZ YAŞLARIMI GÖRMƏDİN*

Ya axan göz yaşlarımı görmədin, ya fərqinə varmadın, ya görmək istəmədin, ya da... ya da yağışdan damlalar deyib gözlərimi deyil buludları seyir etdin... Qorxdun gözlərimin içinə baxmağa, çox qorxdun. Anlayıram səni. Çünki, dilin deyə bilmədiklərini ürəkdən süzülüb gələn sözləri gözlər deyər... Gözlər isə aldatmaz hər zaman doğrunu söylər...

## *KEŞKE*

Birden sesini duymaq isteyi geldi içimden. Arayım, aramayımmı... Tereddüd etdim... Rahatsız ederem belki onu diye düşündüm. Keşke! keşke de-

yib hemen fikrimi deyishdim, vaz kecdim. Bir zamanlar sen bana canımın içi gelecek olan rahatsizlik qoy senden gelsin demishtin bana! Ama indi nerelerdesin, kiminlesin bilmiyorum ki !

Artıq söylediyin o sözü tutarmısın tutmazmısın bilmem ki... Yasaq aşkı yaşadıq.Keşke yaşamasaydıq. Keşke biri-birimzi tanımasaydıq! Hiç kimsenin ama hiç kimsenin diline düşmesin keşkeler, iste sen beni hak etmemişsen demek ki... Kadardan kaçılmaz bilyorum! Bu keşkelerde kayb oldum gitdim!!!

## *UNUTDUM SƏNİ*

Həsrətindən həyatıma çökən ayrılığın kabusundan yüklənmiş könlum ağrıları ilə küsgünlüyümdə unutdum səni, gözümdən axan buza dönmüş ilk damlada unutdum səni, gözlərindən uzaq düşmüş gözlərimdə unutdum səni... unutdum səni hər gün məni həyatdan ümidsizliyə aparan pillə-pillə sökülmüş oyaq düşüncələrimin uyumuş xatirəsində, unutdum... Özünündə inandığın şirin yalanında doğrumla unutdum səni... Etinasızlığında qürurumla unutdum səni... Daha axtarma çox gec qaldın. Səni sevmiş param-parça olan könül əvəzinə təəssüf, giley dolu bir ürək, sevgi əvəzinə boran qış görəcəksən... Unutdum səni. Unutdum!!!

## HİÇMİ HAQQIM YOK?

Heçmi üreyin sızlamadı bir sevenin var diye, bir bekleyenin var diye.Başına deli sevda olub dolananın var diye. Hiçmi?... Kendimi yıllarında kayb etdim. Aylar yıllar bize sormadan keçib, getdi. Sonda anılar kaldı öksüz kimsesiz bizsiz. Bu cefayi haqq etdimmi ben!!! Susma konuş... Beni hep ayrılıkla korkutdun. Ama yine de ömrümü feda etdim ömrüne. Düşlerim oldugunu, kalbimin ateşı olduğunu biliyordun. Tükendim artıq… söyle, bunnu anlaya biliyormusun! Hiçmi haqqım yox senin kalbinde bir köşemin olmasına... Hiçmi haqqım yok!!!

## ÜRƏYİM QƏRİBSƏDİ

Ürəyim qəribsədi sənli səhərlərimçün... ovutmadı gözlərimdə gizlənmiş pilə-pilə sökülən xatirələrimdə məni... Bəlkə xatirə sandığım bu rəngsizlik xatirə deyil, sadəcə yaddaşa hopmuş gerçəklərin, olmuşların kölgəsi və ya silinməyə hər zaman hazır olan rəngsiz izlərdir...

Bilmirəm ki!!!

## *ƏLVİDA DEYƏN*

Əlvida deyən əllərin həsrət yüklü kirpiklərimin qonağı olan göz yaşlarımı silməsədə, sənə küsə bilmirəm... Sən gedən dolaşıq yollara əllərimin kolgəsi uzanıb sənı geriyə qaytara bilməsədə, sənə küsə bilmirəm... küsə bilmirəm!

## *UNUDARDIM ƏZİZİM*

Payız xəzəli kimi bükülmüş ürəyimi bir alsaydın şirin söhbətin sözünlə unudardım dünya boyda həsrətimi, bir təbəssüm etsəydin, bir gülümsəsəydin gözlərimdən qəmi silib sənə olan incik dolu umuküsümu unudardım. Unudardım... Bir mərhəm dolu baxışınla təsəllim olsaydın silərdim kipriklərimə sitəm edən göz yaşlarımı unudardım xiffətimi hər şeyə yenidən başlardım... Başlardım inan... Və unudardım olub keçənləri. Unudardım əzizim!!

## *GÖRƏSƏN YADINA DÜŞÜRƏMMİ HEÇ...*

Səssizlikdə və sənsizlikdə qərib bir sükunət aldı dörd tərəfimi.Qərib bir hal, qərib bir duyğu, qərib bir rəngsizlik. Ruhumun məni tərk etdiyini hiss etdim.

Əvvəl sən məni tərk etdin, sonra sənli rəngsiz duyğularım, daha sonra özü-özünü aldadan hisslər seli məni tərk etdi. Daha sonra, daha sonra çarəsiz-

likdən mən səni tərk etdim.İztirab yüklü boynuburuğ həsrətimi qərarsılığın bilməyən ünvanına buraxıb getdin.Heç geriyə baxmadan, heç könlünü dinləmədən sadəcə və sadəcə buraxdın getdin. O ünvana ki, o məkana ki, ora qırılmış könüllərin, incik duyğuların limanıdır. Və o məkanda o qırılmış könüllərin uzaqdan-uzağa yanıqlı gileyi duyulur- Görəsən yadına düşürəmmi heç !!!

## *BAHAR GƏLMƏDİ BAĞRI YARALI QARABAĞIMA...*

Seyr etdikcə ağacların necə tumurcuqlanıb canlanmasını, körpə budaqların pöhrələnməsini könlüm həzin bir lay-lay çalırdı. O lay-layı könlüm eşidirdi, yalnız könlüm. Gözlərim dolsa da yaşıllığa bürünmüş ətrafı həyəcanla seyr edirdim. “Elə bir həyəcanla ki, yuxusu qaçan, illərin yorduğu insanın yuxu həsrətli gözləri kimi...” Ağacların tumurcuqları məni çox kövrəldirdi, çox... Bu yazın da gəlişi qəlbimin kövrək telinə toxunmuşdu. Elə bu yaz buludları kimi də doldum, doluxsunub yağmura çevrildim. Elə bu düşüncələrimlə də danışırmış kimi özüm-özümə verdiyim suallarımı cavablandırmağa hövsələsiz oldum. Taleyinə qəriblik, ağrı-acı yazılan obama-elimə Bahar gəldimi ? Dağların enişində-yoxuşunda bənövşələr açdımı? Çaylar, bulaqlar

sevgi nəğməsi ilə axdımı, çağladımı, coşdumu? Küləklər dərələrin, düzlərin yanaqlarını oxşadımı? Yox, qərib eliмə-obama Bahar gəlməz, dağlarında boynu bükük bənövşə görünməz, bulaqları çağlamaz, küləkləri əsməz! Bahar gəlməz!... Bu astadan söylədiklərim əsən Bahar yelinə qarışaraq ətrafıma yayıldı... Gözlərimdə gizlənən yaş seli bir anlıq işıqlı dünyama qaranlıq çökdürdü və gözlərim çox-çox uzaqlara dikildi, çox uzaqlara...

## *KİMİNSƏ*

Həsrətin boynu büküyü, zərifi, kövrəyi kiminsə payına düşür. Başqa birisinin isə heç bu həsrətin nə olduğundan xəbəri belə yoxdur. Həsrətsiz yaşayanlar üçün yaşam bir rəng ilə boyanmış rənglərsiz yeknəsək həyat tablosu, birsəslə yazılmış və dinləmək mümkün olmayan musiqidir... Həsrəti çox sevənləri də Tanrı həsrəti sonsuz verir... Həsrətin boynubüküyü, zərifi, incəsi, kövrəyi kiminsə payına düşür!!!

## *YOLLARIMIZ AYRIDIR DEYƏRSƏNMİŞ.*

Yollarımız ayrıdır, deyirsənmiş... Ayrılığı elə o ayrı olan, o yollar saldı deyirsənmiş... O zaman səni unutmağı mənə öyrət! O zaman öyrət sənsizliyə... Öyrət, adını dilimdən, arzularımı ürəyimdən,

əksini gözlərimdən silməyi. Öyrət!... Öyrət mənə yanaqlarımı döyəcləyən peşiman göz yaşlarımı həsrət küləyindən tufan qoparan kirpiklərim ilə silməyi. Öyrət... Öyrət yalanlarını yalan kimi görüb, doğru olanlarıma haqq verməyimi... Öyrət...

## *GÖRƏSƏN...*

Çox zaman oldu ki, burulğana dönmüş düşüncələrimin xatirələr boğçasını tək sirdaşım olan ürəyim məndən gizlədir. İmdadı ilə əritmək, yandırmaq inlətmək istəmir könlümü də, məni də. Daha mənim də üzüm gəlmir ondan bir istək, bir arzu diləməyə. Anlayıram onu çox yordum, çox. Amma üzü dönük, tərs düşən taleyə dəyişmədi, yalnız buraxmadı məni ürəyim, tək qoymadı illərin dolaşıq cığırlarında, mənlə addımladı mənim cəfakeşim dərd yoldaşım ürəyim. Yandırdım, üzdüm, odunu-alovunu külə çevirdim.

İncitdim, hönkürtdüm, ağlatdım çox... Görəsən məni bağışlayarmı!.. Bağışlayarmı məni sirdaşım, həmdəmin olan, mənə sədaqətli ürəyim!

## *HƏR ŞEY KEÇİB GEDƏCƏK!*

Hər olanlar, hər şey keçib gedəcək sən darıxma, sən ağlama! Əlvidalara ürək yanğısı ilə əlvida deyən əllərin hər zaman vaxtsız qonağı göz yaşları

olan nigarançlıqla dolu gözlərinin yaşını silsin. Ağlama! Hər olanlar, her şey keçib gedəcək, sən ağlama!... ağlama

## *DÖNMƏK OLARMI!*

Keçən ömrə səpələnmiş xatirələri səbrlə ruhuma köklədikcə, yığdıqca dünya ağırlığında kədər çökür gözlərimə. Nədən, niyə sualları illərin sınağından yorğun düşmüş, andan-ana tərəddüdlə dolan və hər zaman nigarançılıq çəkmiş ürəyimi sınağa çəkir. O ötən illərə, xatirələrin yaddaşı olan o çağlara qayıtmaq, bir daha dönmək olarmı. Kaşki, dönmək olardı... Təəssüf və Kaşki sözünü kaşkı həyatımın xatirələr vərəqində silə biləydim... silə biləydim!!

## *TƏNHA ANALARIN HEKAYƏSİ*

Tənha anaları gördükcə bir ananın xiffət, övlad həsrəti, sevgi qayğı tənhalıqla dolu laylasını bir kağız parçasına deyil ürəyimə yazdım!!!!!! Bu ürəyimə yazdığım mürəkkəbi təəssüf dolu göz yaşlarım olan ilk hüzün dolu essem oldu.

## *ANA*

Yazıb sonunu bitirə bilmədiyim şerimin, hekayəmin adı Anadır, həyat hekayəsində düçüncələrimin inikası Anadır, yaza bilmədiyim kitabımın adı Anadır. Ana bu gün çox qəribsədim sənin üçün, çox... Səni harda gəzim, hayanda axtarım?... Sənə nə əlim çatmaz, nə ünüm yetməz, heç olmazsa yuxularıma gəl barı, yuxularıma. İllərin ağırlığını özündə daşıyan o qədər sözüm var ki, ürəyimdə sənə deyiləsi o qədər sözüm var ki... Ay ana, heç olmazsa yuxularıma gəl, yuxularıma!.

## *YOLLAR*

Yollar gözümü yordu, məndə yolları yordum. Daha baxmayacağam yorub heydən saldığım o cəfakeşim yollara, daha baxmayacağam... Nə gəldiyin bəlli, nə gəlməyəcəyin bəlli. Yollar gözümü yordu, səbrimsə dözümümü. Yollardan çəkdim gözümü. Daha yollara baxmayacağam...

## *İYİKİ TANIDIM*

İyiki tanıdım seni ve seni sevdim, iyiki dünyam dolu duyğularımı yaşatdın bana, iyi ki varsın. İyi ki Mövlam gözlərini, yüreyini bana emanet etmiş, ba-

na bagışlamış yoxsa ne yapardım yapa yalnız bu yalançı dünyada! Felekden mutlu anılarımı çaldım ve sana tapındım. Hayatımın sırr dolu gerçeyi ve gerçeyimin hayat dolu mocuzesi sen hikayemin başlandığı günün sebebisin iykiki varsın…

## *YUXULARIMIN QONAĞI SƏNSƏN*

Nə yaxşı ki, bu yuxular var. Nə yaxşı ki, o yuxularıma qonaq gəlirsən nə yaxşıki... Dərdləşirəm səninlə, həsrətdən danışıb hicranıma yol alıram, gileylənirəm səndən-sənə. Səninlə ağlayıram səninlə gülürəm. Sevilirəm... sevirəm. Dünyanın ən bəxtəvər sevdalısı oluram. Sirli boğçaya bənzər ürəyimin duyğularını açıram sənə. Nə yaxşıki yuxular var. Gerçəyimdə çox-çox uzaqdasan əzizim bunu artıq anlayıram, amma yuxularımdasan, mənimləsən. Nə yaxşı ki, yuxular var, nə yaxşıki o yuxularımın qonağı sənsən...

## *XƏBƏRİN VARMI*

İllərdir mən adlı bir sevgini unutmaq istəyib mənsizlikdə xiffət edənim xəbərin varmı halımdan, öldüm artıq sənsizlikdən yaşamıram daha, yetərki sən xoşbəxt ol deye mənə bir məktub göndərmişsən amma cavabını istəməmişsən... !Sənin xəbərin ol-

dumu sənsiz illər illəri əvəz etdikcə, keçmişimlə, umukusümlə, incikliyimlə, qınağ dolu gileyimlə səni başa- başa buraxdım... İndi nə yazsan da ancaq ürək kövrələr, amma sənə bir daha inanmaz, səni bağışlamaz... Xəbərin varmı halımdan deyə bir məktub yazmışsan... amma cavabını istəməmişsən...

## *XATİRƏLƏRİM SÖKÜLDÜ*

Gözümün bulağından göz yaşlarım bulandı, gözümə qaranlık çökdü, dünya birdən -birə boz rəngə büründü... Düşüncələrim o bozluğa qaranlığa süründü... Kirpiklərimdə ruzigarlar əsdi, gözlərimdən dərd töküldü. Rəngi, adı, sözü olmayan dərd... Xatirələrimin yaddaşından bir-bir xatirələrim söküldü, gözlərimdən dərd töküldü...

## *İSTANBUL*

İstanbulum əziz şəhərim mənim, xatirəmin, duyğularımın boynu bükük olan məkanı… Mavi gözlüm Mərmərəm mənim, sənin üçün çox darıxmışam, bilirsənmi… Sahillərin duyğularımın beşiyi oldu. Və bu beşik məzar oldu hisslərimə. Arzuların gözlərimdə kök salamadan, min -min həsrətlə doğuldu. Sənə qonaq gəldiyimdə uyuyan ağrılarım

oyandı, səninlə baş-başa qaldığımda canımdan can ayıldı…Gözlərimdən dərd töküldü… Sevda dolu ümidlərimi səndə itirdim və indi də onu səndə axtarıram… Ayrılıq belə olarmış nə adı, nə rəngi varmış. Adı olmayan sevdamın tək şahıdı İstanbulum doğma şəhərim… Səninlə dərdləşməyə gəldim, dərdləşməyə. Qəbul et əziz qonağını dünya boyda dərdi ilə… Heç bir kəsin bilmədiyi gizlinimi, xəlvətimi sənə soyləməyə gəlmişəm. Həmdəmim sənən, sən… Səndən savayı dərdsırdaşım olmadıki… Dərdim ürəyimdə, duyğularım sonu görünməyən sonsuzlğda pünhan. Naçar qalıb səninlə dərdləşməyə gəldim, dərdləşməyə. Qəbul et əziz qonağını dünya boyda dərdi ilə İstanbulum…

## *SEVGİLİM SƏN GÜNƏŞİM OLDUN*

Necədə biri-birimizi fərq etdik, necədə biri-birimizə gərəkli olduğumuzu duyduq, necədə ruhumuz bir-birini tapındı, necədə gözlərimiz ilə isindik, alışdıq biri-birimizə. Necədə... Sözlərimiz ürəyimizdə susurdu ancaq gözlərimiz idi biri-birimiz ilə danışan, gözlərimiz... Səni buludların arxasında gizlənən günəşə bənzətdim amma hərarətini duydum, səni duman bürüyən dağlara bənzətdim amma gözlərinin işığında o dağlara gedən cığırları gördüm, səni ürəyimə bənzətdim döyüntüsündə sən

mənim günəşim oldun kəlməsini duydum... Ümid və hicran dolu gözlərimin yaşı yanaqlarına, susmuş dodaqlarına toxundu silmədin... Və astaca söylədin – qəlbinin bulağının şəffaf damlaları mənim həyatımın yeni səhifəsinə sənli cığırlar açdı, bu bir gözəllik oldu xoş gəldin həyatıma əzizim... Xoş gəldin!

## *XATİRƏLƏRİM*

Gözümün bulağından göz yaşlarım bulandı, gözümə qaranlıq çökdü, dünya birdən-birə boz rəngə büründü... Düşüncələrim o bozluğa-qaranlığa süründü... Kirpiklərimdə ruzigarlar əsdi, gözlərimdən dərd töküldü. Rəngi, adı, sözü olmayan dərd... Xatirələrimin yaddaşından bir-bir xatirələrim söküldü, gözlərimdən dərd töküldü...

## *SƏNİ SEVMƏDİYİM ÜÇÜN BAĞIŞLA*

Neynim sənin üçün bahar günəşi, gül-çiçək ətiri ola bilmirəm. Neynim ki, odunla yanan bir ocağın alovu ola bilmirəm. Bilmirəm...

Bağışla ki, ürəyinin həyəcanlı döyüntüsünə qulaq asmaq üçün təmkinsizəm, təmkinsiz! Könlünün arzularına, hisslərinin, baxışlarının yanğısına harayına səs verə bilmirəm. Qayğılı çöhrəmə ünvanlanıb tuşlanan qara gözlərinə, söylədiyin şirin kəlmə-

lərinə, məhəbbətinə canımdan gələn istiliyimlə cavab verə bilmirəm, zira cavab verə bilmirəm... Niyə sənə yalan danışım!? Yalanların boz dumanlığında sənin ayaq səslərini eşitmək istəməzdim. Məgər yalanlarla dolu bir eşqin gerçəkliyi sənə gərəkmi? Yox, əsla yox. Bu nə sənə, nə mənə gərəkdir!

Düşünürəm sakitliyin sonsuzluğunda düşünürəm səni! Səni sevə bilməyəcəyimi anlayıram. Ülvi hisslərinə necə könülsüz ürək verim! Söylə...

Heç ürəksiz də sevmək olarmı! Bağışla, odlanan qəlbin üçün könlümü ocaq etmədim. Təsəllin olmadım! Ay taleyimə gecikən məhəbbəti ilə qədəm qoyan bakirə hissli saf duyğulu aşiqim...

Nigaran ürək pıçıltılarımı, könül çırpıntılarımı özümdən başqa kimsəyə söyləyə bilmirəm.Buna cəsarətim də çatmır. Mənim dolaşıq cığırlara bənzər sevdam, sevgimdən bixəbər olan başaqa birisinin həsrətinə ünvanlıdır! Başqa birisinin...

## *UNUDA BİLMƏYƏCƏKSƏN*

Dünəninə əlvida deyə bilməyəcəksən, duyğuların boşalıb, fikirlərin baş alıb gedəcək, yaddaşından məni silmək istəyəcəksən, ötüb keçənlərə bir dəfəlik sağ ol söyləməyə çalışacaqsan, gücün çatmayacaq. Sən məni unuda bilməyəcəksən!

Tənhalığınla vuruşub küsüb həyatında yaranmış

xəyal boşluğunu tamamlamaqçın doldurmaqçın bir anlıq da olsa mənimlə olmaq istəyəcəksən!

Mənli fikirlərin, mənli hisslərin sənə qənim kəsiləcək, ürəyin məni istəyəcək, özünlə bacara bilməyəcəksən! Gecələrin mürgü dolu iztirab, gündüzləri yuxulu olacaqsan, elə sanacaqsan ki, nəfəsinə nəfəsimin ətri dolur yavaş-yavaş. Məni düşünəcəksən, bu düşüncələr səni tənhalıqdan qurtarmayacaq. Özün özlüyündə hiss edəcəksən məni unuda bilməyəcəyini, duyacaqsan bu hissi... Qovrulacaqsan...

Hər ötən gözəldə gülən gözlərə baxacaqsan. Sənə tanış, sənə mərhəm baxış axtaracaqsan, donacaqsan, üşüyəcəksən, kiçiləcəksən özgə baxışlarıyla. Darıxacaqsan ehtiras dolu gözlərim üçün, sən məni unuda bilməyəcəksən.

Yorğun olduğun gecələrdə başını dizlərim üstə qoyub şirin röyalara dalmaq istəyəcəksən həmişə geniş sinənə sığınan titrək çiyinlərimin məlhəmliyi istiliyi üçün darıxacaqsan. Unutmaq istəyəcəksən, yaddaşından, hisslərindən məni silməyə çalışacaqsan, bacarmayacaqsan!

Hicrana dönən hissin həvəsini ürəyindən qoparıb atmaq istəyəcəksən, adımı qəlbindən silmək istəyəcəksən...

Yanaqlarında dodaqlarımın alovunu, istisini duyacaqsan bu halına görə özünü danlayacaqsan. Məni unutmaq üçün özünü də unutmaq istəyəcəksən,

sən bunu bacarmayacaqsan! Ona gücün çatmayacaq. Sən məni unuda bilməyəcəksən!

Səndən incik düşüb kövrələndə biri-birinin ardınca mirvari dənələri kimi leysana bənzər küsgün göz yaşlarımı əllərinin xəfif toxunuşu ilə silmək üçün, məni ovundurmaq üçün qəribsəyəcəksən.

Bir gecə düşəcəyəm yadına dünyan od tutub alışıb yanacaq xatirələr içərisində, fikirlərinin girdabında qovrulacaqsan...

Mənli duyğularını qəlbində boğub ürəyinin balaca küncündə dəfn edəcəksən, sənə dönməyəcəyimi anlasan da, gəlməyəcəyimi bilsən də hərdən mənim gəlişimi gözləyəcəksən. Səsim həzin musiqi kimi qulaqlarında əks-səda verəcək. Sənin üçün nağıla dönəcəyəm. Soraq, xəbər istəyəcəksən...

Sən məni unutmaq istəyəcəksən, amma onu edə bilməyəcəksən!!!

## *SƏN UNUT DEMİŞDİN*

Sən unut demişdin, mən də unutdum. Lakin ağır möhnət olan bu ayrılıq, danmıram, ağırdır, ağırdır mənə! Unut demişdin... Boğdum sinəmdəki eşqimin ahını, məni ağrıdan qəlbimin hıçqırıqlarla dolu harayını...

Ruhuma həyat verən duyğularım söndü - unutdum səni! Unutdum çılğın ürəyimin sönməz ehtira-

sı ilə, lal hıcqırıqlarımla, xatirələrimlə sirdaş olan acı göz yaşlarım ilə...

Mənə ürəyini açanda yaşarmışdı gözlərin. O günlər bəs nə oldu? Bəlkə yuxu idi, bəlkə də. Bəlkə də ilğım dolu əfsanə... Ömür baharıma xəzan gətirdin, nəcib arzularımı ruzgarlara qonaq etdin! Sən unut demişdin, mən də unutdum!

Xəyal edirəm, xəyalımda sənə gileylənirəm. Qəlbimin tellərini həyəcana gətirən istək adlı mizrab sənin də qəlbinin tellərini titrədəydi, həyəcana gətirəydi kaş!!!

"Meşədən çox-çox uzaqlarda uca səhralıqda tənhalığa sirdaş olan bir ağacın meşə həsrəti ilə, çəmən həsrəti ilə necə yandığı kimi, mənim də varlığımın sənə inanıb sevdalandığı üçün hey alışıb necə yanıdığını hiss edə biləydin!!!" Heyf...

Dindirmə məni könlüm, mənə təskinlik vermə dərdi özünə də sığışmayan bir fəryadam! Sakit dayan ahu zar etmə hicranm artıq məni yorub …Həsrətim boynu bükülü qalıb…

Bil, sən mənim üçün mürgülü xatirəyə döndün… Və bir sevda ağlayır içimdə için-için, yana-yana heç göz yaşlarını da silən olmadı… Nə deyim!!!

Qəlbin öz səhvinə çox yanacaq, səni də yandıracaq! O zaman məni həmişəlik itirdiyini anlayacaqsan! Deyirlər itki həmişə göynərtili olur, qoy olsun. Bu da bir tale, sən unut demişdin, mən də unutdum!!!

## GÖRÜŞÜNƏ SƏSLƏYİRSƏN, MƏN DƏ GÜLÜM, GƏLMİŞƏM

Ürəyim sinəmdə elə çırpınır ki, sanki qəfəsdə bir quş kimidir. Elə bir quş kimi ki, ənginlik, mavi səma axtarır uçmağa, hey qanad çalıb uçmağa. Mən də bir quşa dönüb o görüş yerimizə sən söylədiyin seçdiyin o sehrli möcüzəvi məkana tələsirəm... Tələsirəm, duyğularımızı bir-birimizə təslim etdiyimiz o görüş yerinə.

Yaşamaq üçün sevmək gərəkdir və bu sevgi iki qəlbin günəşidir. Bu elə bir sevən qəlbin atəşidir ki, onun istiliyindən bütün cahan qızınır, canlanır. Düşündüyüm bu fikirlərlə artıq anlarla məni xoşbəxt edən o görüş yerindəyəm. Gəlişini gözləyirəm. Özüm özümdə sənin xəyalınla dərdləşirəm, danışıram. Könül mülkümsən, açılan hər səhərimin dan yerisən, hicranımın sonusan, ömrümün səfasısan. Əsən həzin küləyimsən, duyğulu anlarıma, təsəllimsən hər şeyimsən, hər şeyim bunu bilirsənmi!

Vüsal dolu xəyallara dalıram könlünün həsrət dolu harayını eşidirəm – "Ürəyini mənə ver, o, mənim gərəyimdir, harayıma hay ver, səsin, ünün ülvi hisslərimin sirdaşıdır, sirdaşı"!

Görüşünə səsləyirsən, mən də gülüm gəlmişəm! Gələrəm gecələrin qaranlığında, qışın sazağında, leysanında, yağmurunda, boranında...! Yetər ki, sən səslə!

## *SƏNDƏN AYRI DÜŞƏN GÜNDƏN*

Sevdanın əzabından doymuram. Əksinə, gündəngünə qəlbimin atəşi, odu alovlanır, alovlandıqca da hiddətlənir, hey coşur. Onu duyuram ki, bir dəli istəkdir sənə qarşı olan sevgim, istəyim!

Xoşdur mənə atəşinə yanıb alovlanmaq, gözlərinin sehrinə düşüb ərimək, canımda istək adlı bulağa dönmək. Ardınca durulan bir çeşmə gözünə dönüb sənin qəlbinə axmaq və orda qərarlaşmaq istəyirəm! Sənsiz olan zaman ürəyimə qəriblik çökür. Ayaq səsinə, ləpirinə, izinə həsrət olan bir cığır kimi hiss edirəm özümü! Səndən ayrı düşən gündən!

Fikirlərim, düşüncələrim də qəribsəyib sənsiz!

Ürəyim ərköyünləşib, könül duyğularımsa, küsəyən olub, heç məni dinləmirlər sənin üçün darıxırlar, sənin üçün!

Həsrətin dilimdə sözlərimə çöküb sətirlənib ağ kağızlara düzülüblər, səndən ayrı düşən gündən ilhamım da, təbim də özümdən küsüb, onlar da sənsız qəribsəyiblər. Sənsiz əzizim, sevdam ömürlük yuxuya dalıb, duyğularım sənsiz sabahları gözləmədən oyanan deyil, onu bilirəm, gözəl bilirəm!

Sənsizləşmişəm yaman!

Səndən ötrü alovlu ürəyimin gücü ilə gözlərimdən yanaqlarıma doğru süzülən iki həsrət damlası da sənsizləşıb, əzizim!

Kökü üstə məğrur dayanan çinara bənzədirəm bu sevgimi. Yalçın, sərt qayaların ağırlığını duyuram sevgimin inadında...

Ümidi üzmək hünərdimi?! Onu etmək olarmı?!

Səndən ayrı düşən gündən qoşa sevgili görəndə utancaq, bir az da çılğın baxışlarla səni gəzirəm, ürəyimə dolursan, yadıma düşürsən... Kövrəlirəm, uşaq kimi dolumsunub sənin köksünə sığınmaq istəyirəm. Dolu buludu xatırladan intizar gözlərimin giley, incik yaşlarını axıtmaq - ağlamaq, doyunca ağlamaq, hey ağlamaq istəyirəm. Ta ki, sən ovudana qədər, könlümü alana kimi...

Səndən ayrı düşən gündən mənə hər zaman söylədiyin "Qara gözlərinin ecazkar baxışlarını hər kəsdən gizli saxla, onları mən ömürlük oğurlamışam, o qonur gözlərinə baxmağa heç kimsəyə izn vermə!Səni məndən ayırarlar!" kəlmən yaddaşıma hopub, hafizəmdə qalıb çiskin yağmurun şehə bənzər damlaları kimi.

Səndən uzaqlarda qərib fikirlərimin dərinliklərinə varıb, ötən günlərimə qayıtmışam. Fəsilləri qarışdırıb, günlərimi itirmişəm, o günlərdə səni axtarmışam!

Yoxluğunu çəkə bilmədim səndən ayrı düşən gündən! Elə ayrıldığımız o fəsildə o ayda o gündə o saatda o anda qalmışam…

Yavaş-yavaş yox oluram, özüm-özümə görünmürəm!

## *SƏN ELƏ BİR GÜNDƏ*

Həyat yormuşdu məni. Qaçmaq istəyirdim hər şeydən. Bu dünyadan qopub öz kiçicik dünyamda qalmaq istəyirdim. Amma ürəyimlə bacarmadım, qəlbinin harayı kövrəltdi məni. Harayını duyğularımın səsində axtardım!

O duyğularımı imtahan etdim, hisslərimi sınağa çəkdim. Ürəyimdəki əndişəli səsinə qulaq verdim, əzablarınənginliklərində dolaşan gözlərimlə könül evimi nəzərdən keçirtdim, yoxladım, axtardım hey axtardım... Sənin əksindən, nəvazişinin izindən başqa, bir də şıltaq sevda gördüm.

Dözülməyən dözümlük də harayıma gəlib səni əvəz edə bilməyəcək! Onu anlayıram.

Sən özün də heç bilmədin məni səsləməyin, sənə gərəkliyimi anlatmağın mənə nələri verdi. İstiliyin donmuş tükənmiş hisslərimə yaşantı, şövqlü gözlərinin mehriban baxışı titrək könlümə həyəcan dolu sərinlik gətirdi...

Sən elə bir gündə gərəyim oldun ki, ürəyimin payız çağlarında qış duyğulu fikirlər tüğyan edirdi, ümidlərim qırılıb, arzularım tükənmişdir, könül evim yıxılmışdır. Yanaqlarıma, saçlarıma sığal çəkən nəfsinin ətri, istiliyi məni özümə qaytardı, səni mənə bağışladı. Özünə çağrışın, səsləməyin azdığım qatı nifrət dumanlığından aydınlığa çıxartdı

məni. Güc verdi, doğulacaq arzular sehrli aləm müjdə etdi.

Sənin gözlərinin dərinliyində bərqərar olmaq, təsəlli dünyam sandığım geniş sinənə sığınmaq dan yeri qızartısına bənzər arzumun ilki - birinsici oldu.

Qəlb evimin gözləmədiyi sevgili qonağı, ömrüm ikinci baharını yaşayır, özü də səninlə! Şıltaq, dəlisov dalğalara bənzər məhəbbətinlə həyatıma bahar gətirmısən! Baharına qurban, sevgilim. Sən özündə bilmədən kövrək hissim, həyat həqiqətim oldun!

Bilsən səni nə qədər çox sevirəm. Hərdən düşünürəm ki, səni bu qədər sevdiyimi duysan bəlkədə qısqanarsan özünü…

Gözümün arzu istəyi səninlə sevindi, səninlə güldü. Dalğalar dənizə, qürub çağı günəşə buludlar səmaya yaraşıq verdiyi kimi sənin bahar nəfəsli məhəbbətin mənim ömrümə yaraşığdır...

## *MƏHƏBBƏTSİZ SƏADƏT YOXDUR*

Yuxusuz gecələrimin yeganə həmdəmi, şirin xəyalım, nəcib arzum mənim.

Bir sözüm vardı sənə deyiləsi, yalnız sənə deyiləsi. Necə deyim? Deməyə cəsarətim çatmır axı?!

Sevdiyim gözlərinə baxıb, qəlbimin harayını, çırpıntılarını gözlərimlə sənə söyləyəcəm. O, gözlərimlə ki, sənin əksini ömürlük özündə qoruyub

saxlayacaq, o, gözlərimlə ki, səni hər bir vaxt, hər yerdə arayacaq, axtaracaq, axtaracaq.

İnanmazdım, əzizim, taleyin mənə bəxş etdiyi möcüzəyə, təsadüfə, bəxşeyişə. Səni mənə bəxş etdiyi üçün təsadüfləri çox sevirəm, özü də lap çox. Taleyimin payız fəslinə bahar gətirdiyi üçün təsadüfə minnətdaram, çox minnətdaram. Payıza da minnətdaram, məni mənə qaytardı, səni mənə bağışladı.

Birdanəm, mənim gözlərinin şövqündə, sehrində sənə olan ürək çırpıntılarımı, həsrətli baxışlarımı, titrək duyğularımı gördüm, özümü tapdım, məni məndən alan odlu baxışlarının leysanında.

O, məna dolu gözlərinin dərinliyində olan sehrin hərarəti, sevdiyim, özümünkü bildiyim, məni mənə qaytaran, kədərimə son qoyan, mənasız yaşantılarıma məna bəxş edən, həyatı sevməyə sövq edən, o gözlərində mən özümü gördüm, özümü.

Közərən qəlbimi alovlandıran, sınıq yaralı ürəyimə məlhəm, sirlərlə dolu gözlərində mən nələri görmədim: ılıq mərhəmlik, sadəlik, istilik və bir də sədaqətli məhəbbət.

Əzizim, etdiyin şirin söhbətlərinin qoynunda uyuyub, onun xoş təsirini hiss etdikcə özümü dünyanın ən xoşbəxt insanı hiss edirəm. Ömrümün yaraşığı, ruhumun qidası, əzizim. Mən istərdim ürəyimizə çökən kədərimizi, ürəkdən gələn sevincimizi

birlikdə bölək, bikilikdə.

Canım sevgilim, mənə elə gəlir ki, yuxularımda gördüyüm, xəyallarımda canlandırdığım o insan sənsən. İlk baxışdan mənə elə gəldi ki, mən səni çoxdan, lap çoxdan tanıyıram, çoxdanın tanışısan. Tanış, xoş, şirin, doğmaca nəfəsinlə, könlümün nəşəsi, arzusu, istəyi gülür, ürəyim sevinir…

Varlığınla canımı yandıran, yaşadan bu sevdan illərlə xoş xəyallara, kövrək duyğulara dönmüş hisslərimi oyatdı. Məni sən olmağa səslədi.

Əzizim, canım sevgilim, sənin görüşünü hər an gözləyirəm. Və istəyirəm sənin mərhəm köksünə sığınıb illərlə çəkdiyim iztirablarımı unudam. Səninlə sənli günlərimi yaşayım, keçmişə boylanmayım, ancaq sənli günlərimi.

## *KAŞ SƏN OLAYDIN*

Sonu bilinməyən təmkinsiz, hövsələsiz, məni məndən qoparan, uzaqlaşdıran xəyallarıma, fikirlərimə təskinliyim sən olaydın. Dilimdə pıçıltıya dönən ürəyimin sözü, gizli kəlməsi, xoş giziltisi sən olaydın, ala gözlüm, kaş sən olaydın!

Tənhalığın girdabında həmdəmim olaydın. Həsrətindən qapanan bəbəklərimdən axıb, darıxıb yanaqlarımda donan, qalan göz yaşlarım sən olaydın kaş, sən, ala gözlüm!

Pərişan tellərimi tumarlayan, əllərimi isti ovucunda sığallayan, yaş kirpiklərim arasından süzülüb yanaqlarımı yandıran hicran damlalarını silən sən olaydın!

Məni mərhəm nəfəsilə vücudumu ətirləyənim kaş sən olaydın, sən!

Sənin ala gözlərinin tək mən olaydım istəklisi, sevən könlümlə qəlbinə hakim kaş mən olaydım. Nazla dolu məlahətli işvəmi tək sən çəkəydin, tək sən əhdinə vəfalı olub, ilqarına düz çıxaydın, ilhamını yalnız məndə alaydın, alovlanaydın, mənim üçün yaşayaydın kaş, tək mən üçün yaşayaydın.

Gecələr sızıldayan qəlbimin ağrısının məlhəmi, gündüzlərsə səni arayan gözlərimin işıq dolu nuru sən olaydın, sən!

Həsrətindən cadarlanan dodaqlarımın təşnəsi, döyünən ürəyimin istisi, alovu olaydın! Çatılan qaşlarımın altında üzgün görünən gözlərimin nəşəsi, sevinci olaydın!

Gizlin-gizlin yar sorağında olanda bəxtimə tuş gələnim, mehriban düşüncələrimin isti qucağında ovunmaq istərkən mənə vüsal dolu anlar bəxş edənim kaş sən olaydın, ala gözlüm!

Mənsiz darıxan, mənsizliyə tab gətirməyib çılğınlıqla məni sevib arzulayan tək sən olaydın, cismində, varlığında arzularla dolu xəyallarında yurd salan tək mən olaydım, ala gözlüm, tək mən olaydım...

# *YUXUSUZ GECƏLƏRİMİN YEGANƏ HƏMDƏMİ*

Nə sakitsən dəniz? Yoxsa sən də eşidirsən, yana-yana yandıran qəlbimin səssiz harayını? Gözlərimi bağlayan, qəlbimi qapayan, ağlımı çaşdıran bu məzmunsuz eşqimdən sən də halisən? Yoxsa sən də mənim bu yalqız, tənha həyatıma acıyırsan? Bəlkə qısqanırsan məni, dəlisov dalğalı sirdaşım dəniz elə düşünürsən səni sevmirəm? Səni də sevirəm, qəlbimi özüylə aparanı, onu da... İkinizi də sevirəm!

Ürəyimlə bacara bilmirəm. Həyatıma, sevgimə payız gətirən, eşqini özüm sandığım könül ehtizazımı sevirəm. Sevdikcə ona daha çox bağlanıram. O isə məndən uzaqlaşır, görünməz olur, sirli-sehrli aləm kimi... Ömrümə yaraşıq bildiyim, ruhumun işığı sandığım görən haradadır, kiminlədir, heç məni xatırlayırmı? Susursan, neyləyəsən, nə deyəsən!

Nə sakitsən, dəniz? Dalğalanan, dəniz! Sənin gözəlliyin dalğalanmaqdır. Səni təlatümsüz, həyəcansız görmək istəmirəm. Heç olmasa, sən mənim bu arzuma, istəyimə etinasız qalma. Yuxusuz gecələrimin yeganə həmdəmi, son ümidim, şirin xəyalım, nəcib arzum sandığım, o, saf hisslərimə, sevib-sevilmək eşqilə yanan ürəyimə payız gətirdi, payız... Ürəyimin payızı ardınca qışı gətirəcək və bu

qışdan sonra bir daha bahar gəlməyəcək… Gəlməyəcək!

Gözlərin yol çəkir, fikirlisən, sahilləri şıltaq ləpəli mavi gözlü dənizim. Dözümünə təəccüb edirəm. Mənsə narahatam, çox narahatam. Ürəyimin payızı üçün!

Sənə baxa-baxa fikirləşirəm, bütün sevən ürəklərin payızı heç zaman gəlməsin...

## *GÜLÜM, AYRILIĞA YAMAN TƏLƏSDİN*

Fikirliyəm, fikirlərin ağuşunda xəyallara dalıram. Xəyalım məni sənin yanına, sən nəfəs alıb yaşadığın mühitə aparır. Xəyalım ancaq orada özünə məkan tutur, lövbər salır, orada – qərib sahilin kənarında. Dənizdən gələn axşam mehi də məni xəyalımın caynaqlarından qopara bilmir. Bircə bu aylı gecədə nəzərimi, diqqətimi ulduzların arasında bədirlənmiş ay cəlb edir. Onun sahilə düşmüş əksi mənə sənin varlığını, indiyə qədər sənə açıqlaya bilmədiyim, özümə də sirli görünən hisslərimi və onlarla yaşadığımı anladır. Ay işığı mənə çox şeyləri xatırladır!

Darıxdım, başımı qaldırıb göyə üz tutdum. Ulduzlar arasında təzəgəlin kimi nazlanan ayı gördüm və bir də... bir də onun gözəl çöhrəsində gözümə əksin göründü. Sonra da ilk görüş yerimizdə əlləri-

mi əllərinə alıb gözlərimdən öpdüyün anı xatırladım!... Yanaqlarımı isti göz yaşları yaladı, yandırdı. Xəyallarımdan ayrıldım. Sahildə tək idim, qərib idim, qərib axşamların birində qərib-qərib dalğalanan dənizin köksündə səni mənə xatırladan ay işığını axtardım. Qara bulud ayın da gözəl çöhrəsini gizləmişdi məndən. Bəlkə o özü gizlənmişdi eşidərək ürəyimin yana-yana sızıldayan səssiz harayını...

Orada, elə həmin məkanda söylədiyin son sözün qulaqlarımda səsləndi: “Gülüm ayrılığa yaman tələsdin"...

Tələsdim, düzdür, etiraf edirəm tələsdim. Ürəyində istək adlı bir duyğunun olmadığını gözlərindən duyub, tələsdim... Tələsdim, ömrümüm nə vaxtsa gələcək baharı üçün.

Bu ayrılıq üçün sən, sən öz soyuqluğunla yaman tələsdin...

## *AYRILAMMARAM*

Səndən ayrılammaram. Sənsizliyə qatlanammaram, sənsizliyə dözə bilmərəm, sənsiz qala bilmərəm, bilirəm ki, dayana bilmərəm!

Yalvarıram, tərk etmə könül evimi, yalqız qoyma məni, tənha etmə sənli hisslərimi. Səndən ayrılammaram, canım, ayrılammaram.

Şirin röyamsan, arzuladığım şirin xəyallarımsan,

xoş duyğularımsan, varlığımda yaşayan özümsən, özüm! Vüsal dolu özüm!

Canımda dözümümsən, sən mənim özümsən özüm, özümsüz yaşayammaram, canım, səndən ayrı olammaram! Məni sənsizliyə vadar edib ayrılıq adlı sonu bilinməyən bir səfərin yolçuluğunu bəxşiş etsən də, bilə-bilə ki, bu ayrılıq sənin gərəyindir, sən ona təşnəsən! Yenə ayrılammaram, yenə ayrılammaram!

Canım, qərib etmə duyğularımı, izin vermə boynubükük bənövşə tək nakam həsrətli qala sevdamız. Ovundur, səslə sən məni, qoyma gözü yaşlı... Nigaran, titrək baxışala gözlərim qalıb yollarlndakı izlərdə... Mənə ünvanlanan həsrət dolu baxışlarından ayrılmaram!

Sonsuz harayıma tək, tək bircə baxışın kifayətimdir.

## *ƏLİNİN SIĞALINA MÖHTACAM, ANA!*

Ağlayıram içimdə, için-için yanıram. Gözümün peşman dolu nigaran damlaları, közə dönmüş ürəyimi yandırır. Uğuruma uğursuzluq düçar edənim məni yaman inlətdi. Yaman inlədim ana, qəriblikdə, yaman inlədim!

Dərdlərimin ağır yükünü, çiyinlərimdə tək özüm daşıyıram, tək özüm: sənsizlikdə ana, tənhalıqda!

Sonda arzularımın, ümidlərimin sonu olduğunu mənə anlatdı, məni sevən uğursuzum mənim. Gözləmədiklərim uğuruma çıxdı, olacaqlara susuram.

Dayaq ol mənə, gözümün nuru, işığı ana! Pərişan saçlarım əlinin sığalına möhtacdır ana, möhtac!

Ağlayan, ağlamaqdan doymayan, pərtliyini hər kəsdən, özümdən də, səndən də gizlədən narahat gözlərim sənin məlhəm baxışının mehrinə möhtacdır ana, möhtac!

Həyatdan küsgün olanda, hisslərimdə aldananda, sənin nəvazişinə möhtacam ana, tək sənin nəvazişinə möhtacam!

Təkliyimdən qəhərlənəndə, kövrələndə, tənhalığa çəkilib doyunca ağlamaq istəyəndə, fikirlərimdən yorğun düşəndə isti qucağına, doğma sinənə sığınmaq üçün sənə möhtacam ana, möhtac!

İki sevən ürək görəndə, bir körpə qığıltısına qulaq kəsiləndə, xatirələr çalarlarında halıma yananım, gərəyi olanım göz yaşlarına, oxuduğun həzin laylana möhtacam ana, möhtac!

## *BAĞIŞLA*

Ürəyimin çırpıntısını həyəcanla dinləndiyim bir aləmdə özümü hiss edirəm. Düşüncələrim məni uzaqlara, lap uzaqlara apardı. Əlçatmaz, ünyetməz sehrli məkanda bir mənəm, bir də mənim yaralı ov

kimi gözlərimdən axan yaşa bənzər yarımçıq qalmış sevgim. Əzizim, məni günahlandırma. Sənin xoşbəxtliyin üçün mən öz səadətimi qurban verdim.

Gözümün nuru, günəşim mənim, məni günahlandırma, etibarın yoxdur demə. Sevgimizə qurbanlıq mən oldum, mən, yalnız sənə görə.

Kövrək, incə qəlbini, büllur şüşəyə bənzər könlünü qırdığım üçün bağışla məni. Ümidini, mənimlə quracağın səadətini əlindən zorla qopardığım üçün bağışla məni.

Bağışla məni, görüşünə gələ bilmirəm, o görüşlərinə ki, mən o anlarda qayğısız, lap körpə uşaq kimi kövrək olurdum. Hey əzizlənmək, sevilmək istərdim. O görüşlərdəki, əllərimi sıxan isti mərhəm əllərin mənə xoş günlərdən müjdələr vəd edirdi. O müjdələrdə mənim ürəyimcə olan hədiyyələr var idi, özü də lap çox. O, hədiyyələrin ən qiymətlisi, ən əzizi sən idin, sənin mənə olan, hamıdan, hər kəsdən gizlətdiyin sevgin. Sevgini gizlətdiyin kimi, məni də hər bir kəsdən qoruyurdun.

Qısqanırdın məni özünə də, çünki bilirdin, hiss edirdin sən məni istədiyindən də çox, mən səni çox sevirdim, mən!

Düzünü desəm, mən də bu ayrılığın nə vaxtsa doğulacağından qorxurdum. Ürəyimizə daman başımıza gəldi, məni məndən çox sevən istəkli yarım.

Əzizim, yalnız xəyallarımda səninlə görüşürəm, ürəyimin kədərini, qəlbimin sevincini yalnız yuxularımda səninlə bölüşürəm. Bölüşürəm, səninlə yalqız qalmış hisslərimin harayını, qəlbimin səsini, ününü.

Bir xoş hiss kimi yalnız və yalnız sən mənim könlümə girmisən. Gözlərimi bağlayan, qəlbimi qapayan, ağlımı çaşdıran eşqin ayrılığın acısını, ağrısını mənə dadızdırdı. Bu ayrılıq hər ikimizə gərək və hər ikimizə lazım idi. Ölüm qədər ağır olan bu addımı atmağa sənin cəsarətin çatmadı. Onu mən etməli idim. Zəhər kimi acı olan ayrılığın, özü də ömürlük ayrılığın şərbətini mən özüm öz əlimlə sənə də, özümə də içirdim. Gilə-gilə, damla-damla!!!

Ayrılığı mən saldım, mən bais oldum bu iztirablara. Bu ayrılıq ağır olsa da, onun gəlişini hər ikimiz tezləşdirməli idik, hər ikimiz! Bu ayrılıq bütün vücudumu qəm yükü ilə dolu sən yüklü ürəyimi titrətdi!

## *HƏR SÖZÜN YALAN İMİŞ*

Görüşdük. Vədələşdiyimiz, sən özün sevib-seçdiyin salxım söyüdün altında. Söylədin: “Sənsizlik mənə əzab verir. Cahan günəşsiz, göz nursuz, insan ürəksiz yaşamadığı kimi, mən də sənsiz bir heçəm, ay mənim gözlərimi sevdası ilə bağlayan, qəlbimi

köksümdən qoparan mələyim”.

O görüş yerində aylı-ulduzlu axşamın sehrli işığı ilə sən də öz yalanlarınla sehrlədin məni. O gecə, mənim sevdalı ruhumu oxşayan, könlümü dilə gətirən sevgi dolu bir gecə idi. İnandım sənə. Nə biləydim yalandır. Deyirdin, ürəkdən gələn sevincimizi, ürəyə çökən kədərimizi bir yerdə böləcəyik, günlərimiz bu sevgimizin hərarətindən nəşəli olacaq, bizim bu sevdamızın baharına soyuq yellər əsə bilməz. Qasırğalar, fırtınalar bu ülvi məhəbbətimizin yaxınına belə gələ bilməz. İnandım ! Nə biləydim yalandır.

Görüşdük…Vədələşdiyimiz vaxt, salxım söyüdün kənarında, aylı-ulduzlu bir gecədə. Bu gecənin sakitliyini sən öz yalanlarınla təlatümə gətirdin. Bu gecə sən başqaydın, tam başqa fərqli… Nələr söyləyirdin, İlahi…! Mən nələr eşidirdim, nələr! “Sən mənim üçün bir könül oyuncağı idin”. İnanmadım, sənin söylədiyin bu həqiqətə inanmadım! Təəccübdən böyümüş gözlərimdə yaşım da donmuşdu, buza dönmüşüdü!

Şirin yalan bildiyim acı həqiqəti necə də çətin, necə də əzab imiş eşitmək, duymaq. İlahi…!

Mənə elə gəldi ki, sən yalnız bu gecədə mənə yalan söylədin. Sən demə... Hər sözün yalan imiş!

Yalanlarla dolu o görüş yerimizdə, salxım söyüdün budaqlarının solduğunu, bu gecə içərisində tə-

ravətini itirdiyini gördüm, gecənin sehrinin birdənbirə yoxa çıxdığını duydum, hiss etdim.

Ah! Qəlbimin ocağının közündən alov oldum, odumdan xəbərin olmadı. Xəbərin də olmayacaq, çünki ürəksiz insan bir qaya parçasıdır, bir daş parçasıdır.

## *YALVARIRAM QƏM SƏNƏ*

Günahım nədir ki, məni bu qədər yandırırsan, niyə külə döndərirsən, niyə?

Yalvarıram sənə, qəm, məndən əlini çək, məgər mənsiz qala bilmirsənmi?Nə vermisən mənə, məndən ala bilmirsən? Təvəqqe edirəm, qəm, məndən əlini çək!... Uzaq ol məndən, unut mənim varlığımı! Sevgimi əlimdən aldın, canımı canımdan ayırdın, qəlbimdə həmişəlik yuva qurdun.Gözümün yaşını selə, qəlbimin odunu külə döndərdin, arzularıma soyuq yellər əsdirdin, könlümü dondurub daş eylədin, bəsin deyilmi?!

Ümidlərimə göz dikdiyin, dərdlərini sinəmə çökdürdüyün bəs deyilmi?!Odumu-ocağımı söndürüb külüm ilə oynama. Yalvarıram qəm sənə, əlini çək məndən, çək! Qönçəyə bənzər arzularımı soldurdun! Qəlbimin ülvi hisslərini pərən saldın, dağıtdın!

Gündüzümü gecə kimi qaranlıq etdin, gecələrimi isə sək-səkəli. O gecələri ki, şirin röyalara həsrət-

dir, uyumağa zərif bir nəvazişə möhtacdır, möhtac. Düşüncələrimi də yalqız etdin.Bu yalqızlıqda təklənirəm.Təklikdə də səndən uzaqlaşmaq üçün hey qaçıram, ancaq yollar qurtarmır ki, qurtarmır. Sevdam ağlayır içimdə... Həsrətimin boynu bükülü qaldı, fəryadım sinəmi dəldi, dağladı, bəsin deyilmi?!Doymursan, məni incitməkdən, doymursan?! Əl çək məndən, qəm, əlini çək! Qoy əlçatmaz, vüsalsız xəyallarım məni ağuşuna alsın aparsın, bəlkə təskinliyimi onda taparam. Əl çək məndən, əlini çək, amandı! İradəm də verdiyin əzabların qarşısında acizləşir, zəifləyir.Gücüm qalmır bir söz belə söyləməyə. Acizəm sənin qarşında, aciz... Taqətim kəsilir yumuram gözlərimi sənin verdiyin ağrılarına-acılarına, o dəm yaşlı didələrimdə ümid işığı azalır, dünya gözlərimdə kiçilir, kiçilir.Sonda sən ilə qalıram.Uzaqlaşmaq istəyirəm səndən.Uzaqlara, lap uzaqlara getmək istəyirəm. Sən orada da varsan, orada da! Yalvarıram qəm, məndən əlini çək!

## *UNUDA BİLMİRƏM*

Günəşin qürub çağıdır... Darıxıram.Nə üçün belə darıxıram? Ürəyimlə bacarmıram! Daha onu anmayacağam, daha onun üçün qəlbimə qubar dolu bir hiss yükünün yaxınlaşmasına izin verməyəcəyəm!

Axıtdığım göz yaşlarıma heyfim gəlir axı! O

damlalar ürəyimin nurudur, közüdür, məlhəmidir, təskinliyidir.

Yox, ürəyimlə bacara bilmirəm, o məni dinləmir axı. Mən səni niyə unuda bilmirəm, ay mənim taleyimə çıxan uğursuzum?! Unuda bilmirəm məcnun sevdalı, yanğılı söhbətini, həyəcanla çırpınan, xoş hisslərimizi riqqətə gətirən, kövrək duyğularımıza qol-qanad verən özümüz üçün kiçik bir sehrli aləm sandığımız o görüş yerini, həzin pıçıltı ilə söylədiyin "gözlərini çox sevəcəyəm, çünki məni sənə sevdirən, o qara gözlərin olub" kəlməsini. Unuda bilmirəm!

İnanmışdım vəfana, sədaqətinə. Amma...

Kədər sevgimin qapısını lap tez tanıdı. Tanımışdı kədər mənim taleyimi, bütün dərdlərini, acı sarsıntılarını qəlbimə doldurmuşdu. Yaralı ov kimi çırpınan, büllur şüşə kimi qırılan qəlbimi yükləmişdi ələm ilə, hüzn ilə.

Etibar ummuşdum səníntək vəfasızdan. Vəfasız etibarsızlığın sındırdı məni, kövrək duyğularımı yerlə yeksan etdi.

Hərarəti azalmayan yanan qəlbim sanmışdım, nəvazişinlə çırpınan ürəyimin döyüntüsü bilmişdim səni. Duyğularımda fəsilləri vaxtsız dəyişdirənim mənim, sevgini özüm bilmişdim, özüm. Ən çıxılmaz anlarımda, tənhalığımda duyğularıma, fikirlərimə səni təsəlli bilib məhəbbətinin oduna isinmiş-

dim, ovunmuşdum. Qəlbim qəlbindən hərarət ummuşdu. Hətta gözlərimə ayna qarşısında sənin gözlərinlə, ehtiras dolu baxışlarla baxırdım. Təəssüf!...

Həyatım üçün bir anlıq gözqamaşdırıcı ilğım olduğunu kaş o vaxt duya biləydim!!!

Günəşin qürub çağıdır. Yalqızam görüş yerimizdə. Tənha bitən, vaxtsız açan boynubükük bənövşə kimi. Yoxluğunu hiss edirəm, artıq mənim yox, başqasının sevdalı duyğususan!

Sənsizlik bütün vücudumu əsdirir, sənsizlikdə əzilirəm! Ağlayıram…

Nigaran, qəmli gözlərimin həsrət dolu leysan yağışını saxlaya bilmirəm. Unuda bilmirəm! Səni unuda bilmirəm, özüm də bilmirəm nəyə görə, nə üçün!...

Bizim üçün qəribsəmiş o görüş yerinə son dəfə sönük ruhumla nəzər salıram və sonsuz fəryad tufanının ömürlük olduğunu anlayıram!

## *YOLLAR*

Cəfakeşim, həmdəmim yollar, sirdaşım yollar, məni mənə qaytaran, səni məndən ayıran, uzaqlaşdıran, sənsizləşdirən yollar.

Yollar, nə deyim sizə. Sizin köksünüzdə neçəneçə kədər aparan, qüssə gəzdirən könüllər, sevən, sevgisilə qəlbi çırpınan, döyünən insanlar keçib ge-

dir. Siz bunların şahidisiniz. Yollar, kimə ayrılıq, kimə vüsal, kimə hicran verirsiniz. Mənim isə tale payıma ayrılıq qismət etdiniz. Ayrılıq, sonu görünməyən, bilinməyən heçlik...

İnandım... Sevdim... Yanıldım... Ayrıldım!!!

Ayrılığa səbəb nifrətim oldu. Deyirlər, məhəbbətdən nifrətə bir addımlıq yoldur. Bu yolu keçmək nəsibim oldu… Məhəbbət ülvi hissdir, paklıkdır inkar etmək olmaz. Bunu sevən ürək yaxşı duyur, yaxşı bilir. Lakin, sevən qəlbinin səsinə qulaq asmayanlar sonda tənha, sevgisiz, duyğusuz qalırlar.

Bilirəm, sənsizlik mənə çətin olacaq. Suya təşnə torpaq kimi, nəvazişə həsrət könül kimi, işığa həsrət zülmətdə olan göz kimi, alovlanmağa can atan köz kimi... Təskinliyimi yalnız qubar dolu gözlərimdən axan göz yaşlarımda axtarıram. Nəsibim nə olacaq, bu mənə bəlli deyildir həmdəmim yollar cəfakeşım yollar. Məni səndən ayıran yollar, məni səndən alan yollar, sənsizləşdirən yollar.

## *AXTARMA MƏNİ DEDİN*

Elə soyuq, elə sakit, elə təmkinlə söylədin ki, “Axtarma məni, axtarma”. Söylədiyin bu sözü düzünü desəm həm səndən gözləyirdim, həm gözləmirdim də. Səni sevəndən tərəddüd içərisində idim. Aydınlıqla qaranlıq arasında idim. Nə sənə əlvida

deyə bilirdim, nə də səndən uzaqlaşmaq istəyirdim. Sənin baxışlarından da bir şey anlaya bilmirdim. Ancaq duymuşdum mənə qarşı etinasiz olmağını. Axı, sevən ürək həssas olar! Ürəyimə dammışdı elə ayrılacağımız günün yaxınlaşmasının payıza təsadüf etməsinin. Elə də oldu. Kədərimin tüğyan etdiyi, dərdlərimlə tənhalığımda baş-başa qaldığım bir payız səhərində qarşıma çıxdın. Çıxdın və acılarımı damla-damla unutdurmağa mənə dayaq oldun. Amma... Sonda...

Axı hardan biləydim, acılarımın dərd yükünə sən öz soyuqluğunla yeni bir ağrı verəcəksən. Bu ağrı mənə o acılarımdan da artıq dəhşət betər olacaqdır. Axı, hardan biləydim ki, sən beləymişsən, sən belə! “Axtarma məni, axtarma” dedin. İnandım da söylədiyin bu sözə, inanmadım da, üzümə çırpılan qara taleli, ağzı qıfıllı qapılara bənzədi sənin söylədiyin bu söz. İnamım inancıma zülmət gətirdi, rəzil etdi məni, itirdim, həmişəlik itirdim inamımı.

İlahi, bundan sonra inamsızmı yaşayacağam, inamsızmı?

“Axtarma məni, axtarma” dedin, elə söylədin ki, ruhun belə incimədi. Axı nə üçün də inciyəydi? Axı nəyə görə qəlbin qəhərlənsin, kirpiklərin nəmlənsin, gözlərin kövrəlsin, köksündə ürəyin qərar tutmasın?! Sən elə o sözü bax beləcə də söyləməli idin: “Axtarma məni, daha gərəyim deyilsən! Bir

gül idin artıq ətrindən doymuşam”. Söylədiyin o kəlmən ilə iradəmi sanki yuxudan ayıltdın, yuxudan. Qəhər içində oyandım. Qaranlıqda işıq yolu tapa bilməyən əlacsız bir insan kimi özümü tək gördüm, tək! Hisslərimə payız gəlişinlə gələcəkdinsə, məni niyə özünə tanıtdın, niyə? Odlu sevən ürək vermişdim sənə, heyf, sən onu sevə bilmədin, sənin gərəyin olmadı!

Heyf, bir qızılgül idim sənin üçün, pardaqlanıb çiçək açmışdım, ətrimi duya bilmədin. Qollu-budaqlı ağac idim, kölgəsində dincəlmədin, varlığı məhəbbətdən yoğrulan köks idim, sən ona sığınmadın.

## *MƏNƏ ELƏ GƏLİRDİ Kİ*

İçimdə o qədər qaranlıq var idi, mənə elə gəlirdi ki, onların hamısını işıqlandırmışdın sən.

Çırpınan ürəyimi sakitləşdirməyə çalışıram, özümdən asılı olmayaraq, təmkinimi, dözümümü cilovlaya bilmirəm. Sənə qədər düşünmüşdüm küsgün, dağlanan qəlbim bir daha sevdalanmaz, qəlb evimə gedən yollar bağlı qalar keçilməz olar. Taleyin hökmünə bir bax! Nəsib etdi yeni sevda, yeni görüş. Amma oxşar sevgi, oxşar sevda. Tanrım bütün qəmləri sən demə mənə əmanət edibmiş, bütün qəmləri. Üzüldüm. Dağı dağ üstündən çəkənim!

Ağrılar, acılar içərisində sarsılan ürəyim fəryad edir – bu haraydır sənə, haray, eşidirsənmi?! Məni sarsıdanım, günahkarım mənim.

Aydınlıq dünyamı qaraltmağa, xoş günümü əzaba döndərməyə sənin nə haqqın var, söylə?! Məni ağlatmağa, göynətməyə sənin nə haqqın var, bir din, danış, niyə susursan, niyə?! Axı nə danışasan! Mənim kimi sinəndə qəlbin də dara çəkilib kaman kimi dillənməyib ki! Könlün yaralı deyil ki, kədər vurğunun olmayıb ki, qəmlənəndə qəmin səni dünyadan ayrı salmayıb ki?!

Axı mənim çəkdiyim əzabların acısı sənin üçün yaddır yad! Taleyim məni çox sınağa çəkdi. Ağrılar içində yaşadığım yetər, bəsdir!

Bəsdir, son qoyuram bəxtimə düşən tale sınaqlarına, son qoyuram; iradəmi, gücümü toplayıram ki, səni unudam, sənin kimi etinasız, soyuq olam. Aman Allah, bacarmıram, qəhər məni boğur, nəfəsim daralır, heç olmasa, bir dəfə də olsa, sənin buz kimi səsini isti dodaqlarından soyuq söhbətini eşitmək ehtirası ilə alovlanıram, yanıram. Öyrəşmişəm sənə artıq, öyrəşmişəm! Bu nə əzabdır, Ya Rəbbi, bu nə əzab?...

Niyə çıxdın uğuruma, söylə?.Niyə, niyə məni məndən aldın?Mən artıq özüm deyiləm, sən olmuşam! Korun-korun sozalıram, baxışlarım yanır, təzəliköhnəli dərdlərim közərir içimdə, vüsalım yorğun düşür.

Qəlbimin köz tutmuş yarası qanayır. Axı neyləmişdim sənə mən? …

Dəniz kimi coşub çağladım, buludlar kimi dolub boşaldım. Puç oldu sənə olan gümanım. Həsrətindən artıq soyudum, sənə olan istəyimdən doydum, vallah, doydum. Bəs niyə səni qəlbimdən, düşüncələrimdən silə bilmirəm, niyə? Ya Rəbbim, ürək ağlaya-ağlaya göz gülərmiş, ürək ələmdə ikən gülən gözlərin acı damcıları qəlbə sızarmış, qəlbə axarmış; sən mənim sevincimə ortaq kədərim, hicranıma günah oldun.

Payızı çox sevirdim.Lap çox. Özün bilirsən nə üçün! Çünki səni mənə payız bağışlamışdı, payız.İndi də payızdır.Həm sevgimin payızı, həm ömrümün, taleyimin payızı, həm də dünyanın payızı; səni payızda da itirirəm.Payız səni məndən alıb.

Gözümün yaşına, qəlbimin ahına, uzanan əllərimə baxmadan səni zorla qoparır, ayırır məndən, ayırır…

Sənə tapındığı üçün gözlərimi danlayıram, ancaq gözlərimi!...

## *AĞLAMA*

Gecdir daha, çox gec.Bu yolun yolçuluğundan geriyə dönmək çox gec.Yaşaya bilmərəm səni sevmədən, anlayırsanmı? Hicranından bimar oldum, illər xəstəsinə döndüm, soldum, solğun çiçəklərə bənzədim.

Qurudu, çatladı dodaqlarım, yandı bağrım göynədi ürəyim.Soyuqluğun yandırdı məni, elə yandırdı ki, taqətim yox söz söyləməyə, addım belə atmağa.Həyatıma gəlişini heç gözləmədiyim kimi, bax beləcə gedişini də gözləmirdim. Heç ağlıma belə gətirməzdim donuq baxışını, soyuq gözlərini, buz dodaqlarını, hissiz ürəyinin unutqanlığını…

Gözlərimin hərarəti ilə ürəyimi də oğurladın, elə ilk görüşdə. Belə deyildin onda! Məni isti nəfəsinlə, məhəbbətinlə çox əzizlərdin. Belə deyildin onda!

İndi isə söyləyirsən, tənhalıq mənə hər şeydən əzizdir əzizim.Könlüm təkcə tənhalığa vurğundur, tənhalığa.

Sənin o sözün mənə ömrümün sona çatdığı anı xatırlatdı, qəlbimi, ürəyimi yandırdı...

Nə qədər çalışıram, nə qədər düşünürəm ki, sənə nifrət edim, səndən uzaqlaşım, olmur ki, olmur.Niyə belə bağlanmışam sənə, ay mənim taleyimə düşən bəxtsiz məhəbbətim.

Bir dəqiqəliyə unutmaq istəyirəm səni, susmuş telefona baxa-baxa xəyalım məni sənə aparır, istəmədən sənin telefon nömrəni yığıram. Telefondan təmkinsizliyə ağır zərbə olan donuq səsini eşidirəm: “Hə, sənmisən?”

Bizi Yaradana səndən şikayət edirəm.Səbr istəyirəm, güc istəyirəm, səni unutmaq üçün kömək istəyirəm.

Ey vəfasız, sevgini sədəqə istəmirəm, səndən istilik umuram, ancaq istilik. Ay ismi-pünhanım, belə soyuq olub yandırıb-yaxacaqdınsa, niyə özünü qəlbimə bu qədər yaxın buraxdın, yaxın? Axı, sonda tənha qoydun, arzularıma, istəklərimə, saf niyyətimə ölüm kabusu bəxş etdin.Nə biləydim, ürəyin yox imiş, məhəbbətin tükənibmiş?Bütün həyat sənin üçün adicə bir oyun imiş. Bu oyunda alçadılmış hisslərim oyunçu oldu, oyunçu...

Ağlama gözlərim, ağlama, sənə ürəyim daha çox yanır. Axı, sən hardan biləydin ki, görüb, sevibseçdiyin ala gözlün səni heç vaxt sevməyib... O, ürəksizmiş, ürəksiz!

## *İNANDIM*

Özüm-özümə hey düşünüb fikirləşirəm.Axı, niyə sevdim, niyə? Çəkdiyim iztirabıma, keçirdiyim həyəcanlarıma, cavabsız hisslərimə, yanıb köz olan qəlbimə heyfim gəlir, heyfim!

Neyləyəydim? O gözəlin məkrli qara gözləri mənə dünyanı unutdurdu. İnandım.Mələk simalı bu gözəl sehrləmişdi məni.Mənə elə gəlirdi ki, bütün dünya inamı, sədaqəti, ülviyyəti bu gözəldə tamamlanırdı.İnandım ona.Düz ilqarlı sanmışdım onu.Şirin yalanları məni mənə unutdurmuşdu.Bir onu, bir də onun məhəbbətinin varlığını hiss edirdim, daha

heç nə mənə maraqlı, cazibədar, cəlbedici deyil-di.Bir o mələk simalı ilqarsızın məhəbbəti məni özünə çəkirdi, hey çəkirdi. Hiss edirdim ki, mən onu öz varlığım qədər sevirəm. O, mənim özüm idim. Özüm.

Kaş o yağışlı yaz günündə onu görən gözlərim kor olaydı kor. İlahi, mən nələri görürdüm, nələri! O, başqasıyla!

Etibarına inanıb, sədaqətinə güvəndiyim, illərlə məhəbbətinin alovuna qızınıb, isindiyim o gözəl başqa birinin qolları arasında!

İlahi, necə ağır, dəhşətli bir mənzərə.Kor olay-dım, görməyəydim kaş.Kaş ki, o gün olmayaydı, onu görüb, sevən gözlərim kölgələnib, ümidlərim qəmə bələnməyəydi.Nə deyim, ilahi, gözlərimdə yaşım dondu, ürəyimdə sözüm.

Yalanlarla dolu bir eşq nəyimə gərək idi, nəyi-mə?

Cavabsız suallarımın girdabındayam...

Dözülməz ağrıdır sevdiyin səni yox, başqasını seçdi və sevdi. Onu sevdiyim ona inandığım üçün özümə, qərib qalan sevgimə yazığım gəlir... Yalan-çının məhəbbəti yalanları kimi saxtadır.Bu saxta-karlıq bir vaxt üzə çıxacaqdır. Üzə çıxıdı: bax, əsl təlatüm, fırtına onda baş verəcəkdir.

## *HİSSLƏRİMİZİ ZAMANIN SINAĞINA VERƏK*

Söylədin: Bir qısa zamanlı ayrılıq gərəkdir bizə. Söylədim: Axı, mən sənsiz neylərəm?

Söylədin: Bir-birimizə qarşı o ülvi hissləri zamanın sınağına verməliyik.

Söylədim: Mən sənsiz ölərəm, heç olaram axı... Necə ki, suya təşnə dodaqlar kimi, bir zərif ələ həsrət çiçək kimi.

Söylədin: Gözümün nuru, qəlbimin odu mənim. Necə ki, susuzluqdan çatlamış torpaq yağış, yağmur üçün həsrətlidir, mən də sənin həsrətlinəm. Duyğulu, sevdalı könlüm mənim, bir-birimizə ehtiyacımız, möhtaclığımız bu ayrılıqda özünü doğruldacaq. Bu ayrılıqda közdən alov da doğa bilər, bu ayrılıqda alovdan heç bir işartı da qalmaya bilər. Əzizim, canım mənim, mən istərdim məhəbbətimiz bu sınaqda ilğıma, yağışdan sonra səmanı ani olaraq bəzəyən göy qurşağına bənzəməsin, aldadıcı olmasın.

Bir təsəlli olaraq, məni sınaqlarda sınayanım mənim. Bu təsəlli söylədiyin "Bir qısa zamanlıq ayrılıq" kəlməsidir. Bu kəlmə məni bütün sınaqlardan keçirəcək. Mənə iradə, dözüm və bir də sənə qarşı dəyanətli məhəbbətin ülviliyini anladacaq. Səni varlığında məni sən olmağa səsləyəcək.

Varlığımı, nəhayət, bütün hisslərimi, qəlbinin hərarətinə təslim edəcəkdir, təslim. Bütün bunlara sənə qarşı olan sevgimin, şirin duyğulu hisslərimin hərarəti səbəb olacaq, ancaq hərarəti.

Bir qış axşamında söylədin o kəlmələri. Bu axşamsa bütün ətraf sakitkən dünyada bütün varlıqlqar yuxuya qərq olarkən, yalnız mən və mənim narahat qəlbim oyaq qalacaq. Eşitdiyim bir fikir keçdi narahat giley dolu ürəyimdən: məhəbbət güclüləri alovlandırar, zəifləri isə sarsıdar, sıradan çıxarar.

Bu qısa zamanlı sınaqda sənə elə alovlu məhəbbət diləyirəm ki, onun istisi bütün həyatımız boyu qızdırsın, isitsin, ömrün soyuq payız rüzgarından qorusun.

## *YALQIZ SEVGİMİ CEHİZ APARIRAM*

Kənarda durub bu üzgün halımı qəmli-qəmli süzürsən. Nə edəsən, əzizim? Əlindən nə gəlir axı? Necə eləyəsən ki, qəlbinə hakim kəsilmiş havan, suyun qədər sənə qiymətli aşiqini aparmasınlar, əlini əlindən qoparmasınlar, könlünü könlündən ayırmasınlar. Qoparırlar axı, aparırlar axı!

Vağzalı çalınır. Sevinirlər bütün qonaqlar. Tək ikimiz sevinmirik sən və mən. Bu şən dünyadan ayrı, tənha bitmiş qovaq kimi, səhrada azmış bələdçisiz səyyah kimi.

Mən də sənin kədərli, bulud kimi dolmuş sevdiyim gözlərinə baxıram, özü də həsrətlə. Nə edim, əzizim, əlimdən nə gəlir axı? Necə eləyim ki, sevən ürəklərimizin çırpıntılarının, vuran qəlbimizin duyğularının üzərinə qara məkrli buludlar enməsin.

Vağzalı çalınır. Mənə elə gəlir ki, vağzalı bizim dərdimizi anlayıb ağlayır. O da sızlayır bizim ayrılığımıza. Bizi bir o başa düşür, dərdimizə şərik olur. Vağzalı təskinlik verir, ümid verir, nicat verir ağlaya-ağlaya.

Vağzalı çalınır, əzizim, daha ayrılıq zamanı çatıb. Hisslər selinin qabağını kəsməyə gücün çatmadı, ağladın. Əzizim, sənin göz yaşını görmək istəməzdim. Gərək göz yaşlarını ürəyinə axıdaydın, sevgilim. O yaşları görmək mənə ölümdür, ölümdür axı!

Necə ağrı, necə dəhşət, sevdiyin bir addımlıqda olaola ona təskinlik verə bilməyəsən, yaxınlaşıb ürəyini yandıran, alovlandıran sözləri deməyəsən!? Ürəyinə çökən kədərini bölə bilməyəsən!

Vağzalı çalınır. Sevən qəlbimi, döyünən ürəyimi, bütün varlığımı sənə əmanət edirəm, yalnız sənə! Ancaq buna gücüm çatır, yalnız buna. Yeni quracağım ailəyə özümlə kədərimi, yalqız qalmış sevgimi cehiz aparıram.

Vağzalı çalınır. Onun da mənim kimi kədərdən, qəmdən çatılmış qaşları altından bulud kimi dol-

muş gözlərindən rəngsiz yağışlar yağır və göz yaşları asta-asta ürəyindən qəlbinə sızır.

## *NEYLƏYƏ BİLƏRİK AYRILIĞA*

Ayrılıq, gəlişin yamandır, titrədir, soldurur.

Gözlənilmədən gəlməkdə sənə çatan olarmı?

Əzizim, sənə baxan gözlərim dolur, boşalır, ürəyim yanır, yanaraq da fəryad edir, fəryad edərək qəlbimin gizli iniltilərini dilə gətirməyə cəsarət etmir.

Sən unut demişdin. Sən unut demişdin... Mən isə... Lakin bu ayrılıq ağırdır mənə, çox ağır. Sən unut demişdin... Gizlədim sinəmdəki sevdamın ahını, məni ağrıdan qəlbimin harayına hicranınla sirdaş etdiyinə görə, sənin üçün için-için yandığına görə.Sənin söylədiyin o acı kəlmən, könlümü şanə-şanə etdi.

Unut demişdin sən. Axı, sən hardan biləsən ki, bu sözün qəlbimi dələrək ora sağalmaz yaralar salıb, közköz olmuş bu yaralar da qövr edərək, döyünən ürəyimi dara çəkib, dara!

Hissimə can verən duyğularım söndü. Çılğın ürəyimin sönməz ehtirasıyla əyilimmi eşqimi bilə-bilə tapdayan sənin kimi duyğusuza, insafsıza?

Unut demişdin, könlüm dərdlərimin əsiri oldu, buludlar kimi qaralıb doldu, yağışa, leysana döndü.

Sevincsiz-arzusuz yaşadım, bir sıldırım qaya kimi qatı dumanlığın həmişəlik qonağı oldum. Heçdir mənə sənsiz dünya, sən unut demişdin...

Gəncliyimi alovlandırıb sonra heçə döndərdin, necə ki, bülbülün gülşəninə vaxtsız xəzan gələn kimi sən də mənim ömür baharıma xəzan gətirdin.

Sən unut deyirsən, mən isə...

Vüqarım qoymadı ki, söyləyim sənə "qayıt məhəbbətimizə, qayıt əzizim".

Mürgülü xatirəyə döndün artıq mənim üçün. İçimdə hönkür-hönkür bir sevda ağlayır səsiz fəryad ilə… Sən unut demişdin, mən isə...

Mənim başı bəlalı məhəbbətim həsrət dənizidir, orada dalğalar coşar, şahə qalxar, nəhayət, bir gün sakitləşər və lal hıçqırtılarla sakitcə fəryad edər...

## *SƏNİNLƏ SƏNSİZƏM*

Sahildəyik. Bir mənəm bir mavi gözlü Xəzərim.

– Yox, sənin xəyalın inciyər məndən. Üç idik. Bir mən, bir dəniz, bir də sənin xəyalın.

Dəniz də mənim kimi çox narahatdır. Mən onu hiss edirəm. Şıltaq ləpələr sahilə can atır, toxunur, ancaq qərar tuta bilmir.

Sahil özü də ləpələrin bu nazlı işvəsinə qayği ilə cavab verir, çünki sahil dənizi sevir, çox sevir, onsuz yaşaya bilməz.

Ey mənim məhəbbətimdən xəbərsiz gülüm, mən də səni sevirəm. "Sənə olan məhəbbətimi torpağın dərin qatlarından günəşə doğru can atan ecazkar, sehir dolu bir qüvvəyə bənzədirəm."

Sənə qarşı olan məhəbbətim mənə həyat, yaşamağa can, həvəs, ruh verir. Mənasız yaşanan illərimə, günlərimə məna, duyğularıma fikirlərimə sərinlik abhavası gətirir.Məhəbbətin möcüzəsinə heç inanmazdım.

Bütün kədərimi, iztirablarımı, səni qəlbimdə kəşf edəndən sonra unutmuşam.Unutmuşam damla-damla, gilə-gilə.Bunun üçün minnətdaram sənə, mənim şəfa bulağım, sevdalı könlüm.

Üzüm giləsi kimi qara gözlərini qaldır, bir ətrafına nəzər sal. Gör, sənin odunla yanan bir pərvanən var. O sənin məhəbbətini qazanmaq üçün bütün çətinliklərə, əzablara dözməyə hazırdır.

Sehr dolu qara gözlərin, xəfif gülüşün, incə görünüşün gözümün qabağında, şəlalə nəğməsinə bənzər səsin qulaqlarımdadır. Darıxıram sənin üçün, yaman darıxıram!

"İsti nəfəsinlə açılan bir qızılgül oldum, amma ətrimi heç duymadın. Baxışlarından könül evimdə bir ocaq qalandı, oduna qızınmadın..."

Gülüm, sən mənim üçün həyat, yaşam deməksən, ancaq bir onu bilirəm ki, səninlə sənsizəm! Sənsiz səninlə!!!

## *GÖZÜ YOLDA QALAN VAR*

Gözü yolda qalan var… Tələs həsrətinə, yoxsa xəyallara qovuşacaq… Bir gözü yolda qalan var, ümidi ol, tələs yoxsa gümanlarla külək olub göylərə sovrulacaq… Bir gözü yolda qalan var…

## *BİR SEVGİ*

Gözlərindən axan damlalarda sevdim yağışı, tutrəyən kipriklərində sevdim küləkləri, nur dolu simanın işığında sevdim günəşi, gözlərinin rəngində sevdim bütün dünyanın gözəlliklərini... Ancaq səndən mənə qalan qürbət dolu bir bu sevgi oldu... Duman almış cığırlarda ünvanına yetişməyən bir sevgi...

## *ELƏ MƏKTUBLAR VAR Kİ…*

Elə məktublar var oxunmadı,elə zənglər var açılamadı,elə həsrətlər var ki, ünvanına yetişmədi, elə arzular var ki, elə ürəkdəcə qalaraq qaranlığa qərq oldu... Şəhidimin... Şəhid əsgərimin xəyalları göylərə qovuşdu ruhu ilə Rəbbin sevgisinə,Rəbbin dərgahına. Məkanın cənnət olsun Şəhidim, cənnət olsun!!! Gün gələcək ruhun sevinəcək,şadlanacaq tez bir zamanda Şəhidim!!! Tez biz zamanda Azərbaycan Bayrağı Qarabağımızda və bütöv Azərbaycanı-

mızda dalğalanacaq. Sən rahat uyu Şəhidim rahat uyu!!!

## *SOYUQ ÜRƏKLƏR...*

Soyuq ürəklər – payızda çıxan günəşin soyuq hərarətinə bənzəyər. Heç zaman istilyi duyulmaz , hərarəti bilinməz sadəcə mövcud olar, görünər , sadəcə işığı gələr... Və o zaman gözlərə də , düşüncələrə də sükunət dolu qaranlıq çökər... Soyuq ürəklər yaşaya bilirsinizmi!... Soyuq ürəklər siz payızda çıxan günəşin soyuq hərarətinə bənzəyirsiniz deyin necə yaşayırsınız!!!

## *ÖZÜNLƏ APAR*

Getməyi gözə almısansa unutmağıda bacarmalısan, talehin oyunlarına susmağıda bacarmalısan ...Öyrənməlisən, əzbərləməlisən ayrılığın heç zaman cavabı olmayan düsturunu... Getməyi gözə almısansa ömrünün sonuna kimi sənə ağır yük olacaq daşıya bilməyəcəyin sənə aid xatirələrini də özünlə apar.. Getməyi gözə almısansa...

# *HƏR ŞEY KEÇİB GEDƏCƏK*

Hər olanlar, hər şey keçib gedəcək sən darıxma, sən ağlama! Əlvidalara vaxtsız ürək yanğısıs ilə əlvida deyən əllərin, hər zaman vaxtsız qonağı göz yaşları olan nigarançılıqla dolu gözlərinin yaşısını silsin. Ağlama! Hər şey keçib gedəcək...ağlama!

* * *

– Talehimdən ömür bağıma yağmur yağdığı zaman , özüm öz içimdə gizləndiyim an yandırdı ürəyimi həsrət dolu nigaranlıqlar. Bu nigaranlıqlar göz yaşına dönüb yanaqlarımda həsrət sözünü yazdı və bu yazı heç pozulmadı...

* * *

– Bir sevgi can verdi göz yaşlarında. Bir sevgi unuduldu səhv düşmüş ünvanında.Bir sevgi bir sevda üşüdü yalanlar ümmanında. Bir sevgi bitdi heç oldu doğması sandığı yad baxışlarında...bir sevgi

* * *

– Qəhər elə boğurki adamı... sözün ürəyini, gözlərinin yaşı əllərini yandırır...amma o zaman əllərini ürəyinin başına qoyursan Torpaq adlı həsrətini yandərərsan ürəyinin içində

* * *

– Bütün yollar ürəyimdən keçib gedər, bulaqlar-

sa gözlərimdən. Duyğularım... onlar ruhumun ürəyindən!

* * *

– Qocaldım keçdikcə fəsillər illər, bir tək cavan qalan dərdlərim oldu

* * *

– Xatirələrimə minnətdaram səni mənə qaytardı, bağışladım nə yaxşıkı bağışladım...Çünki ürəyimi ruhuma geri qaytardım ezizim...

* * *

– Xatirələrim pillə-pillə söküldü, yerində üşüyən ürəyim qaldı.

* * *

– Susmağı oyrəndim çox danışanlardan... Həqiqətdə çox bilənlərin az danışdığını sakitcə səssizcə izlədim və şahidi oldum. Özüm olmağı seçdim hər zaman, başqalarının xarakter və davranışını təqlid etmədən ...Dəyər anlamayan insanlara dəyər verməklə ruhuma nə qədər zərbə vura biləcəyimi anladım və bir daha özüm olmağa tələsdim...

* * *

– Yağmur islatdı kipriklərimi göz yaşlarıma bələndi, yellər üşütdü küləklər titrətdi xəyallarda dolaşan könlümü həlbət lal suallar bir gün dillənəcək həlbət...

* * *

– Nəyazsamda qəlbimə yatmır... Elə bil qəlbim mənə yaddan da yad olub biganədir...Nə sözümü dinləyir, nə dünyama gəlir, nə duyğularıma can verir. Sadəcə mənlə sakit-sakit addımlayır... Xısın-xısın bir onu xatırladır mənə, nə yazasanda ürəyimə yatmır...

* * *

– Duyğularımın gözü yaşlı ...Ürəyimdən ağlamaq keçir...

* * *

Sənin gözlərini oxuyuram... Duygularıma qış gəldi, qar yağdı, buza bələndim... Bir hekayənin başlamadan sonu; açılmamış səhəri oldum.

* * *

Həsrətlə bərabər yola çıxdıq.

* * *

Çəhrayı rəngli arzular talehin yelkənində küləklərin ümüdünə sığınan zaman, ömrün ağlı qaralı səhifəsi çox-çox uzaqlarda qalır...

* * *

Səni dünənimlə baş -başa qoydum, bu günümə gəlməyin bir dərd olardı...

* * *

Ürəyim yaman üşüyür... İsti küləklər əssədə demə ömürlük xəzanmış...

* * *

Səndən əziz səndən doğma varmı ki bu dünyada, yaxın gəl! Uzaq durma yad kimi, gözlərinə həsrətin rəsmini çəkim, duyğularına umub küsdüyümdən danışım... Səndən əziz varmıki bu dünyada...

* * *

Ana ürəyini, əllərini öpürəm... Dualarında, göz yaşlarında isinirəm... doğma səsində, sözlərində sakitləsirəm, üzünün nurunda özümü, yaşımı unuduram, uşaqlasıram, ana gözlərin ilə dua oxuyan baxışlarını öpürəm... Ana !!!

* * *

Keşkə, keşkə gözlərimdən həsrətini, xatirələrini silə biləydim. Biganəlik acısından qovrulan əllərim taqətdən elə düşmüş ki, mürgülü xatirəyə dönmüş o həsrəti silməyə belə güçüm yox...

* * *

Saçlarına sığal çəkən əllər ayrılıq göz yaşları ilə dolmuş gözlərini silməyəcəksə o əllərin kölgəsinə belə inanma.Bu sevgidən çox isti səhrada ilğım dolu mirajı xatırladır.

* * *

Acıdan dərddən yazmaq çok çətin olur çünki dünya boyda dərdinlə baş-başa qalırsan.

* * *

Diləklərimin, duyğularımın bitdiyi yerdə, bitdiyi anda gəldin... Silinməyəcək sətırlərlə səni qəlbimə, gözlərimə yazdım. Gözlərimdən uzağa getmə, nə

olur... Mənə gəl deyənim sən ol, sən ol ay sevgilim!

* * *

Bu səhər bir ətir duydum, bu səhər bir həsrət yordu məni, bu səhər gözlərimi yollar yordu, zaman yordu. O ətir dünyanın ən gözəl ətri anamın saçlarının, əllərinin, nəfəsinin ətri... O həsrətsə... .

* * *

Xoşbəxtliyimi oğurladın, söylə özün xoşbəxtsənmi?...

* * *

Səni unutmaq üçün sevmədim ki əzizim, səni baş tacım olduğunçün sevdim, Ərköyün sevgini, şıltaq hisslərini zamanın sınağından çökmüş çiyinlərimdə daşıdım və sona qədər daşımağa gücüm də yetərdi... amma səni ürəyimdən gözlərimə gedən yollarımda itirdim.

* * *

Anamın üzü heç zaman gülmürdü qəlbini heçnə ilə almaq olmurdu. Hüzn vardı çöhrəsində. Yazıb bizdən gizlətdiyi bayatılarda bir ana adlı həsrət yanğısı bir xiffət var idi. Demə anamda anasını arzulayırmış, necəki mən onu arzulayan kimi. Könlüm anamı istədi.

* * *

Məni unutduğuna məni inandır, daha sonra, sonra məni unutduğuna əmin olduğuna özünü inandır... Daha sonra, sonra tale deyib hərəmiz öz yoluna!!! Bilirsən, sevgilər, sevdalar insanlara acı çəkməyi, üzülməyi öyrədir, bu həqiqətdir... Bu həqiqəti mənim olan sən və sənin olan mən sevə-sevə yaşadıq!!!

* * *

Niyə, niyə... Yenə də dolaşıq kələfə dönmüş duyğularım qanad çalır... Ünvansız adsız bir məkana...

* * *

Bir cümlə, tək bir cümlə gözlərimin önündən bir kabus kimi çəkilib getmir. Hey dolaşır gözlərimə dolur. Bilmirəm bu yazı peşimançılığmın geriyə dönmək cəhdi yoxsa boynu bükük həsrətin rəngidir? "Əslində səni unutmaq istəməmişdim... İstəməmişdım"

* * *

Özümü, duyğularımı sənə gətirdim...

* * *

Gözümün bulağından göz yaşlarım bulandı, gözümə qaranlik çökdü, dünya birdən-birə rəngsiz oldu. Kirpiklərimdə ruzigarlar əsdi, gözlərimdən dərd töküldü…Rəngi, adı, sözü olmayan dərd…

* * *

Ürəyim sevindi bu səhər... Gözlərim sevindi bu səhər. Günəşin şəfəqləri güldü gözlərimdə bu səhər. Gözlərim güldü bu səhər. Gözlərim...

* * *

Səni görməmək üçün yorğun baxışlarla dolan gözlərimi bağlaya bilərəm həsrətim, amma ürəyimin duyğularla dolu balaca bir dünyasının qapısını necə bağlayım?.

* * *

Duyğularımda, ürəyimin bir köşəsində axtarma özünü gözümdən axan yaşa qarışdın və getdin. Qəlbimdəki baharıma qış gəldi əfsus… İllərimi geri qaytara bilməzsənki! Ürəyimə borclusan bunu bil ona ümid vermişdin, gözlərimə yük olan bir ümid…Əfsus!

* * *

Gözlərim səni gedəcəyin mən olmayan o məkana kimi ötürdü, bu gedişin məndən nələri götürdü və nələri bitirdi... Səndə duyan o ürək yox ki, ürəyin bir ürəyi itirdi. Könül evimdən könlümə gedən körpüləri bir payız tufanı kimi dağıtdın, sökdün və bitdin!

* * *

Elə bilirdim sən başqasan tam başqa.Sən heç kimə, heç kəsə bənzəməzsən Elə sanmışdım ki, sən işıq, nur dolu dünyamsan.Elə sanmışdım ki, sən hər şeyimsən.hər şeyim... Amma sənin dünyanın sakini ola bilmədim, mən sənin heç nəyinəmmiş, heçnəyin...

* * *

Bir sevgi can verdi göz yaşlarında. Bir sevgi unuduldu səhv düşmüş ünvanında.Bir sevgi əridi əridi, bitdi heç oldu doğması sandığı yad baxışlarında. Bir sevgi...

* * *

Səni sətir-sətir həyatımın hekayəsinə yazdım. Əlimdə olsaydı gücüm yetsəydi səni qismətimə, taleyimə yazardım. Amma...

* * *

Bilirsənmi sənin gülümsəməni qara buludların arxasından çıxmağa mücadilə edən günəşin şəfəqlərinə bənzətdim.

* * *

İlahi, elə bil həsrət, elə bir pərişanlıq, elə bil ağırlıq dolub ki, gözlərimə könlüm heç açılmır...

* * *

Qəhər elə boğur ki, adamı... Sözün ürəyini, gözlərinin yaşı əllərini yandırır... Amma o zaman əllərini ürəyinin başına qoyursan Torpaq adlı həsrətini yandırırsan ürəyinin içində

* * *

Verdiyin çiçəklər solmadan könlünün mən adlı baharı nə tez ötüşdü, nə tez soldu?...

* * *

İllər aldığını geri verməz ki... Taleyi günahlandırmayaq, ürəyimiz bir, yollarımız ayrıdır...

* * *

Qürub çağında pərən-pərən olmuş kimsəsiz qalmış bir sevgi, bir qərib sevda səssiz harayı ilə göz yaşlarında can verir.

* * *

Yorğun baxışlarla dolan gözlərimi bağlaya bilərəm həsrətim səni görməmək üçün, amma ürəyimin duyğularla dolu balaca bir dünyasının qapısını necə bağlayım....

* * *

Bu sabah aynada illərin yorğunluğunu işığında daşıyan gözlərimi saatlarca seyr etdim. Mənə elə gəldi ki, bütün dünyanın ayrılıqları gözlərimdə qovuşur... Və sözlərim də bütün ayrılıqların ünvanıdı, məkanıdır.... Ayrılıqlar!!!

* * *

Gözlərimə baxma! Baxışların məni ağlada bilər. Kövrək duyğularım bir kiçik toxunuşa, bir sözə, bir himə bənddir...

* * *

Həyat mənim üzümə gülməsədə, mən ona gülümsədim.

* * *

Yollar məni yordu, duyğularımsa dözümümü.

* * *

Sən uzaqlarda deyil görən gözümdəsən, səni kövrək duyğularımla, səni arzulayan anlarımla qəlbimə yazdım. Sənsiz bu dünyanı neynirəmki mən...

* * *

Dünya boyda dünya qədər ürəyin olsaydı…

* * *

Düşüncələrə dalıb göy üzünü seyr edirkən özün özünə səslənirsən. Görəsən buludların son dayanacağı varmı. Cavabını söyləməkdə çətinlik çəkirsən. Bəs xəyallar necə… Xəyallarsa nə tükənir nə də onun son dayanacağı var…

* * *

Ürəyim qəribsədi sənli səhərlərimçün ovutmadı gözlərimdə gizlənmiş pilə-pilə sökülən xatirələrimdə məni… Bəlkə xatirə sandığım bu rəngsizlik xatirə deyil, sadəcə yaddaşa hopmuş gerçəklərin olmuşların kölgəsi və ya silinməyə hər zaman hazır olan rəngsiz izlərdir. Bilmirəm ki…

* * *

Həyat məni ayrılq adlı kabusla qorxutdun amma illərin ağır möhnətindən güclü olan iradəmin o kabusdan daha güclü olduğunu bilməmişdin...

* * *

Əgər könlünü isidən xatirələrin yoxdursa, üşüyəcəksən!!!

* * *

Hərdən elə olur ki, xatirələrim də gözümdən düşür...

* * *

Baxışlarım sən gələn yollara süründü, hardasan yalnızlık sənsizlik məni sükunətə çevirdi!!!

* * *

Bir gün küləklərə qoşulub gedəcəyəm

* * *

Bir tərəfimdə soyuq xatirələrim, bir tərəfimdə anlamsız həyat şərtləri və yeknəsəklik... Haqqa gedən yolda dolanbaclarda çaşıb qalmışam... Niyə, nə üçün sualı da özü də də suallarla cavablanır...

* * *

Yağmur islatdı kirpiklərimi göz yaşlarıma bələndi, yellər üşütdü küləklər titrətdi xəyallarda dolaşan könlümü həlbət lal suallar bir gün dillənəcək həlbət...

* * *

Nə yazsamda qəlbimə yatmır... Elə bil qəlbim mənə yaddan da yad olub biganədir... Nə sözümü dinləyir, nə dünyama gəlir, nə duyğularıma can verir. Sadəcə mənlə sakit-sakit addımlayır... Xısın-xısın bir onu xatırladır mənə, nə yazsanda ürəyimə yatmır...

* * *

Qocaldım keçdikcə fəsillər, illər, bir tək cavan qalan dərdlərim oldu...

* * *

Dünya! Elə düşdün gözümdən mənim, özündə gözünə bir yük olmusan...

* * *

Ayrılığın gözü yaşlı... Bu yaş taleh yazısını yazdı. Bəs, ümüd? ... Ümüd sadəcə təskinlikdir...

* * *

Keçmişlə bağlı duyğuları gələcəyə daşımazlar deyirlər... Axı, onlar bugünümüzün yol yoldaşıdırlar... Hər şeyi yenidən, yeni səhifədən başlamaq çoxda asan deyil... Ona bir ömür belə kifayyət etməz... Elə hər şeyi özyerindəcə olduğu kimi qoyub getməlisən...!

* * *

Yovuşdum uşaqlığını yaşamayıb böyüyən kainat boyda dərdlərimə… Yovuşdum… Nə ayrılıqların ünavanı var, nə sevginin isbatı var, nə mərhəmətin izi var nə də sədaqətin, vəfanın ilk dayabacağı… Yeksənəklik dəhşətdir və çəkilməzdir

**İrade Alili**

# *VE BİR GÜN*

***"rüzgârlarla karışıp gideceğim"***

**Bakü-2021**

**Redaktör ve**
**Türkiye Türkçesine çeviren Meral Bahar**
**Korrektor Semray Aliyeva**

İrade Alili "Ve Bir Gün."
Bakü, "Leman Neşriyyat Poliqrafiya MMC", 2021,

© "Leman Neşriyyat Poliqrafiya MMC", 2021

# *KIRILGAN DUYGULAR*

*(Ön Söz)*

Karşımda henüz kitap olmamış sayfalar var. Bu sayfalara, bir yüreğin sıcaklığı, sevinci, kederi, hasreti yansımış. Mensur şiirlerdir bunlar. Kafiyelenmemiş şiir numuneleri…En çok hoşuma gidenlerin adlarını sayayım: "Sen Olmasaydın", "Külek", "Anama Benzeyen Bir Ana Gördüm", "Senin Geldiğin Yollara"… Aslında yazar İrade Alili'nin kaleminden çıkan bu mensur şiirlerin hepsi edebiyat aleminde tanınan bir söz adamının samimi yürek sözleridir.

Yazarın "Karabağın Tutusu", "Döyüşçü Kadının Senger Hatıraları", "Vatanın Yiğit Döyüşçüleri", "Menim Sevgi Dünyam", "Dünya Sevenlerindir" ve başka kitapları okuyucular tarafından ilgiyle karşılanmış; bu eserlerin tanıtımı sadece ülkemizde değil, onun sınırlarının dışında, özellikle Türkiye'de yapılmış ve basında konu ile ilgili ilginç yazılar kaleme alınmıştır. İrade Alili'nin "Menim Sevgi Dünyam" kitabının 2015' te Türkiye'de basıldığını ve kitabın

tanıtımının da yine kardeş ülkede yapıldığını yeri gelmişken söyleyeyim.

İyi hatırlıyorum, Bakü Yunus Emre Enstitüsünde İrade Alili'nin bir sonraki kitabının sunumuna katıldım. İrade Hanım'ın yeni kitabına şiirleri ve edebi düzyazıları dahil edilmişti. Programa cumhuriyetin tanınmış yazarları ve aydınları gelmiştiler. Toplantıya Türkiye'nin Azerbaycan Büyükelçisi de katıldı. Bu toplantıda bana da söz verildi. Yeni kitap vesilesiyle kalem arkadaşımı tebrik edip bir noktayı özellikle vurguladım: "İrade Alili, çeşitli edebiyat türlerine yönelse de onun sanatında mensur şiirlerin özel bir yeri vardır." Bununla bağlantılı olarak birkaç örnek verdim ve Irade Alili'nin ayrıca mensur şiirler kitabını görmek istediğimi belirttim. İşte, bu okuyucunun isteği gerçekleşti.

İrade Alili'nin mensur şiirlerinde beğendiğim nedir? Her şeyden önce vatana, anaya, insanlara olan büyük sevginin saf duygularla terennümü ve bu hislerin tercümanı olan edebi dil, üslup ve ifade tarzı…

Bazı örneklere bakalım:

" Gözlerimde kal ve orada gizlen. Sana sevdalı olan gözlerimi senden başka duyan olmasın."
( Sen Olmasaydın)

“Yalnız bir ağaç ve bu ağacın bir dalında baharın izi kalan yalnız bir yaprak. Yalnız rüzgar, kıyma o yalnız yaprağa; bırak sonbaharın nefesinde baharını yaşasın.” ( Külek )

“Anama benzeyen bir ana gördüm. Çok yakınımdaydı, bir adım ötede…Kahır boğazımda düğümlendi. Yağmaya her an hazır olan bulut gibi yakalandım.”(Anama Benzeyen Bir Ana Gördüm)

“Ördüm hicranımı senin gittiğin yolların dönüşüne. Ördüm saçlarıma titrek hasretini. Düğüm ettim yüreğime kabusa dönmüş bu sevgini. Sana veda edemeyen ellerimin gölgesi, o yollara uzandı… (Sen Gelen Yollara)

Ben kalem dostuma sanat yollarında büyük başarılar diliyorum. İnanıyorum ki İrade Alili’nin mensur şiirler kitabı okuyucular tarafından ilgiyle karşılanacak ve yazarın kırılgan duyguları kalplere giden yolu bulacaktır.

***Aqşin Babayev***
***Filologiya elmləri doktoru, professor***

# *"rüzgârlara karışıp gideceğim"*

## *ÇEVİRMENİN NOTU*

Bu kitap içsel bir yolculuğun hikâyesi. Öznesi "sevgi", nesnesi "gözyaşı" olan, tümleci "hatıralar"da saklı kalmış bir "unutamama" anlatısı. Vatan, anne, evlat, şehitler, dostlar ve sevgili kitabın merkezine oturan "sevgi"den payını almış. Yolculuk boyunca "sevgi"ye eşlik eden "gözyaşı" kimi zaman hasretten, kimi zaman pişmanlıktan çoğunlukla da unutamamanın dayanılmaz ızdırabından kalbe yol bulup akmış. Birbirinden bağımsız gibi görünen bu metinlerin ortak paydalarından biri de "hatıralar". Geçmişe dalan gözler, hatıraların girdabında hıçkırıklara boğulmuş. Bu hassas duygular, ara ara kendine gelip dik durmaya çalışsa da pişmanlıklar ve "keşke"ler hiç yakasını bırakmamış.

Okur kitlesinin çok farklılaştığı ve "metin" kavramının büyük değişiklikler yaşadığı; yazı türleri arasındaki sınırların belirsizleştiği hatta yeni tür arayışlarının söz konusu olduğu çağımızda, İrade Alili'nin kaleme aldığı bu metinleri nitelendirmek için birden çok ifade kullanabilirsiniz: Deneme, mensur şiir, anı, gezi notu, hikâye, monolog…Ve adına ne derseniz deyin bu kitapta, bir gün rüzğarlara karışıp gidecek olan hüzünlü, hasret dolu, şiirsel ve içsel bir yolculuğa adım adım tanıklık edebilirsiniz.

**Meral BAHAR**

## *DÖNMEK MÜMKÜN MÜ?*

Geçen ömrün dağınık hatıralarını topladıkça, sabırla ruhuma kök salıyor ve dünya ağırlığında keder çöküyor gözlerime. Neden, niye soruları yıllarca süren sınavlardan yorgun düşmüş; zaman zaman tereddütle dolan ve her zaman endişeli olan yüreğimi yine sınava çekiyor. O geçen yıllara, hatıraların hatırlandığı o çağlara dönmek, bir daha dönmek mümkün mü? Keşke dönebilseydik,,, “Teessüf” ve “keşke” sözlerini, keşke hayatımın hatıralar sayfasından silebilseydim…Silebilseydim!

## *AVUTSUN GÜLÜM*

Benden çok çok uzaklardasın nazlı sunam, ömrümün her gününde, hiç olmazsa hayalin yakın olsun bana. Kederli, kırılgan, üzüntülü notalara işlemiş duygularımdasın, gülüm hiç olmazsa hasretin beni avutsun… Hasretim beni avutsun, avutsun gülüm!

## *VATAN ve HASRET…*

Göygöl rayonunun Toğana köyüne giden yolun kenarında bir metal levha dikkatimi çekti: KELBECER-80 km. Bize eşlik eden dostlara sordum: “Kelbecer buraya çok yakın mıdır?, Bu yol nereye gidiyor?”. “Yakındır. Bu köyün son hattı temas noktasıdır ve yolun sonu Kelbecer'e çıkar.” dediler. Sanki ruhum bir anlık beni terk etti. Endişeli, hasret dolu bakışlarım Murov Dağına doğru döndü. Öyle derinden ah çektim ki…Vatan toprağının bu kadar yakınında olup da o topraklara gitme gücüne sahip olamamak…Vatan toprağında demir teller: “Yaklaşma! Dur! Buradan oraya, aziz toprağına gidemezsin!”diye yolunu kesecekler. Hiçbir zaman görmediğim, gezmediğim vatanımın bu yaralı parçasını görmek isteği geçti yüreğimden. Karabağ toprağını sadece hayallerimde gezip dolaşmıştım. O yerlere misafir olmuş, mekanı cennet anamın anlattığı hatıralar canlanmıştı gözlerimde: “Güzel tabiat, sıcacık insanlar, harika bir mekan, yüce dağlar, sarp kayalar, şifalı sıcak sular, güzel kaynaklar, sesi insanın ruhunu okşayan dereler… Özetle: Güzel vatan toprağı.” Kuştan kanat çalıp bir adım bile atamadığım topraklarımda kanat çırpmak, vatanıma misafir olmak istedim. Gözlerim dolmuştu, ağlamamak için kendimi zor

tutuyordum. O anda dikkatimi, düşman ayakları altında ezilen, yüreğine hasret damgası vurulmuş, bağrı yaralı Kelbecer istikametinden gelen Kürekçay çekti. Sanki Kürekçay, kaderine ninni söyleye söyleye, ağlaya ağlaya akıyor ve aktıkça toprağa hasretini anlatıyordu. Biri bir yanda, diğeri bir yanda acı çeken garip vatan toprağının ağıtını söyleye söyleye akıp gidiyordu. Kürekçay'ın kederine katılarak gözyaşlarımı tutamadım, hıçkıra hıçkıra ağladım ve yanan yüreğimle: "Allah'ım, vatanımı özgürlüğüne kavuştur!"diye haykırdım. Allah'ım vatanımı koru!

## *HOŞ GELDİN ÖMRÜME*

Bu seher şafağından nur dökülür. Sevincim damla damla sele döner. Gözlerimden akan sevinç dolu damlalar yıkar gözlerimdeki nice yılın yığılıp kalmış ağrısını, acısını. Uzanırım seninle geçen günlerimin anlarına, dakikalarına. Seni çok zamandır bekliyordum dost, çok zamandır… Ömrümün bu çağına, gelişinle bahar getirdin. Dostum hoş geldin, ömrüme sefa getirdin! Soylu ümidim oldun, çağlayan teselli kaynağım oldun, en dehşetli anlarda beni sakinleştiren hakikatim oldun, hakikatim…Endişeden tükenen cesaretime tesellim, ihtimalim, ümit ışığım oldun. Dert

ortağım oldun dostum, dert ortağım… Temiz duygulum, azizim, bahar edalım, hoş sedalım, dostum, hoş geldin ömrüme, sefa getirdin!

## *RÜZGÂR*

Sana benzetiyorum duygularımdaki kıyıya vuruşu, titreyişi. Sana benzetiyorum yüreğimle değil, çılgın ve tuhaf düşüncelerle verdiğim son kararı, seninle yaşadığım günlere bir daha dönmemeyi. Tıpkı senin bir göz açıp kapayıncaya kadar her şeyi bitirip yerle yeksan etmen gibi… Bir anda güneşin yüzünü bulutlarla örtüp gizlemen gibi. Tutsaksanız, coşan kalbinizi bulutlara boşaltırsınız, onları kavurursunuz, kavurursunuz ve yine de öfkeniz dinmez. Hırsınızı denize, toprağa, ağaçlara dökersiniz, yine de sakinleşemezsiniz. Çılgın rüzgâr, sen de mi yalnızsın, sen de mi? Senin de mi sinen deniz, gözlerin göl oldu? Senin de mi? Yalnız rüzgâr, yalnız yürek…Yalnız bir ağaç ve bu ağacın dalında sonbaharın izini taşıyan sararmış tenha yaprak. Yalnız rüzgâr, kıyma o tenha yaprağa, bırak, sonbaharın nefesinde baharını yaşasın!...

## *SOĞUK YÜREKLER...*

